# AZƏRBAYCANDA 2009-cu İL ÜZRƏ MƏHKƏMƏ PROSESLƏRİNİN MONİTORİNQİ

AZƏRBAYCANDA 2009-CU İL ÜZRƏ MƏHKƏMƏ PROSESLƏRİNİN MONİTORİNQİ

ATƏT
Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
**Bakı Ofisi**

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
Bakı Ofisi

# AZƏRBAYCANDA 2009-CU İL ÜZRƏ MƏHKƏMƏ PROSESLƏRİNİN MONİTORİNQİ

© 2010 ATƏT-in Bakı Ofisi

# Mündəricat


Minnətdarlıq ........ ii

İstifadə edilmiş abreviaturaların siyahısı ........ 1

Giriş........ 2

Hesabatın əhatə dairəsi. Metodologiya ........ 6

I. Ədalət mühakiməsinin və təqsirləndirilən şəxslərin hüquqlarının müşahidəsi ........ 9

1.1 Açıq məhkəmə baxışı hüququ ........ 9

1.2 Məhkəmə baxışlarında iştirak: təqsirləndirilən şəxs, müdafiəçi və prokuror ........ 12

1.3 İrəli sürülmüş ittihamlar barədə məlumat almaq hüququ və özünə qarşı ifadə verməmək hüququ ........ 13

1.4 Pis rəftarla bağlı iddiaları səmərəli şəkildə araşdırmaq vəzifəsi ........ 22

1.5 İşinin müstəqil və qərəzsiz məhkəmə vasitəsilə araşdırılması hüququ ........ 27

1.6 Təqsirsizlik Prezumpsiyası ........ 31

1.7 Tərəflərin bərabərliyi ........ 34

1.8 Şahidləri dindirmək hüququ ........ 38

1.9 Hüquqi yardım almaq hüququ ........ 42

1.10 Tərcüməçinin yardımından pulsuz istifadə etmək hüququ ........ 57

1.11 Əsaslandırılmış məhkəmə qərarı hüququ ........ 60

1.12 Sübutlar və məhkəmə icraatlarının qeyri-adekvat protokollaşdırılması ........ 62

II. Nəticə və Tövsiyələr ........ 65

III. Əlavələr ........ 67

**Minnətdarlıq**

ATƏT-in Bakı Ofisi – Qanunun Aliliyi Şöbəsi (Ofis) 2009-cu ilin mart ayından dekabr ayına kimi keçirilmiş 2009-cu il üzrə Məhkəmələrin Monitorinqi Proqramında iştirak edənlərin və 2010-cu ilin yanvarından mayınadək bu hesabatın tərtib edilməsinə yardım göstərənlərin hər birinə təşəkkür edir.

Proqram Ofisin icraçı tərəfdaşı qismində yerli qeyri-hökumət təşkilatı "Tender Monitorinq Mərkəzi" tərəfindən cənab Əlövsət Əliyev və xanım Aynur Cəfərovanın, o cümlədən, ATƏT-in məhkəmələrin monitorinqi proqramı üzrə məsul şəxsləri xanım Qumral Aslanova, cənab Yan Mortan Olsen, cənab Kamran Bağırov və cənab Rolf Merkolun rəhbərliyi ilə ATƏT-in Bakı Ofisinin Qanunun Aliliyi Şöbəsinin rəhbəri xanım Monika Martinezin nəzarəti altında həyata keçirilmişdir. Adı çəkilən şəxslər məhkəmə proseslərinin müşahidə edilməsi vasitəsilə məlumat əldə etmək üçün Ofisin seçdiyi 16 məhkəmə müşahidəçisinə gündəlik istiqamətləndirmə işini və ATƏT standartlarına uyğun olaraq xüsusi təlimlərin keçirilməsini təmin etmişlər.

Ofis həmçinin, bu hesabatı nəzərdən keçirən və redaktə edən beynəlxalq ekspertlər cənab Mark Lasser və xanım Nadejda Hriptievçiyə minnətdarlığını bildirir. Cənab Lasser həm də 2009-cu ilin mart ayında məhkəmə müşahidəçiləri üçün keçirilən xüsusi təlimlərdə iştirak etmişdir.

Ofis Azərbaycan Hökumətinin məhkəmələrin monitorinqinə göstərdiyi konstruktiv yanaşma və əməkdaşlıq münasibətini alqışlayır və sözügedən Məhkəmələrin Monitorinqi Proqramının səmərəli şəkildə həyata keçirilməsinə şərait yaratdıqlarına görə müvafiq dövlət qurumlarına ehtiramını bildirir. Xüsusilə də, Ədliyyə Nazirliyindən cənab Azər Cəfərov, Məhkəmə-Hüquq Şurasından cənab Cavid Hüseynov, Prokurorluqdan cənab İlqar Cəfərov və Vəkillər Kollegiyasından cənab Azər Tağıyevə xüsusi təşəkkür və minnətdarlığımızı bildirmək istərdik. ATƏT-in Bakı Ofisi hesabatda göstərilən tövsiyələrin icra olunmasında yaxından əməkdaşlıq etmək arzusundadır.

Bundan əlavə, ATƏT Azərbaycanda qanunun aliliyinin və insan hüquqlarına hörmət edilməsinin gələcək inkişafında dövlət orqanlarına, hüquq mütəxəssislərinə və vətəndaş cəmiyyətinə dəstəyini davam etdirməyə hazırdır.

Son olaraq, ATƏT maliyyə yardımları nəticəsində bu proqramın həyata keçirilməsini mümkün edən Finlandiya, Almaniya və Norveç Hökumətinə xüsusi minnətdarlığını bildirir.

**İstifadə edilmiş abreviaturaların siyahısı**

| | |
|---|---|
| AİHK | İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyası |
| MSHBP | Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| ÜİHB | Ümumdünya İnsan Hüquqları Bəyannaməsi |
| CPM | Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi |
| AİHM | Avropa İnsan Hüquqları Məhkəməsi |
| İQK | Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə və Digər Qəddar, İnsanlıqdan Kənar, Yaxud Ləyaqəti Alçadan Davranış və Cəza Növləri Əleyhinə Konvensiyası |

**Giriş**

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (ÜİHB),[1] xüsusilə də İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyası (AİHK)[2] və Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı (MSHBP)[3] kimi digər beynəlxalq sənədlərdə ədalət mühakiməsi üzrə təminatlar və xüsusilə təqsirləndirilən şəxslərin müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və təxirəsalınmaz mühakiməsinin aparılmasını tələb etmək hüququ özündə əks etdirir. Azərbaycan Respublikasının Konstitusiyasının (Azərbaycan Konstitusiyası) 12-ci maddəsinə əsasən, bu hüquq dövlət orqanlarının qarşısındakı yüksək prioritetlərdən biri hesab olunur.[4]

1990-cı ildən etibarən ATƏT-in müvafiq Öhdəlikləri[5] çərçivəsində, ATƏT-ə üzv dövlətlər etibar formalaşdırma tədbiri kimi və ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı üzərilərinə götürdükləri ümumi öhdəliklərin icrası zamanı daha yüksək şəffaflığı təmin etmək məqsədilə digər üzv dövlətlərdən və qeyri-hökumət təşkilatlarından olan məhkəmə prosesləri üzrə müşahidəçiləri öz məhkəmələrinə buraxmağa razılıq vermişlər.

Azərbaycan Respublikası hazırda beynəlxalq ictimaiyyətin dəstəyi ilə öz məhkəmə-hüquq sistemi sahəsində islahatlarını davam etdirir və qanunun aliliyi və insan hüquqlarına hörmət sahəsində irəliləyişlərin əldə edilməsi üçün yeni mexanizmlər tətbiq edir. 2009-cu ildə Azərbaycan hökuməti növbəti illərdə (2009-2013) həyata keçiriləcək Ədliyyə Sisteminin İnkişafı ilə bağlı müfəssəl Dövlət Proqramı qəbul etmişdir. Həmçinin, Ədliyyə Nazirliyi tərəfindən hal-hazırda Dünya Bankı ilə birgə Ədliyyə Sisteminin Müasirləşdirilməsi Layihəsi (2006-2011) həyata keçirilir. Bu isə öz növbəsində mövcud məhkəmə binalarının əsaslı təmiri və yenilərinin tikintisini nəzərdə tutur ki, nəticədə məhkəmələrin infrastrukturunun yaxşılaşdırılmasına gətirib çıxaracaqdır. Bundan əlavə, Dünya Bankının Ədliyyə Sisteminin Müasirləşdirilməsi Layihəsi çərçivəsində 20-dən artıq məhkəməni əhatə edən məhkəmə kompleksləri və binalarının layihələşdirmə işləri aparılmış, Yasamal Rayon Məhkəməsinin inzibati binasının inşasına başlanılmışdır.

Konstitusiya Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının binaları da müasir texnologiyalarla təchiz olunub. Bütün məhkəmələr üçün texniki avadanlıqlar və müasir proqram təminatlarının yaxın gələcəkdə quraşdırılması nəzərdə tutulub və fərdi internet səhifələrinə malik məhkəmələrin sayı 19-a çatıb (2008-ci ildə bu rəqəm 4 idi).

---

[1] BMT-nin Baş Assambleyasının 10 dekabr 1948-ci il tarixli 217 A (III) saylı qətnaməsi.
[2] Roma şəhəri, 4 noyabr 1950-ci il.
[3] BMT-nin Baş Assambleyasının 16 dekabr 1966-cı il tarixli 2200A (XXI) saylı qətnaməsi (23 mart 1976-ci ildə qüvvəyə minmişdir).
[4] "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquq və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir", Azərbaycan Respublikasının Konstitusiyasının (1995) 12-ci maddəsinin I-II bəndləri.
[5] 1989-cu il Vyana Sənədi, 1990-cı il Kopenhagen Sənədi və 1990-cı il Moskva Sənədi.

Ədliyyə idarəçiliyinin beynəlxalq standartlara uyğunlaşdırmaq məqsədilə məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə həyata keçirilən tədbirlər çərçivəsində İnzibati Prosessual Məcəllə[6] qəbul edilmiş, yerli iqtisad məhkəmələrinin bazasında inzibati mübahisələrə dair işlər üzrə məhkəmələrin yaradılması və onların 2011-ci ilin yanvarın 1-dən fəaliyyətə başlaması nəzərdə tutulur. Bu, rayon məhkəmələrinin üzərində düşən iş yükünü azaltmaqla ümumi məhkəmənin səmərəliliyini artırılmağa kömək edəcəkdir.

Ədliyyə Nazirliyi və digər dövlət qurumları məhkəmə hakimiyyətinin gücləndirilməsi istiqamətində bir sıra təqdirəlayiq tədbirlər görmüşlər. 2008-ci ilin sonunda hakimlərin seçilməsi prosesinə yenidən başlanılmış və 2009-cu ildə müxtəlif beynəlxalq və yerli müşahidəçilərin iştirakı ilə, test üsulu ilə və yazılı imtahanlar, habelə şifahi müsahibələrdən müvəffəqiyyətlə keçmiş 80 (cəmi 440 nəfər namizəd sırasından) nəfər hakimliyə namizəd hakim vəzifəsinə hazırlanmaları üçün Ədliyyə Akademiyasında uzunmüddətli təlimə cəlb olunmuşlar. Hakimliyə seçim imtahanlarının açıq və demokratik prosesinin təsis edilməsi şəffaf və ədalətli məhkəmə sisteminin yaradılması öhdəliyini özündə əks etdirmişdir.

Məhkəmə Hüquq-Şurası tərəfindən tərtib etdiyi tədris proqramına əsasən ATƏT, Avropa Şurası, Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti (GTZ) və digər beynəlxalq təşkilatların texniki yardımı ilə Hakimlərin Seçki Komitəsi hakimliyə seçilmiş namizədlər üçün intensiv təlimlər təşkil edilmişdir. Bundan əlavə ilk dəfə olaraq bütün 80 namizədin Ankara və İstanbula səfəri təşkil olunmuş və orada onlar iki həftəlik nəzəri və praktiki təlimlərdə iştirak etmişlər. Bundan başqa, Məhkəmə Hüquq-Şurasının tədris sektoru tərəfindən müxtəlif aktual sahələr üzrə tədris proqramları hazırlanmış və birinci instansiya məhkəmələrinin hakimləri üçün həmin proqramlara uyğun təcrübəli xarici mütəxəssislərin, o cümlədən ATƏT-in ekspertlərinin iştirakı ilə keçirilmişdir.

Həmçinin 2009-cu ilin aprel ayında məhkəmə aparatının işçiləri, ö cümlədən Bakı və Sumqayıt apellyasiya, 1 saylı Bakı yerli iqtisad, Sumqayıt yerli iqtisad, Bakı şəhərinin rayon və Sumqayıt şəhər dəftərxana işçiləri üçün Ədliyyə Akademiyasında təlim kursları təşkil edilmişdir.

Məhkəmə-Hüquq Şurasının məlumatına əsasən nizam-intizam qaydalarına riayət etməyən hakimlərə qarşı intizam tədbirləri görülmüşdür.

Yuxarıda sadalanan nailiyyətlərlə yanaşı 2009-cu ildə Azərbaycan Ümumi Məhkəmə Hakimləri Assosiasiyası[7] 74-dən çox dövlətin təmsil olunduğu "Hakimlərin Beynəlxalq Assosiasiyası"na fövqəladə üzv seçilmişdir.

Aparılan məhkəmə-hüquq islahatları çərçivəsində məhkəmə proseslərinin monitorinqi yeni islahatalrın təcrübədə əks edilmə dərəcəsinin ölçülməsi üçün həyata keçirilən vasitələrdən yalnız biridir. Qısa desək,

---

[6] Azərbaycan Respublikasının Qanunu, № 846-IIQ, 30 iyun, 2009-cu il.
[7] *Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimləri Assosiasiyası*

məhkəmə proseslərinin monitorinqi ölkənin müxtəlif məhkəmələrində həyata keçirilən dolğun və obyektiv proqramdır. Məhkəmə proseslərinin monitorinqi ATƏT-in məhkəmə monitorinqi proqramları üzrə əsas prinsiplərinə uyğun aparılmışdır: məhkəmə proseslərinə müdaxilə etməmək, obyektivlik və müvafiq dövlət orqanları ilə razılıq.

Bu hesabat Ofisin Azərbaycanda həyata keçirdiyi Məhkəmə Monitorinqi Proqramının üçüncü mərhələsinə həsr olunub.

- Birinci mərhələdə 15 oktyabr 2003-cü il tarixdə keçirilmiş prezident seçkilərindən sonra Bakıda baş vermiş iğtişaşlarla bağlı ittihamları araşdıran 15 məhkəmə prosesinin monitorinqi aparılmışdır. Məhkəmə Monitorinqi Proqramının birinci mərhələsi başa çatdıqdan sonra Ofis noyabr 2003-cü ildən noyabr 2004-cü ilə qədər keçirdiyi bu monitorinqin nəticələri üzrə hesabatı nəşr etmişdir.

- 2006-2007-ci illəri əhatə etmiş ikinci mərhələ daha da genişlənərək, Bakı və Sumqayıt şəhərlərində 500-dən artıq cinayət işi üzrə məhkəmə proseslərinin monitorinqini əhatə etmişdir. İkinci mərhələyə həsr olunmuş Məhkəmə Monitorinqi Proqramı üzrə hesabat 2008-ci ilin aprel ayında tamamlanmış və ictimaiyyətə təqdim edilmişdir.[8]

- 2009-cu ili əhatə etmiş üçüncü mərhələdə proqram daha da genişlənərək, həm də mülki işlər üzrə məhkəmə proseslərini və Şəki, Gəncə, Şirvan və Lənkəran məhkəmələrini də əhatə etmişdir. 15 mart tarixdən 31 dekabr 2009-cu ilə qədər 1,088 cinayət və mülki iş üzrə 1,679-dan çox məhkəmə prosesi müşahidə edilmişdir. Üçüncü mərhələ ərzində məhkəmə müşahidəsi İcraçı Tərəfdaş[9] və Ofis-in cəlb etdiyi və müşahidənin müstəqilliyi qərəzsizliyi, obyektivliyi, dəqiqliyi və ardıcıllığı üzrə təlim keçmiş 16 yerli müşahidəçi tərəfindən aparılmışdır. İcraçı Tərəfdaş və müşahidəçilər Ofisin Qanunun Aliliyi Şöbəsinin rəhbərinin nəzarəti və rəhbərliyi əsasında fəaliyyət göstərmişlər.

Bu hesabatda əksini tapmış nəticələr və tövsiyələr Azərbaycan Respublikasının müvafiq dövlət qurumları ilə müntəzəm olaraq müzakirə edilmişdir. Azərbaycanın dövlət orqanları tərəfindən ölkədə ədalət mühakiməsinin necə həyata keçirildiyini qiymətləndirmək üçün əldə edilmiş faktlardan diaqnostik vasitə kimi ən uyğun formada istifadə ediləcəkdir. Bundan başqa, Azərbaycanda məhkəmə sisteminin idarə olunmasını daha da təkmilləşdirmək üçün müvafiq dövlət orqanlarına kömək məqsədilə bu hesabata tövsiyələr daxil edilmişdir.

2009-cu ilin Məhkəmə Monitorinqi Proqramı ərzində ədalət mühakiməsi standartları ilə bağlı aşağıdakı narahatlıq doğuran hallar qeydə alınmışdır:

---

[8] Hesabatı ATƏT-in internet səhifəsindən – www.osce.org/baku - yükləyə bilərsiniz.
[9] Yerli qeyri-hökumət təşkilatı: “Tender Monitorinq Mərkəzi”.

- Təqsirləndirilən şəxslərə vaxtında və tam şəkildə hüquqlarının izah olunmamağı (məs: ittihamın mahiyyəti, ifadə verməmək, şikayət etmək və sair hüquqlar);
- İşgəncə və pis rəftarla bağlı təqsirləndirilən şəxslərin iddialarının araşdırılmamağı;
- Müstəqil və qərəzsiz məhkəmə hüququ ilə bağlı problemlər (məs: istintaqın qərəzli aparılması, yaxud dövlət ittihamçısının təqsirləndirilən şəxsə münasibətdə qəbuledilməz davranışının qarşısının alınmamağı);
- Təqsirsizlik prezumpsiyası ilə bağlı problemlər (məs: məhkəmə dinləmələri zamanı təqsirləndirilən şəxsin əliqandallı və dəmir barmaqlıqlarda saxlanması və hakim tərəfindən təqsirləndirilən şəxsə qarşı onun günahkar olmasına işarə edən qeyri-məqbul ifadələrin işlədilməsi);
- Tərəflərin bərabərliyi ilə bağlı problemlər (məs: dövlət ittihamçısının vəsatətlərinə üstünlük verilməsi);
- Təqsirləndirilən şəxsin şahid dəvət etmək, dindirmək və ya ona qarşı ifadə vermiş şahidi dindirmək hüququ ilə bağlı narahatlıqlar;
- Hüquqi yardım almaq hüququ ilə bağlı narahatlıqlar, (məs: təqsirləndirilən şəxsin müdafiəçi ilə təmin olunmamağı, ona pulsuz hüquqi yardım hüququnun olması barədə məsləhətin verilməməyi, yaxud müdafiəçiyə təqsirləndirilən şəxsin müdafiəsinə müvafiq şəkildə hazırlaşmaq üçün kifayət qədər vaxtın ayrılmamağı);
- Ehtiyac olan hallarda Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin (CMP)[10] 99-cu maddəsində irəli sürülmüş meyara uyğun olaraq ya tərcüməçinin təmin edilməməyi, ya da tərcüməçinin təyin edilməməyi;
- Məhkəmə qərarlarının əsaslandırılmamağı ki, bu da şikayət vermək hüququndan tam istifadəyə də təsir göstərmişdir;
- Məhkəmə iclasının katibi tərəfindən məhkəmə iclası protokolunun ardıcıl aparılmamağı.

Ofis təqdirəlayiq hal kimi qeyd edir ki, 2006-2007-ci illərdə məhkəmələrin monitorinqi üzrə 2008-ci ilin aprel ayında dərc olunmuş sonuncu hesabatda əksini tapan bəzi narahatlıqlar və tövsiyələrdə əks olunan məsələlər dövlət orqanları tərəfindən hüquqi islahatlar və digər tədbirlərin həyata keçirilməsi, məhz vəkillərin və hakimlərin sayının artırılması və məhkəmə iclas zallarından tam uyğun istifadə məqsədilə məhkəmə binalarının təmir edilməsi vasitəsilə səmərəli şəkildə həllini tapıb. Lakin təəssüf ki, tövsiyələrdə əks olunan digər hallar, xüsusilə də məhkəmənin müstəqilliyi və tərəflərin bərabərliyi ilə bağlı məsələlər həllini tapmayıb. Bundan başqa, Ofis vəkillər də daxil olmaqla, hüquq mütəxəssisləri üçün təlim proqramlarını dəstəkləyəcək Ədliyyə Akademiyasının yaradılmasını da alqışlayır.

---

[10] 1 sentyabr 2000-ci il.

**Hesabatın əhatə dairəsi. Metodologiya**

2009-cu ildə Azərbaycanda Məhkəmə Monitorinqi Proqramının ümumi məqsədi ədalətli məhkəmə hüququna hörmətin və ATƏT-in Öhdəliklərinə riayət olunmasının artırılması olmuşdur. Xüsusilə də, proqram Azərbaycanda ədalət mühakiməsinin həyata keçirilməsi istiqamətində baş verən irəliləyişləri və nəzərə çarpan çatışmazlıqları müəyyən etmək məqsədilə məhkəmə proseslərinin daha yaxından müşahidə edilməsi, proqramın gəldiyi nəticələrin illik hesabatda əks etdirilməsi və Azərbaycan dövlət qurumlarına müvafiq tövsiyələrin verilməsi üçün həyata keçirilmişdir. Proqram həmçinin vətəndaş cəmiyyətinin nümayəndələrinin məhkəmə proseslərinin monitorinqinin aparılması və dəqiq hesabatların hazırlanması sahəsində potensiallarının gücləndirilməsini və milli və beynəlxalq iştirakçıların ədalətli məhkəmə hüququ və mövcud pozuntular barədə məlumatlarının artırılmasını nəzərdə tutan komponenti də özündə ehtiva edir. Bu isə Azərbaycanda məhkəmə sisteminin inkişafına yönələcəkdir.

Proqramın aşağıdakı əsas məqsədləri var:

- Məhkəmə proseslərinin şəffaflığına nail olmaqla ədalət mühakiməsinin həyata keçirilməsinə inamın artırılması;
- Məhkəmə sistemində milli qanunvericilik və müvafiq beynəlxalq standartlara uyğun olaraq ədalətli məhkəmə hüququnun tətbiqinin daha da genişləndirilməsi; və
- Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatlarını dəstəkləməklə mövcud çatışmazlıqları müəyyən etməkdə və qeyd olunan islahatların gələcəkdə daha səmərəli şəkildə həyata keçilməsinə nail olmaqda müvafiq dövlət orqanlarına, o cümlədən Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurasına kömək göstərilməsi.

2009-cu ildə Məhkəmə Monitorinqi Proqramını başlamazdan əvvəl Ofis Ədliyyə Nazirliyinə və Məhkəmə-Hüquq Şurasına proqramanın məqsədləri barədə məlumat vermiş və məhkəmə proseslərinə çatımlıqda yardım etmələri üçün məhkəmə proseslərinin monitorinqini aparacaq müşahidəçilərin siyahısını təqdim etmişdir.

Ofisin məhkəmə proseslərinin monitorinqini aparan müşahidəçiləri (Layihə Qrupu) ölkənin müxtəlif instansiya məhkəmələrində - 14 müşahidəçi Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə və Bakı Apellyasiya Məhkəməsi də daxil olmaqla Bakı şəhərinin rayon məhkəmələrində, 4 müşahidəçi isə ətraf rayonların məhkəmələri də daxil olmaqla Şəki, Şirvan, Gəncə və Sumqayıt şəhərlərinin məhkəmələrində monitorinqlər aparmışlar. Layihə Qrupunun rolu məhkəmə proseslərini diqqətlə və neytral şəkildə müşahidə etmək və həmin müşahidələr əsasında izlənmiş hər bir məhkəmə prosesi haqqında təfərrüatlı hesabat hazırlamaqdan ibarət olmuşdur. Layihə Qrupu məhkəməyə təqdim olunmuş sübutların əsaslı olub-olmamasını, işin mahiyyətini və təqsirləndirilən şəxsin təqsirli olub-olmamasını qiymətləndirməmişlər. Əvəzində, Layihə Qrupu məhkəmələrdə təqsirləndirilən şəxslərin həm Azərbaycan Respublikasının Konsitusiyasının 25-ci maddəsində,

həm də AİHK-in 6-cı maddəsində nəzərdə tutulan ədalətli məhkəmə araşdırması hüququna riayət olunub-olunmamasına diqqət yetirmişlər.

Ədalətli məhkəmə araşdırması hüququ bütün cinayət işlərinə münasibətdə tətbiq olunan hamılıqla qəbul edilmiş və uzun zamandan bəri mövcud olan insan hüquqları standartıdır. Ədalətli məhkəmə araşdırması hüququ ÜİHB, MSHBP və AİHK tərəfindən təmin olunur. Milli hüquq sistemlərində ədalətli məhkəmə standartının tətbiq edilməsi hər bir şəxsin özbaşınalıq və dövlət orqanlarının öz səlahiyyətlərindən sui-istifadə etməsindən hüquqi müdafiəsini təmin etmək üçün hər bir Dövlətin atdığı ən mühüm addımlardan biridir. Bu hüquq qanunun düzgün tətbiq edildiyi hala xas olan bəzi prosessual tələblər və təminatlara riayət edilməsi və onlara müvafiqliyi doğurur ki, bunlara aiddir: 1) məhkəmənin gərəksiz gecikməyə yol vermədən tez bir zamanda məhkəmə icraatını həyata keçirməsi tələbi;[11] 2) təqsirləndirilən şəxsin məhkəmə icraatında iştirak etmək və şəxsən dinlənilmək hüququ;[12] 3) təqsirləndirilən şəxsə özünə qarşı ittihamlara cavab vermək üçün adekvat şəraitin yaradılması da daxil olmaqla, müdafiə hüququ; 4) məhkəmə icraatlarında tərəflərin bərabər prosessual hüquqlara malik olması və ya "tərəflərin bərabərliyi" prinsipi; 5) icraatların çəkişmə xarakterli olması prinsipi;[13] 6) hüquqi yardım almaq hüququ.

AİHK-in bütün maddələri kimi, 6-cı maddə də Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) presedentlərində şərh olunur. Bu presedentlər Konvensiyada təsbit olunan hüquq və vəzifələrin mahiyyətini izah edir və həmin hüquq və İştirakçı Dövlətlərin həmin hüquq və vəzifələri həyata keçirməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Həm Konvensiyada təsbit olunmuş müddəalar, həm də AİHK-in presedentləri Azərbaycan Respublikasının milli qanunvericiliyinin tərkib hissəsidir.[14]

AİHK və AİHM-in qərarlarından əlavə, müşahidələr həm də məhkəmə proseslərinin aşağıdakı vasitə və sənədlərdə təsbit edilmiş standart və öhdəliklərə uyğun aparılıb-aparılmadığını təyin etmək məqsədilə aparılmışdır:

- Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt
- Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə və Digər Qəddar, İnsanlıqdan Kənar, Yaxud Ləyaqəti Alçadan Davranış və Cəza Növləri Əleyhinə Konvensiyası (İQK)[15]
- Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il)
- Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi (2000-ci il)
- ATƏT-in Öhdəlikləri

---

[11] Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsi, 32 saylı Ümumi Şərh, Maddə 14: Məhkəmədə tərəflərin bərabərliyi və ədalətli məhkəmə araşdırması hüququ, 27-ci bənd.
[12] *Botten Norveçə qarşı* məhkəmə işi, AİHM-in 19 Fevral 1996-cı il tarixli Qərarının 53-cü bəndi, Ərizə Nömrəsi:162\90.
[13] Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsi, 26 mart 1992-ci ildə qəbul edilən Rəy, *D.Volf Panamaya qarşı* məhkəmə işi, AİHM-in 289\1988 saylı Kommunikasiyasının 6.6-cı bəndi.
[14] Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsinin II bəndi və 151-ci maddəsi və Ali Məhkəmənin Plenumunun 30 mart 2006-cı il tarixli Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvnsiyası müddəalarının və Avropa İnsan Hüquqları Məhkəməsinin presedentlərinin tətbiqi haqqında 5 saylı Qərarı.
[15] 10 dekabr 1984-cü il.

Monitorinqi aparılmış hər bir iş üzrə məhkəmə prosesləri üzrə hesabat forması doldurulmuşdur ki, orada da həbsə alınmanın ilk anından başlayaraq birinci instansiya məhkəməsində işə baxılması tamamlana qədər milli və Avropa regional və beynəlxalq standartlara nə dərəcədə əməl edildiyi əks etdirilmişdir.

Məhkəmə proseslərinin onların ədalət mühakiməsi standartlarına uyğunluğunu qiymətləndirmək məqsədilə monitorinqinin aparılması üçün təsadüfi seçim yolu ilə seçilməsi ilə yanaşı, məhkəmə proseslərinin monitorinqi qrupu jurnalistlər, vətəndaş cəmiyyətinin nümayəndələri, hüquq müdafiəçiləri və müxalif siyasi partiyaların üzvlərinə qarşı açılmış işləri araşdıran xüsusi maraq kəsb edən məhkəmə proseslərini ayrı-ayrı müşahidə etmişdir.

Hər bir müşahidəçi apardığı monitorinqin nəticələri barədə gündəlik hesabat vermişdir və məhkəmə proseslərinin monitorinqi üzrə sorğu vərəqəsini yekun təhlilin aparılması və müvafiq məlumatların məhkəmə proseslərinin monitorinqi üzrə aralıq hesabata daxil edilməsi üçün Ofisin Qanunun Aliliyi Şöbəsinə təqdim etmişdir. Qanunun Aliliyi Şöbəsi ədalətli mühakimənin hansı prinsipinin pozulduğunu aşkar etmək məqsədilə, aparılmış müşahidələrin nəticələrinin hüquqi təhlilini aparmışdır. Ofis məhkəmə proseslərinin monitorinqi proqramının təkmilləşdirilməsi və məhkəmə prosesləri üzrə müşahidəçilər tərəfindən qaldırılmış məsələlərin araşdırılması üçün müntəzəm görüşlər təşkil etmişdir.

Layihə Qrupu tərəfindən mart – dekabr 2009-cu il tarixləri arasında aparılmış müşahidələr nəticəsində hazırlanmış hesabat əsasında Ofis məhkəmə proseslərinin monitorinqi üzrə üç Aralıq Hesabat tərtib etmişdir:

- 15 mart – 15 may 2009-cu il dövrünü əhatə edən məhkəmə proseslərinin monitorinqi üzrə 1-ci Aralıq Hesabat;
- 15 may – 15 sentyabr 2009-cu il dövrünü əhatə edən məhkəmə proseslərinin monitorinqi üzrə 2-ci Aralıq Hesabat;
- 2009-cu ilin dekabr ayının sonuna qədər qalan dövrü əhatə edən məhkəmə proseslərinin monitorinqi üzrə 3-cü Aralıq Hesabat.

30 iyun 2009-cu il tarixdə və 5 mart 2010-cu il tarixdə Ofis dövlət orqanlarının, məhkəmə hakimiyyəti, prokurorluq orqanları və Vəkillər Kollegiyasının nümayəndələri ilə görüş keçirmişdir. Bu görüşlərdən əvvəl ATƏT monitorinqin ilkin nəticələri barədə hesabatın surətlərinin iştirakçı tərəflərə göndərmişdir. Görüşlərin məqsədi məhkəmə proseslərinin monitorinqi üzrə yekun hesabata daxil ediləcək məlumatların tam dəqiqliyini təmin etmək üçün bütün maraqlı tərəflərə ilkin nəticələrlə bağlı fikirlərini bildirməyə daha geniş müstəvidə imkan yaradılması idi.

# I. Ədalət mühakiməsinin və təqsirləndirilən şəxslərin hüquqlarının müşahidəsi

## *1.1 Açıq məhkəmə baxışı hüququ*

AİHK-in 6-cı maddəsinin 1-ci bəndində deyilir:

"*Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən ... işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Məhkəmə qərarı açıq elan edilir, lakin demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik maraqları naminə, həmçinin yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb etdikdə, yaxud məhkəmənin fikrincə, aşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallar zamanı ciddi zərurət olduqda mətbuat və ictimaiyyət bütün proses boyu və ya onun bir hissəsində məhkəmə iclasına buraxılmaya bilər*"

Məhkəmə orqanlarında proseslərin açıq aparılması tərəfləri ədalət mühakiməsinin heç bir ictimai nəzarət olmadan məxfi həyata keçirilməsindən müdafiə edir. Bu həmçinin rayon məhkəmələrindən başlayaraq Ali Məhkəməyə qədər məhkəmələrə inamın təmin edilməsi üçün bir vasitədir. Ədalət mühakiməsinin açıq şəkildə həyata keçirilməsi 6-cı maddənin 1-ci bəndində qarşıya qoyulmuş məqsədə – Konvensiyanın mahiyyətinə görə istənilən demokratik cəmiyyətin təməl prinsiplərindən olan ədalətli məhkəməyə nail olmağa imkan yaradır.[16]

Hər bir işdə "məhkəmə qərarının" cavabdeh Dövlətin yerli qanunvericiliyi ilə icazə verilən aşkarlıq forması sözü gedən məhkəmə prosedurunun spesifik xüsusiyyətləri nəzərə alınmaqla və 6-cı maddənin 1-ci bəndinin predmeti və məqsədinə istinad edilməklə qiymətləndirilməlidir.[17] AİHM hesab edir ki, məhkəmə prosesi yalnız ictimaiyyət məlumat əldə edə bildiyi təqdirdə aşkarlıq tələbinə uyğun təşkil edilmiş hesab olunur. Bu, sadəcə, məhkəmə baxışının iştirak etmək istəyən şəxsləri yerləşdirəcək böyüklükdə olan adi məhkəmə zalında keçirildiyi halda təmin edilmiş olur. Buna görə də AİHM qeyd edir ki, məhkəmə baxışının adi məhkəmə zalından kənarda keçirilməsi, xüsusilə də geniş ictimaiyyətin buraxılmadığı həbsxana kimi yerlərdə keçirilməsi onun açıqlığına ciddi xələl gətirir. Bu halda Dövlət məhkəmə baxışının keçiriləcəyi yer barədə ictimaiyyətə və kütləvi informasiya vasitələrinə müvafiq məlumatın verilməsini və onların həmin yerə sərbəst şəkildə buraxılmasını təmin etmək üçün müvafiq tədbirlər görmək öhdəliyi daşıyır.[18]

---

[16] *Pretto və başqaları İtaliyaya qarşı* məhkəmə işi, AİHM-in 8 dekabr 1983-cü il tarixli Qərarının 21-ci bəndi; *Aksen Almaniya Federativ Respublikasına qarşı* məhkəmə işi, AİHM-in 8 dekabr 1983-cü il tarixli Qərarının 25-ci bəndi; *Sutter İsveçrəyə qarşı* məhkəmə işi, 22 fevral 1984-cü il tarixli Qərarının 26-cı bəndi.
[17] *Pretto və başqaları İtaliyaya qarşı* məhkəmə işi, AİHM-in 8 dekabr 1983-cü il tarixli Qərarının 26-cı bəndi.
[18] *Ripan Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 14 fevral 2001-ci il tarixli Qərarının 29-cu bəndi.

Açıq məhkəmə baxışı hüququnun məhdudlaşdırılmasına əsas ola biləcək hallar 6-cı maddənin 1-ci bəndində aydın şəkildə təsbit edilir. AİHM ictimaiyyətin məhkəmə zalına girişini məhdudlaşdırmaq istədiyi hər bir halda bu, yalnız *"vəziyyət qəti şəkildə belə tələb etdikdə"* [19] mümkündür. Tam aydın şəkildə qeyd edilməsə də, bu onu nəzərdə tutur ki, hər bir halda yerli hakim ictimaiyyətin hansı səbəbdən məhkəmə baxışına buraxılmadığını aydın şəkildə izah etməlidir. Lakin AİHM Dövlətin müəyyən kateqoriyaya aid işləri bütünlükdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik maraqları naminə, həmçinin yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi üçün zəruri hesab edərək, ümumi qaydaya istisna hesab etməsində heç bir pozuntu aşkar etməmişdir, hərçənd ki, bu cür tədbirin həmişə Məhkəmənin nəzarətinə cəlb edilməsi zəruridir.[20]

Azərbaycan Konstitusiyasının 127-ci maddəsinin V bəndinə və CPM-in 27.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında cinayət işləri ilə bağlı ədalət mühakiməsi bütün məhkəmələrdə açıq aparılır. CPM açıq məhkəmə baxışı hüququna dair AİHK-in təsbit etdiyi məhdudlaşdırma hallarına oxşar hallar müəyyən edir, konkret desək, ictimai qayda və ya milli təhlükəsizlik, yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi ilə bağlı olan hallarda, o cümlədən, məhkəmənin fikrincə aşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi hallarda məhdudlaşdırmaya yol verir.

Bundan başqa, Azərbaycan da daxil olmaqla, ATƏT-ə üzv dövlətlər üzərlərinə öz məhkəmələrində ədalətli məhkəmə standartlarına hörmət etmək və onları tətbiq etmək öhdəliyi götürmüşlər.

> *[İştirakçı Dövlətlər] ağlabatan vaxt ərzində müstəqil və qərəzsiz məhkəmədə ədalətli və açıq məhkəmə baxışının keçirilməsini tələb etmək hüququnu, o cümlədən, hüquqi dəlillər təqdim etmək hüququnu və seçdiyi müdafiəçi ilə təmsil olunmaq hüququnu təmin edəcəklər;*[21]

> *[...]Hər kəsin ona qarşı irəli sürülmüş cinayət ittihamının araşdırılması və ya məhkəmə prosesi zamanı onun hüquqlarının və vəzifələrinin müəyyən edilməsi zamanı qanuna müvafiq qaydada təşkil olunmuş səriştəli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq məhkəmə baxışının keçirilməsini tələb etmək hüququ vardır;*[22]

2009-cu ildə Məhkəmə Monitorinqi Proqramı açıq məhkəmə baxışı hüququnun ümumilikdə təmin edildiyi müəyyən etmişdir. Monitorinqin aparıldığı məhkəmələrin əksəriyyətində vaxt və yer barədə məlumatlar müvafiq qaydada açıqlanmışdı. Müşahidəçilər qeyd etmişlər ki, məhkəmələrin əksəriyyətində maraqlı tərəflərin və ictimaiyyət üzvlərinin məhkəmə baxışlarında iştirakı üçün müvafiq şərait yaradılmışdı.

---

[19] *Diennet Fransaya qarşı* məhkəmə işi, AİHM-in 26 sentyabr 1995-ci il tarixli Qərarının 34-cü bəndi.
[20] *B və P Birləşmiş Krallığa qarşı* məhkəmə işi, AİHM-in 24 aprel 2001-ci il tarixli Qərarının 39-cu bəndi; həmçinin *Kambel və Fel Birləşmiş Krallığa qarşı* məhkəmə işi, AİHM-in 28 iyun 1984-cü il tarixli Qərarının 87-88-ci bəndləri; *Ripan Avstriyaya qarşı* məhkəmə işi, 14 fevral 2001-ci il tarixli Qərarının məhkəmə nəzarətinə dair 34-cü bəndi.
[21] ATƏT-in Öhdəlikləri, Ədalətli məhkəmə hüququ, Vyana 1989 ("Təhlükəsizliklə bağlı suallar", 13.9-cu bənd).
[22] ATƏT-in Öhdəlikləri, Ədalətli məhkəmə hüququ, Kopenhagen 1990-cı il, 5.16-cı bənd.

Müşahidəçilər cari məhkəmə baxışları barədə açıqlanan məlumatların keyfiyyəti, bəzi məhkəmə binalarına və iclas zallarına girişin qarşısını almaq üçün maneələrin yaradılması və məhkəmə proseslərinin hakimlərin kabinetlərində keçirilməsi halları ilə bağlı narahatlıqlarını ifadə etmişlər.

*Məhkəmə baxışları barədə məlumatların yerləşdirilməsinə* gəldikdə,[23] müşahidələrin aparıldığı məhkəmələrin əksəriyyətində vaxt və yer barədə məlumatlar müvafiq qaydada açıqlanmışdı. Problemlər Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə, Şəki Şəhər Məhkəməsi və Şirvan Şəhər Məhkəməsində müəyyən edilmişdir ki, həmin məhkəmələrdə məhkəmə iclasları barədə ümumiyyətlə heç bir məlumat açıqlanmamışdır. Şəki və Şirvan Şəhər Məhkəmələrində Məhkəmələrin Monitorinqi Proqramının sonuna doğru müsbət irəliləyişlər müşahidə edilsə də, Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə bütün monitorinq müddətində məhkəmə iclasları barədə məlumatları tələb olduğu kimi ictimaiyyətə əlçatan lövhələrdə deyil yalnız məhkəmə işçilərindən əldə etmək mümkün olmuşdur. Şəki Apellyasiya Məhkəməsi və Bakı Apellyasiya Məhkəməsində[24] hesabat müddəti ərzində yalnız mülki işlərlə bağlı məlumatlar açıqlanmışdır.

Layihə Qrupu həmçinin, *Şəki Apellyasiya Məhkəməsinə daxil olmaqla bağlı bəzi məhdudiyyətlərin* olduğunu müşahidə etmişdir. Məhkəmənin binası polis nəfərləri tərəfindən mühafizə olunurdu ki, onlar da məhkəmə iclası zamanı binaya yalnız iş üzrə tərəfləri (təqsirləndirilən şəxsin qohumları daxil olmaqla) buraxırdılar. Layihə Qrupu nümayəndələrindən başqa ictimaiyyətdən heç kəsin məhkəmə binasına daxil olmasına icazə verilməmişdir. Eynilə, bir başqa halda, Layihə Qrupu bildirmişdir ki, 30 aprel tarixdə nə onun nümayəndələrinin, nə də Norveç Səfirliyinin nümayəndə heyətinin Ali Məhkəməyə daxil olmalarına icazə verilməmişdir. Məhkəmə iclasının qapalı keçirilmədiyinə baxmayaraq, məhkəmə administrasiyası heç bir izahat vermədən içəri daxil olmağa imkan verməmişdir. Layihə Qrupu sonrakı məhkəmə iclaslarına buraxıldığı üçün buna təsadüfi hal kimi baxılmışdır.

Layihə Qrupu məhkəmələrin əksəriyyətinin məhkəmə baxışlarında maraqlı tərəflərin və ya ictimaiyyət nümayəndələrinin iştirak etməsi üçün müvafiq şərait yaratdıqlarını qeyd etsələr də, bəzi hallarda məhkəmə zallarının darısqal olması səbəbindən məhkəmə baxışlarında iştirak etmək istəyən xeyli sayda insan kənarda qalmalı olmuşdur. Layihə Qrupu, həmçinin məhkəmə iclaslarının *hakimlərin kabinetlərində* keçirilməsi ilə səciyyələnən bir neçə halı qeyd etmişdir. Məsələn, müşahidəçilər Xətai Rayon Məhkəməsində[25] və Şirvan Şəhər Məhkəməsində[26] daha az ağır cinayətlərlə bağlı məhkəmə baxışları hakimlərin xidməti kabinetlərində

---

[23] *Artiko İtaliyaya qarşı* məhkəmə işi, AİHM-in 13 may 1980-ci il tarixli Qərarının 29-cu bəndi.
[24] Bakı Apellyasiya Məhkəməsində baş tutacaq proseslər barədə məlumat məhkəmənin internet səhifəsində - http://www.bakuappealcourt.gov.az - yerləşdirilir.
[25] Cinayət Məcəlləsinin 221.1-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Elnur Əhmədovun işi, 27 aprel 2009-cu il; Cinayət Məcəlləsinin 263.1-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Kənan Behbudovun işi, 28 aprel 2009-cu il; Cinayət Məcəlləsinin 128-ci maddəsi – qəsdən sağlamlığa yüngül zərər vurma – ilə ittiham olunan Ramiz İsmayılovun işi, 29 mart 2009-cu il; Cinayət Məcəlləsinin 176.1-ci maddəsi – uşaqlara kömək göstərməkdən boyun qaçırma – ilə ittiham olunan Nurlan Kərimovun işi, 29 mart 2009-cu il; Cinayət Məcəlləsinin 317-1.2-ci maddəsi – cəzaçəkmə müəssisələrinin normal fəaliyyətini pozma – ilə ittiham olunan Tehran Cavadovun işi, 12 may 2009-cu il.
[26] Cinayət Məcəlləsinin 294.1-ci maddəsi – sübutları saxtalaşdırma – ilə ittiham olunan Çingiz Quliyevin işi, 07 aprel 2009-cu il.

aparıldığını qeyd etmişdir ki, bu da özlüyündə təbii ki, ədalətli məhkəmə araşdırması hüququnun pozuntusudur, çünki hakimlərin kabinetləri ictimai yer hesab olunmur. Bundan əlavə, məhkəmə baxışının müşahidə edilməsinə otağın ölçüsü, oturacaqların sayı və s. maneə törətmişdir.

### *1.2 Məhkəmə baxışlarında iştirak: təqsirləndirilən şəxs, müdafiəçi və prokuror*

Təqsirləndirilən şəxsin məhkəmə baxışında iştirakı ədalətli məhkəmə hüququnun mühüm tərkib hissəsidir. Tərəflərin bərabərliyi və çəkişmə prinsiplərinin təmin edilməsi üçün hər iki tərəf dinlənilməlidir və onların hər birinə digərinin dəlilləri və sübutları ilə bağlı fikrini bildirmək imkanı yaradılmalıdır. Barəsində aparılan məhkəmə icraatında iştirak etmək hüququ təqsirləndirilən şəxsin bütün məhkəmə baxışlarında iştirakını nəzərdə tutur.[27]

AİHM qeyd etmişdir ki, bəzi müstəsna hallarda cinayət mühakiməsi təqsirləndirilən şəxsin iştirakı olmadan aparıla bilər, bir şərtlə ki, hakimiyyət orqanları təqsirləndirilən şəxsi məhkəmə baxışı barədə müvafiq qaydada xəbərdar etmək üçün əllərindən gələni etmiş olsunlar, lakin yenə də ona yetişə bilməsinlər.[28] Bundan başqa, təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmə baxışlarının keçirilməsinə ədalət mühakiməsinin həyata keçirilməsi məqsədilə bəzi xəstəlik hallarında icazə verilə bilər, bir şərtlə ki, bu zaman təqsirləndirilən şəxsin müdafiəçisi məhkəmə baxışında iştirak etmiş olsun.[29]

CPM-in 311.2-ci maddəsi təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmə baxışına aşağıdakı müstəsna hallarda yol verir: (311.2.1) ölkə hüdudlarından kənarda olan təqsirləndirilən şəxs məhkəməyə gəlməkdən qəsdən boyun qaçırdıqda və ya (311.2.2) böyük ictimai təhlükə törətməyən cinayətdə təqsirləndirilən şəxs vəkili ilə təmsil olunması barədə vəsatət qaldırdıqda. Bu iki istisna halda müdafiəçinin məhkəmə baxışında iştirakı məcburidir (311.3).

Ümumiyyətlə, Layihə Qrupu belə nəticəyə gəlmişdir ki, təqsirləndirilən şəxsin məhkəmə baxışında iştirak etmək hüququna hörmətlə yanaşılır. Təqsirləndirilən şəxs iştirak etmədikdə, bir qayda olaraq, hakimlər məhkəmə baxışlarını təxirə salmışlar. Eynilə, adətən prokuror və ya müdafiəçi də olmadıqda, məhkəmə baxışları təxirə salınmışdır. Lakin monitorinq müddəti ərzində prokuror və ya müdafiəçinin iştirak etmədiyi bir neçə müstəsna hal qeydə alınmışdır. Təqdirəlayiq haldır ki, təqsirləndirilən şəxsin iştirakı olmadan keçirilən heç bir məhkəmə baxışına rast gəlinməmişdir.

*Müdafiəçinin iştirak etməməsi:*

---

[27] *Ekbatani İsveçə qarşı* məhkəmə işi, AİHM-in 26 may 1988-ci il tarixli Qərarının 25-ci bəndi.
[28] *Kolozza İtaliyaya qarşı* məhkəmə işi, AİHM-in 22 yanvar 1985-ci il tarixli Qərarının 28-ci bəndi.
[29] *Ensslin və digərləri Almaniya Federativ Respublikasına qarşı* məhkəmə işi, AİHM-in Qəbuledilənlik barədə 8 iyul 1978-ci il tarixli Qərarından sitat: Nuala Mole və Kasarina Harbi, Ədalətli Məhkəmə Hüququ. İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 6-cı maddəsinin tətbiqi üzrə Rəhbərlik, 2-ci nəşr, avqust 2006-cı il, səhifə 24.

7 iyul 2009-cu il tarixdə Gəncə Şəhər Nizami Rayon Məhkəməsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Cinayət Məcəlləsi)[30] 221.1 və 315.1-ci maddələri – xuliqanlıq və hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə – ilə ittiham olunan Tural Atakişiyev, Pərviz Əlihəsənov və Xəyal Abdullayevin məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclası müdafiəçinin iştirakı olmadan aparılmışdır. Bu, müdafiəçi olmadıqda cinayət işinə baxılmasının təxirə salınmasını tələb edən CPM-in 312.3-cü və 312.5-ci maddələrinin pozulması demək idi. Bu halda isə müdafiəçi olmasa da, hakim məhkəmə baxışının keçirilməsinə qərar vermişdir.

14 iyul 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə Cinayət Məcəlləsinin 143 və 120-ci maddələri – təhlükədə qoyma və qəsdən adam öldürmə – ilə ittiham olunan Şakir Əliyev və Fərman Musayevin məhkəmə işi üzrə hazırlıq iclasında təqsirləndirilən şəxslərdən birinin müdafiəçisi iştirak etməmişdir. Buna baxmayaraq, hakim hazırlıq iclasını təxirə salmamışdır. Halbuki CPM-in 299.10-cu maddəsinə əsasən, müdafiəçinin məhkəmənin hazırlıq iclasında iştirakı məcburidir.

26 noyabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində Cinayət Məcəlləsinin 180.1-ci maddəsi – soyğunçuluq – ilə ittiham olunan Vladislav Nəzərovun məhkəmə işi üzrə hazırlıq iclasına təqsirləndirilən şəxs müdafiəçisiz gəlmişdir. Hakim müdafiəçinin təyin edilməsi barədə qərar çıxarsa da, həmin müdafiəçi iclasa gəlməmişdir. Buna baxmayaraq, hakim hazırlıq iclasını müdafiəçi olmadan davam etdirmişdir (qeyd olunmalıdır ki, müdafiəçi işə mahiyyəti üzrə baxılmasına həsr olunmuş 10 dekabr 2009-cu il tarixli növbəti iclasda iştirak etmişdir).

### *1.3 İrəli sürülmüş ittihamlar barədə məlumat almaq hüququ və özünə qarşı ifadə verməmək hüququ*

AİHK-ın 6-cı maddəsinin 3-cü bəndinin "a" yarımbəndində cinayət əməlində ittiham olunan hər kəsin ən azı aşağıdakı hüquqlarının olduğu təsbit edilir:

> *"...ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq."*

Bundan əlavə, tutulan və ya həbs edilən hər bir kəsə tutulan zaman öz hüquqları, xüsusilə də aşağıdakı hüquqları barədə məlumat verilməlidir: 1) özünün seçdiyi müdafiəçinin xidmətlərindən istifadə etmək hüququ - bu da dərhal və mütəmadi olaraq həmin şəxslə əlaqə saxlamaq imkanını nəzərdə tutur; 2) müvafiq tibbi müayinədən keçmək və tibbi yardım almaq hüququ; 3) ailəsi və ya özlərinin müəyyən etdikləri digər müvafiq şəxslərə tutulması və saxlandığı yer barədə məlumat vermək və ya məlumat verməyi səlahiyyətli şəxslərdən

---
[30] 1 sentyabr 2000-ci il.

tələb etmək; 4) ailəsi və ya qohumları ilə əlaqə saxlamaq, buraya onlarla görüşmək və yazışmaq hüququ da daxildir; və 5) konstitusion və ya oxşar hüquqi prosedurlar baxımından azadlığın hər hansı şəkildə məhdudlaşdırılmasını hakim və ya məhkəmə qarşısında mübahisələndirmək.[31]

Özünə qarşı ifadə verməmək hüququ *"cinayət törətməkdə ittiham olunan hər kəsin [...] susmaq və özünə qarşı ifadə verməmək hüququdur"*[32] və AİHM Saunders Birləşmiş Krallığa qarşı məhkəmə işində[33] bəyan etmişdir ki:

*"Konvensiyanın 6-cı maddəsində xüsusi qeyd olunmasa da, susmaq hüququ və özünə qarşı ifadə verməmək hüququ 6-cı maddənin ədalətli prosedur anlayışının əsasını təşkil edən ümumi qəbul olunmuş beynəlxalq standartlardır. Burada əsas məqsəd, hər şeydən əlavə, təqsirləndirilən şəxsin dövlət orqanları tərəfindən qeyri-münasib şəkildə məcbur edilməsinə qarşı müdafiə təmin etməkdir ki, bu da ədalət mühakiməsində yanlışlığa yol verilməsinin qarşısını almağa və 6-cı maddənin məqsədlərinin həyata keçirilməsinə xidmət edir.... Özünə qarşı ifadə verməmək hüququ əsasən də cinayət mühakimə icraatının təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittihamı təqsirləndirilən şəxsin iradəsinə qarşı məcbur etmə və ya təzyiq üsullarından istifadə etməklə əldə olunan sübutlara əl atmadan sübut etməyə çalışmasını nəzərdə tutur. Bu halda, bu hüquq Konvensiyanın 6-cı maddəsinin 2-ci bəndində əksini tapmış təqsirsizlik prezumpsiyası ilə sıx bağlıdır."*

ATƏT-in öhdəliklərinə əsasən, həbs edilən hər kəsə dərhal onun başa düşdüyü dildə həbsinin səbəbi söylənilməlidir və ona qarşı irəli sürülən ittihamlar barədə məlumat verilməlidir.[34] Həmçinin, bu hələ edilməyibsə, hüquq mühafizə orqanlarının tutulmuş və ya həbsə alınmış şəxsi etiraf etməyə, özünü hər hansı başqa şəkildə ifşa etməyə və ya hər hansı başqa şəxsə qarşı ifadə verməyə məcbur etmək məqsədilə mövcud vəziyyətdə həmin şəxsə nəzərən hədsiz üstünlük əldə etməmələrini təmin etmək üçün səmərəli tədbirlər görülməlidir.[35]

CPM-in 91.5.1-ci maddəsi təqsirləndirilən şəxsə ona qarşı sürülən ittihamların mahiyyəti barədə dərhal və təfsilatlı məlumat almaq hüququ verir. Bundan başqa, CPM-in 322.1.11 və 324-cü maddələrinə əsasən, hakimlər təqsirləndirilən şəxslərə onlara şamil edilən hüquqları, o cümlədən özünə qarşı ifadə verməmək hüququnu izah etməlidirlər. Təqsirləndirilən şəxsə hüquq və vəzifələri sadalanan bildirişin verilməsinə baxmayaraq, bu həm hazırlıq iclası zamanı, həm də işə mahiyyəti üzrə baxılarkən (məhkəmə baxışının açılışı zamanı) edilməlidir. Həmçinin CPM-in tələbinə görə təqsirləndirilən şəxsə müvafiq müdafiə tələb etmək hüququnun və maddi vəziyyətindən asılı olmayaraq, müdafiəçi ilə təmin edilmək hüququnun olması barədə məlumat verilməlidir.[36]

---

[31] "Cinayət Proseslərinin Müşahidəsi Kitabçası", Bələdçi N5, Beynəlxalq Hüquqşünaslar Komissiyası.
[32] *Funke Fransaya qarşı* məhkəmə işi, AİHM-in 25 fevral 1993-cü il tarixli Qərarının 44-cü bəndi.
[33] *Saunders Birləşmiş Krallığa qarşı* məhkəmə işi, AİHM-in 17 dekabr 1996-cı il tarixli Qərarının 68-69-cu bəndi.
[34] ATƏT-in Öhdəlikləri, Ədalətli məhkəmə hüququ, Moskva görüşü 1991-ci il, 23.1 (ii)-ci bənd.
[35] ATƏT-in Öhdəlikləri, Ədalətli məhkəmə hüququ, Moskva görüşü 1991-ci il, 23.1 (vii)-ci bənd.
[36] Bax: bu Hesabatın Hüquqi Yardım Almaq Hüququ bölməsinə.

Bir sıra hallarda məlumat verilmişdir ki, hakimlər təqsirləndirilən şəxslərə hüquqları barədə məlumat və izahat verməmişlər və bunu belə əsaslandırmışlar ki, həmin hüquqlar artıq hazırlıq iclası zamanı izah edilmişdir, ona görə də işə mahiyyəti üzrə baxılarkən təqsirləndirilən şəxs tərəfindən aydın şəkildə tələb edildiyi hallar istisna olmaqla, digər hallarda bunu bir daha etməyə lüzum yoxdur.[37] Halbuki, CPM-in 322.1.11-ci maddəsinə əsasən, məhkəmə iclasında sədrlik edən təqsirləndirilən şəxsə (və ya təqsirləndirilən şəxslərin hər birinə) bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini izah etməlidir. Bundan başqa, CPM-in 324.3-cü maddəsinə əsasən, işə mahiyyəti üzrə baxılan məhkəmə iclasının əvvəlində məhkəmə iclasında sədrlik edən təqsirləndirilən şəxsə həmçinin aşağıdakıları izah etməlidir:

*324.3.1. ona qarşı irəli sürülmüş hər bir ittihamın mahiyyətini;*

*324.3.2. ona istinad edilən əməllərin hüquqi tövsifini və həmin əməllərə görə cinayət qanunu ilə nəzərdə tutulan cəzanı;*

*324.3.3. təqsirləndirilən şəxsə qarşı verilmiş mülki iddianın əsaslarını və məbləğini;*

*324.3.4. təqsirləndirilən şəxsin məhkəməyədək icraat zamanı təqsirini boynuna alması və ya almaması ilə bağlı olmadığını;*

*324.3.5. təqsirləndirilən şəxsin məhkəmə iclasında verilmiş suallara cavab verməyə borclu olmadığını;*

*324.3.6. təqsirləndirilən şəxsin suala cavab verməkdən imtina etməsinin onun ziyanına şərh edilə bilinməyəcəyini;*

*324.3.7. təqsirləndirilən şəxsin özünün hər hansı cavabını əsaslandırmaq hüququna malik olduğunu.*

CPM aydın şəkildə sədrlik edən hakimin üzərinə işə mahiyyəti üzrə baxılmasına həsr edilmiş ilk iclasda təqsirləndirilən şəxs(lər)ə hüquqları barədə məlumat və izahat vermək öhdəliyi qoyur. Bu vəzifə təqsirləndirilən şəxsə məhkəmə baxışından əvvəl və hazırlıq iclası zamanı həmin hüquqlar barədə məlumat verilib-verilməməyindən asılı olmayaraq yerinə yetirilməlidir.

Layihə Qrupu bir neçə məhkəmə iclasında sədrlik edən hakimlərin təqsirləndirilən şəxsə özünə qarşı ifadə verməmək hüququ da daxil olmaqla, hüquqları barədə məlumat və izahat vermədiklərini müşahidə etmişdir, baxmayaraq ki, hüquqlar barədə müvafiq məlumatın verilməsi təqsirləndirilən şəxsin ona qarşı irəli sürülmüş ittihamların mahiyyətini başa düşməsi və öz müdafiəsini təşkil etməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bir neçə məhkəmə iclasında isə hakimlər yalnız təqsirləndirilən şəxslərin hüquqlarının məhkəmə bildirişində sadalandığını qeyd etməklə kifayətlənmişlər və təqsirləndirilən şəxslərə hüquqlarını izah etməmişlər. Digər hallarda isə hakimlər təqsirləndirilən şəxslərə onlara qarşı irəli sürülmüş ittihamlar barədə məlumat verilib-verilmədiyini və onların ittiham aktını alıb-almamalarını və cinayət işinin materialları ilə tanış edilib-edilmədiklərini aydınlaşdırmamışlar.

[37] Nizami Rayon Məhkəməsi – Cinayət Məcəlləsinin 317.2.1-ci maddəsi ilə ittiham olunan Ramin Bəbirovun məhkəmə işi, 13 aprel 2009-cu il və Cinayət Məcəlləsinin 244.1-ci maddəsi ilə ittiham olunan Aydın Hüseynovun məhkəmə işi, 15 aprel 2009-cu il.

Təqsirləndirilən şəxsin ittiham aktını alıb-almadığının yoxlanılmasına gəlincə, CPM-in 303.1-ci maddəsinə əsasən, məhkəmənin hazırlıq iclasında məhkəməyədək icraat zamanı aradan qaldırılmadan müvafiq olaraq cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının mahiyyəti üzrə qanuni həll edilməsi mümkün olmayan kobud pozuntulara yol verildiyini müəyyən etdikdə, məhkəmə cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verir və onu ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarır. CPM-in 303.3-cü maddəsinə əsasən, bu cür pozuntulara (a) təqsirləndirilən şəxsin müdafiə hüququnun pozulması,[38] (b) təqsirləndirilən şəxsin ana dilindən və ya tərcüməçinin köməyindən istifadə etmək hüququnun pozulması[39] və (c) təqsirləndirilən şəxsin iş məhkəməyə təqdim edilməzdən əvvəl cinayət işinin materialları və ittiham aktı ilə tanış olmaq hüququnun pozulması[40] aiddir.

Bundan başqa, CPM-in 307.1-ci maddəsinə əsasən, məhkəməyədək icraat zamanı qanun pozuntularının baş verdiyini aşkar etdikdə, məhkəmə xüsusi qərar çıxararaq, bu cür pozuntular barədə müvafiq orqanlara və ya prokurora məlumat verməlidir ki, sonuncular da məhkəməyədək icraat pozuntuları ilə bağlı iddiaları araşdıra bilsin. Layihə Qrupu hazırlıq iclaslarında hakimlərin nadir hallarda məhkəməyədək icraat zamanı hər hansı pozuntunun baş verib-vermədiyini CPM-in 299.3.2-ci maddəsinin tələbinə uyğun şəkildə araşdırdıqlarını müşahidə etmişdir.

Əgər təqsirləndirilən şəxsə ittiham aktının surəti verilməyibsə (onun ittiham aktı və cinayət işinin materialları ilə tanış edilib-edilmədiyindən asılı olmayaraq), məhkəmə baxışı təxirə salınmalıdır və ittiham aktının surəti gecikməyə yol vermədən təqsirləndirilən şəxsə onun başa düşdüyü dildə təqdim olunmalıdır. Bu, CPM-in 322.1.10-cu maddəsində təsbit olunub. Məhkəmələrin Monitorinqi Proqramı ərzində hakimin təqsirləndirilən şəxsə ittiham aktının surətinin verilməsi üçün məhkəmə baxışını təxirə salmasına nadir hallarda rast gəlinmişdir.

*Hakimlərin təqsirləndirilən şəxslərə özünə qarşı ifadə verməmək hüququ da daxil olmaqla, hüquqları barədə məlumat və izahat vermədikləri hallar*:

- 02 iyun 2009-cu il tarixdə Gəncə Şəhər Kəpəz Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 177.2.1, 177.2.2 və 177.2.3-cü maddələri – yaşayış sahəsinə qanunsuz daxil olmaqla və xeyli miqdarda ziyan vurmaqla törədilmiş oğurluq – ilə ittiham olunan Xəyal Verdiyev və Seymur Adıgözəlovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxslərə özünə qarşı ifadə verməmək hüququ da daxil olmaqla, CPM-də nəzərdə tutulan hüquq və vəzifələrini izah etməmişdir.

[38] CPM-in 303.3.1-ci maddəsi.
[39] CPM-in 303.3.2-ci maddəsi.
[40] CPM-in 303.3.8-ci maddəsi.

- 02 iyul 2009-cu il tarixdə Lənkəran Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Raqib Ramazanovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə özünə qarşı ifadə verməmək hüququ da daxil olmaqla, CPM-də nəzərdə tutulan hüquq və vəzifələrini izah etməmişdir.

- 24 iyul 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Nizami Mahmudovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə özünə qarşı ifadə verməmək hüququ da daxil olmaqla, CPM-də nəzərdə tutulan hüquq və vəzifələrini izah etməmişdir.

- 28 sentyabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində Cinayət Məcəlləsinin 128-ci maddəsi – qəsdən sağlamlığa yüngül zərər vurma – ilə ittiham olunan Ziya Qulaməliyevin məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə CPM-də təsbit edilmiş hüquq və vəzifələrini, xüsusilə də özünə qarşı ifadə verməmək hüququnu izah etməmişdir.

- 24 sentyabr 2009-cu il tarixdə Sabunçu Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 177.2.3-cü maddəsi – yaşayış sahəsinə qanunsuz daxil olmaqla törədilmiş oğurluq – ilə ittiham olunan İsmayıl Kərimovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə heç bir hüquq və vəzifəsini izah etməyərək, qeyd etmişdir ki, o, hazırlıq iclasında müvafiq izahatı vermişdir. Lakin Layihə Qrupunun bildirdiyinə görə, 15 sentyabr 2009-cu il tarixdə keçirilmiş hazırlıq iclasında təqsirləndirilən şəxsə hüquqları barədə heç bir məlumat və izahat verilməmişdir.

- 10 dekabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində Cinayət Məcəlləsinin 180.1-ci maddəsi – soyğunçuluq – ilə ittiham olunan Vladislav Nəzərovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə özünə qarşı ifadə verməmək hüququ da daxil olmaqla, hüquq və vəzifələrini izah etməmişdir.

- 22 oktyabr 2009-cu il tarixdə Sabunçu Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 263.1-ci maddəsi – ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurmaqla, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma – ilə ittiham olunan Vüqar Əmirovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə özünə qarşı ifadə verməmək hüququ da daxil olmaqla, heç bir hüququnu izah etməmişdir. Eyni hal 15 dekabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Mehman Qurbanovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında müşahidə edilmişdir.

*Hakimlərin qısaca olaraq təqsirləndirilən şəxslərin hüquqlarının məhkəmə bildirişində sadalandığını qeyd etməklə, həmin hüquqları izah etmədikləri hallar*:

- 15 aprel 2009-cu il tarixdə Cinayət Məcəlləsinin 234.4.1 və 234.4.3-cü maddələri – satış məqsədilə qanunsuz olaraq külli miqdarda narkotik vasitələri saxlama – ilə ittiham olunan Afət Şirinov və Əli Məmmədovun məhkəmə işinə 15 aprel 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə baxılarkən sədrlik edən hakim təqsirləndirilən şəxslərə hüquqları barədə məlumat verməmişdir, lakin qısaca olaraq qeyd etmişdir ki, bu hüquqlar məhkəmə baxışından əvvəl onlara çatdırılmış məhkəmə bildirişində göstərilmişdir.

- 04 iyun 2009-cu il tarixdə Binəqədi Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 177.2.3-cü maddəsi – yaşayış sahəsinə qanunsuz daxil olmaqla törədilmiş oğurluq – ilə ittiham olunan Zaur Ağayevin məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə hüquq və vəzifələrini izah etməmişdir, əvəzində isə məhkəmə bildirişinə istinad etmişdir.

- 23 iyun 2009-cu il tarixdə Xətai Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 177.2.1, 177.2.2 və 177.4-cü maddələri – xeyli miqdarda ziyan vurmaqla bir qrup şəxs tərəfindən təkrarən törədilmiş oğurluq – ilə ittiham olunan Zaur Əlişovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə hüquq və vəzifələrini izah etməmişdir. Əvəzində, sadəcə demişdir: *"Biz sizə bütün hüquq və vəzifələrinizi özündə əks etdirən məhkəmə bildirişi göndərmişdik, onlar sizə aydındırmı?"*

- 05 avqust 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə Cinayət Məcəlləsinin 149.2.4 və 157.1-ci maddələri – zorlama və mənzil toxunulmazlığını pozma – ilə ittiham olunan Aydın Orucovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə hüquq və vəzifələrini izah etməmiş, sadəcə olaraq ondan öz hüquqlarını bilib-bilmədiyini soruşmuşdur. Təqsirləndirilən şəxs onun nədən danışdığını başa düşmədiyini söylədikdə, hakim onun bütün hüquq və vəzifələrinin məhkəmə bildirişində izah edildiyini deyərək, ona həmin bildirişi oxumağı məsləhət görmüşdür.

- 29 iyul 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə Cinayət Məcəlləsinin 180.2.1-ci maddəsi – soyğunçuluq – ilə ittiham olunan Zaur Hacıməmmədovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə özünə qarşı ifadə verməmək hüququnu izah etməmişdir. Bundan başqa, hakimin izahı bütün hüquqları əhatə etməmişdir, o, təqsirləndirilən şəxsin aldığı məhkəmə bildirişinə istinad edərək, hüquqların bəzilərinin adını çəkməklə kifayətlənmişdir.

- 30 iyul 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə Cinayət Məcəlləsinin 144.2.3-cü maddəsi – adam oğurluğu – ilə ittiham olunan Ramiz İsmayılov, Əkbər Abbasov, Kamran İsmayılov və Amil Mərdanovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim özünə qarşı ifadə verməmək hüququnu izah etməmişdir.

- Bu cür halın müşahidə edildiyi digər bir məhkəmə baxışı isə 30 iyul 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə Cinayət Məcəlləsinin 178.2.1-ci maddəsi – dələduzluq – ilə ittiham olunan Zəkiyyə Hacıyeva və başqalarının məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclası olmuşdur. Bundan əlavə, hakim təqsirləndirilən şəxslərə hüquq və vəzifələrini tam şəkildə izah etməmiş, yalnız onlardan bir neçəsinin adını çəkmiş və onların məhkəmə bildirişində verildiyini qeyd etmişdir.

*Hakimlərin təqsirləndirilən şəxslərə onlara qarşı irəli sürülmüş ittihamlar barədə məlumat verilib-verilmədiyini və onların ittiham aktını alıb-almaması da daxil olmaqla, cinayət işinin materialları ilə tanış edilib-edilmədiklərini aydınlaşdırmadıqları hallar:*

- 28 iyul 2009-cu il tarixdə Səbail Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 221.2.2 və 221.3-cü maddələri – xuliqanlıq – ilə ittiham olunan Ülvi Cabbarovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə hüquq və vəzifələrini izah etməmiş və ona ittiham aktının verilib-verilmədiyini aydınlaşdırmamışdır.

- 22 iyul 2009-cu il tarixdə Nərimanov Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Tahir Əliyevin məhkəmə işi ilə bağlı keçirilən hazırlıq iclasının sonunda müdafiəçi bildirmişdir ki, təqsirləndirilən şəxsə məhkəmə icraatı başlamazdan əvvəl tanış olması üçün ittiham aktı və cinayət işinin digər materialları verilməmişdir. Buna baxmayaraq, hakim qeyd olunan prosessual hüquq pozuntusunu daha sonra araşdırmayaraq, məhkəmənin katibinə təqsirləndirilən şəxsə dərhal ittiham aktının surətini verməyi tapşırmaqla kifayətlənmişdir.

- Eynilə, 11 iyun 2009-cu il tarixdə Gəncə Şəhər Nizami Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Rafiq Rzayevin məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsdən ittiham aktını alıb-almadığını soruşduqda təqsirləndirilən şəxs bildirmişdir ki, o, latın əlifbasını bilmədiyi üçün ittiham aktından heç nə anlamamışdır. Buna baxmayaraq, hakim, təqsirləndirilən şəxsin ona ittiham aktının verildiyini təsdiqləməsinə əsaslanaraq, problemi aradan qaldırmaq üçün heç nə etməmişdir.

- 04 avqust 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə Cinayət Məcəlləsinin 126.1-ci maddəsi – qəsdən sağlamlığa ağır zərər vurma – ilə ittiham olunan Fizuli Əliyev və İlqar İmanovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxslərə özünə qarşı ifadə verməmək hüququnu izah etməmişdir.

- Müstəsna hal olaraq, 13 mart 2009-cu il tarixdə Cinayət Məcəlləsinin 228.2.1 – 228.2.2-ci maddələri – qanunsuz olaraq odlu silah saxlama və gəzdirmə – ilə ittiham olunan Gülhüseyn Nuriyevin məhkəmə işi üzrə Sumqayıt Şəhər Məhkəməsində keçirilən hazırlıq iclası ilə bağlı ciddi narahatlıq ifadə olunmuşdur ki, həmin iclasda da hakim təqsirləndirilən şəxsə əsas hüquqlarının izah olunması hüququna etinasız yanaşmışdır. Müdafiəçi əvvəlcədən yazılı şəkildə hakimə müraciət edərək iclasın onun iştirakı olmadan keçirilməsini xahiş etməklə, hazırlıq iclasına gəlməmişdir. Sədrlik edən hakim müdafiəçi olmadan iclası keçirməyə razılıq verməklə, təqsirləndirilən şəxsin ona qarşı irəli sürülmüş ittihamların mahiyyətini tam başa düşməsini təmin etməyə heç bir cəhd göstərməmiş və təqsirləndirilən şəxsə əsas hüquqlarını, o cümlədən, səmərəli hüquqi təmsilçilik (və müdafiəçinin dəyişdirilməsini) hüququnu və özünə qarşı ifadə verməmək hüququnu izah etməmişdir.

*İşin əlavə araşdırmaya göndərilməsi prosedurunun pozulması halları:*

- 15 sentyabr 2009-cu il tarixdə Cinayət Məcəlləsinin 177.2.3-cü maddəsi – yaşayış sahəsinə qanunsuz daxil olmaqla törədilmiş oğurluq – ilə ittiham olunan İsmayıl Kərimovun məhkəmə işi üzrə Sabunçu Rayon Məhkəməsində keçirilən məhkəmə iclasında və 09 sentyabr 2009-cu il tarixdə Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Rasim Quliyevin məhkəmə işi üzrə Sabunçu Rayon Məhkəməsində keçirilən məhkəmə iclasında sədrlik edən hakimlər məhkəmə baxışının iştirakçılarından soruşmadan belə nəticəyə gəlmişlər ki, ibtidai araşdırma zamanı heç bir nöqsana yol verilməmişdir.

- 29 iyul 2009-cu il tarixdə Sabunçu Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 234.1 və 234.2-ci maddələri – satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan E.Əkbərov və Kamran Eybətovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında müdafiəçi məhkəməyədək icraat dövründə nöqsanlara yol verildiyinə görə əlavə araşdırma aparılması üçün işin prokurorluğa qaytarılması haqqında vəsatət qaldırmışdır. Müdafiəçinin bildirdiyinə görə, təqsirləndirilən şəxslərdən biri savadsız olduğundan istintaq hərəkətlərinin protokollarını təzyiq altında, onların məzmununu başa düşmədən imzalamışdır. Bu cür ciddi iddianın irəli sürülməsinə baxmayaraq, hakim ibtidai araşdırma zamanı yol verilmiş digər nöqsanlara görə işin artıq bir dəfə əlavə araşdırmanın aparılması üçün prokurorluğa qaytarıldığını əsas gətirərək, vəsatəti rədd etmişdir, ona görə də vəsatət hazırlıq iclasında təmin edilməmiş, lakin hakim bildirmişdir ki, işə mahiyyəti üzrə baxılması zamanı bu vəsatət yenidən qaldırıla bilər.

Əslində CPM ədalət mühakiməsinin keçirilməsi üçün lazım olduğu təqdirdə cinayət işinin əlavə araşdırmanın aparılması məqsədilə geri qaytarılması üçün heç bir məhdudiyyət müəyyən edilməyib. CPM-in 301 və 301.1.3-cü maddələrinə əsasən, məhkəmə baxışı məhkəmənin hazırlıq iclasında təyin edilməlidir, bir şərtlə ki, məhkəməyədək icraat kobud pozuntulara yol verilmədən aparılmış olsun. CPM-in 303.3-cü maddəsində

“kobud pozuntular” təsbit edilir ki, bunların da sırasına təqsirləndirilən şəxsin müdafiə hüququnun pozulması və təqsirləndirilən şəxsin ana dilindən istifadə etmək hüququnun pozulması daxildir.

Layihə Qrupu həmçinin sədrlik edən hakimlərin təqsirləndirilən şəxslərə ittiham aktını və cinayət işinin digər materiallarını verdikdən sonra təqsirləndirilən şəxslərin və onların müdafiəçilərinin məhkəmə baxışına hazırlaşmalarını təmin etmək üçün məhkəmə baxışlarını təxirə saldıqları halları müsbət nümunə kimi qeyd etmişdir.

*Təqdirəlayiq hallar:*

- 29 iyul 2009-cu il tarixdə Xətai Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 132-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Fətəli Bəyimovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim ibtidai araşdırma ilə bağlı hər hansı şikayətin olub-olmadığını soruşmuşdur. Təqsirləndirilən şəxs bildirmişdir ki, o, zərərçəkmişlə barışsa da, müstəntiq cinayət işinə xitam verməmişdir. Bunun cavabında sədrlik edən hakim müstəntiqi ifadə verməyə dəvət etməklə, məhkəmə baxışını təxirə salmışdır. 31 iyul 2009-cu il tarixdə müstəntiq və zərərçəkmiş şəxs ifadə verdikdən sonra sədrlik edən hakim cinayət işinə xitam verilməsi barədə qərar çıxarmışdır.

- 02 iyul 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində Cinayət Məcəlləsinin 177.2.2, 177.2.3 və 177.2.4-cü maddələri – külli miqdarda ziyan vurmaqla bir qrup şəxs tərəfindən törədilmiş oğurluq – ilə ittiham olunan Həsrət Yusifov, Qiyas Məmmədov, Yengibar Yusifov, Səxavət Zəyidov və Firuz Baloğlanovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərdən biri ittiham aktını almadığını bildirmişdir. Hakim ittiham aktını ona verərək, ona müvafiq sənədlə tanış olması üçün daha çox vaxt ayırmaq məqsədilə məhkəmə baxışını təxirə salmışdır.

- 06 iyul 2009-cu il tarixdə Nərimanov Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Fizuli Nəsibovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclası başlayan kimi təqsirləndirilən şəxs ittiham aktının ona verilmədiyini bildirmişdir. Sədrlik edən hakim təqsirləndirilən şəxsə ittiham aktını verərək, məhkəmə baxışını təxirə salmışdır.

- 20 iyul 2009-cu il tarixdə Nizami Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 177.2.1 və 177.2.2-ci maddələri – bir qrup şəxs tərəfindən təkrarən törədilmiş oğurluq – ilə ittiham olunan Samir Rəsulovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxs ona ittiham aktının verilmədiyini bildirdikdən sonra sədrlik edən hakim ona ittiham aktını vermiş və ona sənədlə tanış olmaq üçün daha çox vaxt vermək məqsədilə məhkəmə baxışını təxirə salmışdır.

- 22 iyul 2009-cu il tarixdə Binəqədi Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan E.Şirəliyev və S.Şirəliyevanın məhkəmə işi ilə bağlı məhkəmə iclası zamanı təqsirləndirilən şəxslərə ittiham aktı verilmədiyi üçün hakim hazırlıq iclasını təxirə salmışdır.

- 29 iyul 2009-cu il tarixdə Binəqədi Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 221.1-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Ruslan Sarıyevin məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə ittiham aktının verilmədiyini aşkar etdikdə iclası təxirə salmışdır.

- 03 avqust 2009-cu il tarixdə Sabunçu Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Gündüz Məmmədovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə ittiham aktının və məhkəmə bilmişinin verilmədiyini aşkar etdikdə hazırlıq iclasını təxirə salmışdır.

- 04 avqust 2009-cu il tarixdə Xətai Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 221.2.1-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Türkan Bağırova və Rəhilə İsmayılovanın məhkəmə işi ilə bağlı keçirilən hazırlıq iclasında təqsirləndirilən şəxslər ittiham aktının onlara verilmədiyini iddia etmişlər. Hakim onlara ittiham aktını vermiş və onlara qeyd olunan sənədlə tanış olmaq üçün daha çox vaxt vermək məqsədilə hazırlıq iclasını təxirə salmışdır. Eyni hal 22 iyul 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə Cinayət Məcəlləsinin 181.2.3-cü maddəsi – quldurluq – ilə ittiham olunan Pərvin Həmidov və Hüseynağa Əsgərovun məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında müşahidə edilmişdir.

### *1.4 Pis rəftarla bağlı iddiaları səmərəli şəkildə araşdırmaq vəzifəsi*

AİHK-in 3-cü maddəsində deyilir:

> *“Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır”.*

Bu maddə demokratik cəmiyyətlərin təməl dəyərlərindən birini özündə əks etdirir. Hətta terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə kimi ən çətin vəziyyətlərdə belə AİHK işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanı qəti olaraq qadağan edir. AİHK-nın 1 və 4 saylı Protokollarının mahiyyətə dair müddəalarının bir çoxundan fərqli olaraq, 3-cü maddə heç bir istisnaya yol vermir və 15.2-ci maddəyə əsasən, hətta millətin həyatını təhdid edən fövqəladə hallar zamanı belə onun məhdudlaşdırılmasına icazə verilmir.[41]

---

[41] *Selmouni Fransaya qarşı* məhkəmə işi, AİHM-in 28 iyul 1999-cu il tarixli Qərarının 95-ci bəndi.

Azərbaycan Konstitusiyasının 46-cı maddəsinin III bəndində təsbit edilmişdir ki, heç kəs işgəncəyə və ləyaqəti alçaldan rəftara məruz qoyula bilməz. Bundan başqa, Cinayət Məcəlləsinin 113-cü maddəsinə əsasən, tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərə işgəncə vermə yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılan cinayətdir. Bundan başqa, Cinayət Məcəlləsinin 133-cü maddəsinə əsasən, öz qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən şəxsə mütəmadi olaraq döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar verilməsi beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılan cinayət əməlidir.

İQK-nın[42] 15-ci maddəsinə əsasən, işgəncə nəticəsində verilmiş ifadələrdən işgəncə verilmiş şəxsə qarşı heç bir halda sübut kimi istifadə edilməsinə icazə verilmir. Lakin bu cür ifadələrdən işgəncədə təqsirli bilinən şəxsə qarşı ifadənin verildiyini təsdiqləyən sübut kimi istifadə edilə bilər. Eynilə, CPM-in 125.2.2-ci maddəsinə əsasən, zorakılıq, hədə-qorxu, aldatma, işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan hərəkətlərin tətbiq edilməsi ilə əldə edilmiş məlumatların sübut kimi qəbul edilməsinə heç bir halda yol verilmir.

İşgəncə və ya pis rəftarla bağlı iddialarla üzləşdikdə müvafiq tədbirin görülməsi dövlət orqanlarının vəzifəsidir və hakimlər bu cür iddiaların araşdırılması üzrə xüsusi cavabdehlik daşıyırlar. AİHM qərar çıxarmışdır ki, şəxs həbsə alınarkən sağlam olmasına baxmayaraq, həbsdən azad edilərkən xəsarət almış olarsa, xəsarətin səbəbi ilə bağlı münasib izahat vermək Dövlətin vəzifəsidir ki, bu vəzifənin də yerinə yetirilməməsi AİHK-in 3-cü maddəsinə əsasən məsələ qaldırılması üçün tutarlı əsas ola bilər.[43] Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi 21 aprel 2006-cı il tarixdə daxili işlər orqanlarının əməkdaşlarına qeyri-insani və ya ləyaqəti alçaldan rəftar vasitəsilə sübutların əldə edilməsinin qəbul edilməz olduğunu xatırladan təlimat təsdiq etmişdir.[44]

Layihə Qrupu ifadə verməyə məcbur edilmə ilə bağlı iddiaların araşdırılması üçün hakimlərin müvafiq tədbirlər gördüyü məhkəmə baxışlarına çox az rast gəlmişdir. Əksər hallarda hakimlər bu cür iddialara ciddi yanaşmayaraq, onları diqqətdən kənarda qoymuşlar. Bir çox hallarda hakimlər pis rəftar barədə iddiaların araşdırılması ilə bağlı müxtəlif, o cümlədən ziddiyyətli fikir bildirməklə, hətta sübutetmə vəzifəsini təqsirləndirilən şəxslərin üzərinə qoymuşlar.

*Layihə Qrupu aşağıdakı hallarda hakimlərin təqsirləndirilən şəxslərin işgəncə və ya pis rəftarla bağlı məhkəmə iclaslarında səsləndirdikləri iddiaları araşdırmadıqlarını müşahidə etmişdir:*

---

[42] Azərbaycanın 2009-cu il dekabr ayında İQK-nın Fakultativ Protokolunun ratifikasiyasının nəticəsində ölkənin Milli Preventive Mexanizmi İnsan Hüquqları üzrə Milli Müvəkkilə (Ombudsman) həvalə olunmuşdur.

[43] *Aksoy Türkiyəyə qarşı* məhkəmə işi, AİHM-in 18 dekabr 1996-cı il tarixli Qərarının 61-ci bəndi, *Məmmədov (Cəlaloğlu) Azərbaycana qarşı* məhkəmə işi, AİHM-in 11 yanvar 2007-ci il tarixli Qərarının 60-cı bəndi.

[44] Azərbaycan tərəfindən MSHBP-nın 40-cı maddəsinə müvafiq olaraq 10 dekabr 2007-ci il tarixdə təqdim edilmiş hesabatın 127-ci bəndi.

- Cinayət Məcəlləsinin 221.1-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Nəriman Rüstəmov və Sirac Səfərovun məhkəmə işinə 19 mart 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxslər bildirmişlər ki, onlarla pis rəftar edilmişdir və onları döymüşlər, lakin sədrlik edən hakim məsələni araşdırmamışdır.

- Cinayət Məcəlləsinin 294.1-ci maddəsi ilə ittiham olunan Fizuli Məhərrəmovun məhkəmə işinə 30 mart 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxsin polisdə saxlandığı zaman döyüldüyü ilə bağlı dediklərini sədrlik edən hakim qulaqardına vurmuşdur.

- Cinayət Məcəlləsinin 120.1-ci maddəsi – qəsdən adam öldürmə – ilə ittiham olunan Ruslan Məmmədovun məhkəmə işinə 10 aprel 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə baxılması zamanı müdafiəçi təqsirləndirilən şəxslə məhkəməyədək icraat dövründə pis rəftar edilməsi ilə bağlı vəsatət qaldırmışdır. Lakin sədrlik edən hakim bu şikayətin əsassız olduğu qənaətinə gələrək, əlavə araşdırma aparmadan vəsatəti rədd etmişdir.

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Nizami Balayevin məhkəmə işinə 22 aprel 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxs bildirmişdir ki, ibtidai istintaq zamanı polis işçiləri onunla qəddar rəftar etməklə, onu yazılı şəkildə özünü təqsirli bilməyə məcbur etmişlər. Lakin sədrlik edən hakim bu şikayəti araşdırmamışdır.

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Pərvər Həsənovun məhkəmə işinə 21 aprel 2009-cu il tarixdə Binəqədi Rayon Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxs bildirmişdir ki, o, polis məntəqəsində dindirilən zaman polis işçiləri tərəfindən döyülmüşdür. Bu şikayətə cavab olaraq sədrlik edən hakim təqsirləndirilən şəxsdən nə üçün bu məsələ ilə bağlı şikayətləri məhkəməyədək olan mərhələdə qaldırmadığını soruşmuşdur. Təqsirləndirilən şəxs bildirmişdir ki, o bütün məsələləri məhkəmə iclasında qaldıracağını qərarlaşdırmışdı. Hakim və prokuror ona bu məsələni məhkəmə iclasında deyil, məhkəməyədək mərhələdə qaldırmalı olduğunu söyləmişlər.

- Cinayət Məcəlləsinin 234.1 və 234.2-ci maddələri – satış məqsədi ilə qanunsuz olaraq külli miqdarda narkotik vasitələri saxlama – ilə ittiham olunan Azər Xanməmmədovun məhkəmə işinə 12 may 2009-cu il tarixdə Sabunçu Rayon Məhkəməsində baxılması zamanı şahid məhkəməyədək istintaq mərhələsində onunla pis rəftar edildiyini və ifadəsini təzyiq altında imzaladığını bildirmişdir. O qeyd etmişdir ki, ifadəsi latın əlifbası ilə yazılmışdır ki, o da həmin əlifbanı oxuya bilmir. Həmçinin o, üzündəki zədəni göstərərək, həmin zədəni məhkəməyədək istintaq zamanı aldığını bildirmişdir. Bundan sonra müdafiəçi bütün ifadələrin və sübutların qeyri-qanuni yolla alındığını və toplandığını

əsas gətirərək, cinayət işinə xitam verilməsi ilə bağlı vəsatət qaldırmışdır. Lakin hakim sadəcə ittiham aktının kifayət qədər və tutarlı sübutlarla təmin edildiyini əsas gətirərək, vəsatəti rədd etmişdir.

- Cinayət Məcəlləsinin 177.2.3-cü maddəsi – yaşayış sahəsinə qanunsuz daxil olmaqla törədilmiş oğurluq – ilə ittiham olunan Zöhrab Ələsgərovun məhkəmə işinə 11 iyun 2009-cu il tarixdə Nərimanov Rayon Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxs iddia etmişdir ki, məhkəməyədək icraat dövründə onunla pis rəftar edilmişdir. Xüsusilə də o iddia etmişdir ki, onu polis bölməsində döymüşlər və o, intihara cəhd etmişdir. Lakin sədrlik edən hakim bu iddiaları araşdırmamışdır.

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Rasim Quliyevin məhkəmə işinə 23 sentyabr və 07 oktyabr 2009-cu il tarixlərində Sabunçu Rayon Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxs müstəntiqin (onun adını dəqiq çəkməklə) məhkəməyədək icraat zamanı onu günahını boynuna almağa məcbur etdiyini bildirərək, özünü təqsirli bilməsi barədə əvvəl verdiyi ifadəni geri götürmüşdür. Bundan başqa, təqsirləndirilən şəxs bildirmişdir ki, ibtidai araşdırma zamanı təqsirləndirilən şəxsin narkotik vasitələrə aludəliyi barədə məhkəmə-tibbi ekspertizasının rəyini hazırlayan ekspert onun xeyrinə olacaq rəy hazırlamaq üçün ondan pul tələb etmişdir. Lakin hakim iddiaların heç birinin əlavə araşdırmasını aparmamışdır.

*Hakimlər tərəfindən söylənilmiş ziddiyyətli və qeyri-məqbul iradlar:*

- Cinayət Məcəlləsinin 234.1 və 234.2-ci maddələri – satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Cavidan İbişov və Rəfail Məcidovun məhkəmə işinə 02 iyun 2009-cu il tarixdə Yasamal Rayon Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxslərdən biri iddia etmişdir ki, məhkəməyədək icraat zamanı onlarla pis rəftar edilmişdir. Sədrlik edən hakim bu cür şikayətlərin hazırlıq iclası zamanı verilməli olduğunu bildirərək, bu iddianı diqqətdən kənar saxlamışdır.

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Mehman Məmmədov və Rəhman Məmmədovun məhkəmə işinə 05 avqust 2009-cu il tarixdə Nizami Rayon Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxsin məhkəməyədək icraat zamanı pis rəftara məruz qalmasını söyləməsinə cavab olaraq, sədrlik edən hakim təqsirləndirilən şəxsin bu cür rəftarı təsdiqləmək üçün sübut təqdim etməli olduğunu bildirmişdir ki, bu da yuxarıda göstərildiyi kimi pis rəftarla bağlı müəyyən edilmiş sübutetmə vəzifəsinə ziddir.[45]

[45] *Aksoy Türkiyəyə qarşı* məhkəmə işi, AİHM-in 18 dekabr 1996-cı il tarixli Qərarının 61-ci bəndi.

- Cinayət Məcəlləsinin 177.2.2 və 177.2.4-cü maddələri – külli miqdarda ziyan vurmaqla təkrarən törədilmiş oğurluq – ilə ittiham olunan Namiq Babayev və Əzəmət Xəyalovun məhkəmə işinə 16 sentyabr 2009-cu il tarixdə Sabunçu Rayon Məhkəməsində baxılması zamanı hakim təqsirləndirilən şəxsdən məhkəməyədək icraat zamanı verdiyi yazılı ifadələri təsdiqləyib-təsdiqləmədiyini soruşmuşdur. Təqsirləndirilən şəxs *"boş vərəq"* imzalamağa məcbur edildiyini bildirərək, həmin ifadələrdən imtina etdikdə, hakim təqsirləndirilən şəxsin iddialarını araşdırmadan, "*imzaladığın bütün sənədləri əvvəlcədən oxumalısan*" məsləhətini verməklə, məhkəmə baxışını davam etdirmişdir.

- Cinayət Məcəlləsinin 234.1 və 234.2-ci maddələri – satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Novruz Nurullayev, Əziz Nurullayev və Şahin Əliyevin məhkəmə işinə 26 may 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə baxılması zamanı təqsirləndirilən şəxslər iddia etmişlər ki, məhkəməyədək icraat zamanı onlarla pis rəftar edilmişdir və onlar işgəncəyə məruz qalmışlar, nəticədə isə təzyiq altında ifadə vermişlər. Bu iddialara cavab olaraq, sədrlik edən hakim heç bir tədbir görməmiş, pis rəftarla bağlı şikayətlərin yalnız məhkəməyədək icraat zamanı verilməli olduğunu bildirmişdir. Bundan başqa, müdafiəçi məhkəməyədək icraat zamanı istintaqı aparmış müstəntiqi məhkəməyə dəvət etmək haqqında vəsatət qaldırdıqda, sədrlik edən hakim heç bir əsaslandırma aparmadan vəsatəti rədd etmişdir.

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Zöhrab Kəlfəliyev və Lyudmila Polozkovanın məhkəmə işinə 09 sentyabr 2009-cu il tarixdə Sabunçu Rayon Məhkəməsində baxılması zamanı müdafiəçi məhkəməyədək icraat zamanı 2009-cu ilin mart ayında təqsirləndirilən şəxslərin hər ikisinin Sabunçu Rayon Polis İdarəsinin polis əməkdaşları tərəfindən pis rəftara məruz qoyulduğunu iddia edərək, onların barəsində məhkəmə-tibbi ekspertizasının təyin olunması haqqında vəsatət qaldırmışdır. Hakim müzakirədən sonra iddiaların 2009-cu ilin mart ayına istinad etməsi səbəbindən xahiş edilmiş məhkəmə-tibbi ekspertizasının keçirilməsi üçün çox gec olduğunu bildirərək, vəsatəti rədd etmişdir. Təqsirləndirilən şəxslərin hər ikisinin ibtidai istintaq zamanı təqsirlərini boyunlarına almağa məcbur edildiklərini bildirərək, özlərini təqsirli bilmələri barədə verdikləri ifadələrdən imtina etmələrinə baxmayaraq, hakim bu cür iddialar üzrə əlavə araşdırma aparmadan, onlara etinasız yanaşmışdır.

*Hakimlərin işgəncə və pis rəftarla bağlı iddiaları nəzərə aldıqları təqdirəlayiq hallar:*

- Cinayət Məcəlləsinin 234.2-ci maddəsi – satış məqsədi ilə qanunsuz olaraq külli miqdarda narkotik vasitələri saxlama – ilə ittiham olunan İqbal Abıyevin məhkəmə işinə 03 aprel 2009-cu il tarixdə Səbail Rayon Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxs bildirmişdir ki, məhkəməyədək həbsdə saxlama dövründə onunla pis rəftar edilmişdir və o, təzyiq altında ifadə vermişdir. Sədrlik edən hakim bu iddiaları araşdırmağa qərar vermişdir və müvafiq dövlət orqanlarına sorğu göndərmişdir.

- Cinayət Məcəlləsinin 180.2.2 və 180.2.4-cü maddələri – təkrarən törədilmiş soyğunçuluq – ilə ittiham olunan Bəhruz Həsənovun məhkəmə işinə 22 iyul 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə baxılması zamanı təqsirləndirilən şəxs hazırlıq iclasında iddia etmişdir ki, onunla pis rəftar edilmiş və onu təqsiri boynuna almağa məcbur etmişlər. Sədrlik edən hakim işə mahiyyəti üzrə baxılacaq məhkəmə iclasında bu məsələni araşdırmağa razılıq vermişdir.

### *1.5 İşinin müstəqil və qərəzsiz məhkəmə vasitəsilə araşdırılması hüququ*

AİHM-ə əsasən, işinin qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə tərəfindən araşdırılması hüququ *"sözsüz AİHK-ın 6-cı maddəsində təsbit edilmiş ən mühüm təminatdır ki, məhz qanunun aliliyi üçün təməl rolunu oynayır".*[46] İşinin müstəqil və qərəzsiz məhkəmə tərəfindən araşdırılması hüququ ÜİHB-nın 10-cu maddəsində də əksini tapmışdır və sonra daha geniş şəkildə Məhkəmə Hakimiyyətinin Müstəqilliyi ilə bağlı Əsas Prinsiplərdə[47], MSHBP-nin 14-cü maddəsində verilir. Məhkəmədə ona qarşı irəli sürülmüş istənilən cinayət ittihamının araşdırılması zamanı hər kəs qanun əsasında yaradılmış səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə vasitəsilə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.[48]

AİHK-in 6-cı maddəsinin 1-ci bəndində deyilir:

> *"Hər kəs qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir".*

Bütün məhkəmələr və hakimlər icra və qanunvericilik hakimiyyətindən,[49] eləcə də iş üzrə tərəflərdən asılı olmamalıdırlar.[50] Konstitusiya, qanunlar və ölkə siyasəti məhkəmələrin və məhkəmə işçilərinin müstəqilliyini təmin etməlidir və təcrübədə hökumət, onun qurumları və səlahiyyətli şəxsləri, həmçinin qanunvericilik buna hörmətlə yanaşmalıdır.

Tam müstəqillik səlahiyyətlərin səmərəli şəkildə elə bölüşdürülməsini nəzərdə tutur ki, məhkəmə hakimiyyəti icra hakimiyyətinin qeyri-məqbul təsiri və ya müdaxiləsindən müdafiə edilmiş olsun. Məhkəmənin *müstəqilliyini* qiymətləndirərkən AİHM aşağıdakıları nəzərə alır:

---

[46] Stefan Treçsel, *Cinayət Mühakimə İcraatında İnsan Hüquqları*, Oksford Universiteti Nəşriyyatı, 2005, səh.47.

[47] 26 avqust – 6 sentyabr 1985-ci il tarixdə keçirilmiş Cinayətlərin qarşısının alınması və cinayətkarlarla rəftar üzrə Birləşmiş Millətlər Təşkilatının Yeddinci Konqresində qəbul olunmuşdur və BMT-nin Baş Assambleyasının Qətnaməsi şəklində təsdiqlənmişdir.

[48] ATƏT-in Öhdəlikləri, Ədalətli məhkəmə hüququ, Kopenhagen, 1990-cı il, 5.16-cı bənd.

[49] *Stran Greek Refineries və Stratis Andreadis Yunanıstana qarşı* məhkəmə işi , AİHM-in 9 dekabr 1994-cü il tarixli Qərarının 49-cu bəndi, Ərizə nömrəsi 13427/87.

[50] *Ringeisen Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 16 İyul 1971-ci il tarixli Qərarının 95-ci bəndi, Ərizə nömrəsi 2614\65.

- onun üzvlərinin təyin edilməsi qaydası;
- onların səlahiyyət müddəti (vəzifədə qalma təminatı);
- kənar təsirlərə qarşı təminatların mövcudluğu; və
- orqanın müstəqilliyinin zahiri əlamətləri.[51]

Yuxarıda deyildiyi kimi, məhkəmə təkcə icra hakimiyyətindən deyil, həm də tərəflərdən asılı olmadan fəaliyyət göstərməlidir. Məhkəmənin müstəqilliyi məhkəmənin mövqeyini kənardan müəyyənləşdirməyə yönəlmiş mexanizmlərdən asılı olduğu halda, qərəzsizlik hakimlərin davranışına və onun hər hansı işin yekun nəticəsində necə əks olunduğuna işarə edir. AİHM *qərəzsizlik* konsepsiyasını belə başa düşür: *"Qərəzsizlik qabaqcadan hasil olan yanlış qənaətin və ya tərəfkeşliyin olmadığını göstərir. [...] Bu kontekstdə hər hansı hakimin hər hansı iş üzrə şəxsi fikrə malik olub-olmadığını müəyyənləşdirməyə səy göstərən subyektiv yanaşma ilə hakimin bu baxımdan istənilən qanuni şübhələri aradan qaldırmaq üçün kifayət qədər təminatlar təklif edib-etmədiyini müəyyənləşdirən obyektiv yanaşmanı fərqləndirmək mümkündür."*[52]

AİHM subyektiv qərəzsizlik barədə fikir yürütmək üçün tərəfkeşliklə bağlı faktiki sübut tələb edir və müvafiq qaydada təyin olunmuş hakimin əksini sübut edəcək faktlar təqdim edilənə qədər qərəzsiz olduğu güman edilir.[53] Obyektiv sınağa gəldikdə isə *Fey Avstriyaya qarşı* məhkəmə işində[54] AİHM qeyd etmişdir:

*"Obyektiv sınaq zamanı, hakimin özünün davranışından başqa, onun qərəzsizliyi ilə bağlı şübhə doğuracaq təsdiqlənə bilən faktların olub-olmadığı müəyyən olunmalıdır. Bu zaman hətta zahiri əlamətlər xüsusi əhəmiyyət kəsb edə bilər. Təhlükə altında qalan məhkəmənin demokratik cəmiyyətdə ictimaiyyətə və əsasən də cinayət mühakiməsi icraatı zamanı təqsirləndirilən şəxsə aşılamalı olduğu inamdır. Bu o deməkdir ki, hər hansı məhkəmə işində hər hansı hakimin qərəzsizliyi ilə bağlı narahatlığın yaranmasına qanuni səbəbin olub olmadığına qərar verərkən təqsirləndirilən şəxsin mövqeyi vacib əhəmiyyət kəsb edir, lakin həlledici deyil. Bu zaman həmin narahatlığın obyektiv əsasının olub olmadığı müəyyən edilir."*

Tərəfkeşlik məhkəmənin qərəzsizliyini müəyyən etmək üçün əsas meyardır. Ona görə də hakim eyni iş üzrə əvvəlcə başqa vəzifəni, məsələn, prokuror və ya vəkil vəzifələrini yerinə yetirmiş olduqda, qərəzsizlik ilk baxışdan sual altına qoyulmalıdır.

Müstəqillik və qərəzsizlik tələbləri bir-biri ilə sıx bağlıdır və bəzən onları bir-birindən ayırmaq çox çətindir[55] və AİHM çox vaxt onlara birlikdə baxır.

---

[51] *Kampbel və Fel Birləşmiş Krallığa qarşı* məhkəmə işi, AİHM-in 28 iyun 1984-cü il tarixli Qərarının 78-ci bəndi.
[52] *Piersak Belçikaya qarşı* məhkəmə işi, AİHM-in 1 oktyabr 1982-ci il tarixli Qərarının 30-cu bəndi.
[53] *Hauşildt Danimarkaya qarşı* məhkəmə işi, AİHM-in 24 may 1984-cü il tarixli Qərarının 47-ci bəndi.
[54] *Fey Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 24 fevral 1993-cü il tarixli Qərarının 30-cu bəndi.
[55] *Lanqborqer İsveçə qarşı* məhkəmə işi, AİHM-in 22 iyun 1989-cu il tarixli Qərarının 32-ci bəndi.

Azərbaycanda işin müstəqil və qərəzsiz məhkəmə vasitəsilə araşdırılması hüququ Azərbaycan Konstitusiyasının 127-ci maddəsində və CPM-in 28-ci maddəsində təsbit edilmişdir.

Məhkəmələrin Monitorinqi Proqramı işinin müstəqil və qərəzsiz məhkəmə vasitəsilə araşdırılması hüququ ilə bağlı prosessual məsələləri nəzərdən keçirmişdir, ona görə də məhkəmə hakimiyyətinin institusional bazasına dair məsələlərə toxunulmur. Əldə edilmiş nəticələr məhkəmə proseslərinin monitorinqi qrupunun müşahidə edilmiş məhkəmə baxışlarında hakimlərin müstəqilliyinin və qərəzsizliyinin təzahürü ilə bağlı müşahidələrinə əsaslanır.

Məhkəmələrin Monitorinqi Proqramı işinin müstəqil və qərəzsiz məhkəmə vasitəsilə araşdırılması hüququ ilə bağlı aşağıdakı əsas problemli istiqamətləri müəyyən etmişdir: prokurorların hakimlərin müşavirəsində iştirak etməsi, həmçinin müşavirə üçün məhkəmənin xüsusi müşavirə otağından deyil, hakimlərin xidməti kabinetlərindən istifadə edilməsi.

Hakimlərin davranışı məhkəmənin qərəzsizliyini sual altına qoya bilər. Məsələn:

- Prokurorun məhkəmədə tərəflərə münasibətdə qeyri-məqbul davranışına heç bir reaksiyanın olmaması;
- Hakimlərin işi diqqətlə izləməmələri və ya hətta məhkəmə prosesinin gedişatı ərzində iclas zalını tərk etmələri;
- Təqsirləndirilən şəxsi dindirən zaman prokuror kimi çıxış etmələri;
- Hazırlıq iclasında məhkəməyədək icraat zamanı pozuntulara yol verilib-verilmədiyini aydınlaşdırmamaları.

*Aşağıdakı hallarda Layihə Qrupu prokurorların hakimlərin müşavirəsində iştirak etdiklərini müşahidə etmişdir ki, bu da qanuna ziddir və belə bir fikir yaradır ki, hakim qərarı özü qəbul etmir. Xüsusilə də aşağıdakı məhkəmə baxışları qeyd edilmişdir:*

- Cinayət Məcəlləsinin 263.1 və 264-cü maddələri – ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurmaqla, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma və yol nəqliyyat hadisəsi yerindən qaçma – ilə ittiham olunan Sabir Aydəmirovun məhkəmə işi, Yasamal Rayon Məhkəməsi, 19 mart 2009-cu il;

- Cinayət Məcəlləsinin 221.1-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Hacıqulu Səlimovun məhkəmə işi, Yasamal Rayon Məhkəməsi, 31 mart 2009-cu il;

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Zəfər Şəfiyevin məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 13 aprel 2009-cu il;

- Cinayət Məcəlləsinin 127.1 və 132-ci maddələri – qəsdən sağlamlığa az ağır zərər vurma, döymə – ilə ittiham olunan Azər Quliyev və Mansur Əsədullayevin məhkəmə işi, Binəqədi Rayon Məhkəməsi, 13 aprel 2009-cu il.

Layihə Qrupu qeyd etmişdir ki, hakimlər bir çox hallarda müşavirə üçün məhkəmənin xüsusi müşavirə otağından deyil, xidməti kabinetlərindən istifadə etmişlər. Bu cür pozuntular məhkəmə binalarında müvafiq imkanların olmaması ilə əsaslandırıla bilər – məsələn, bəzi məhkəmə binalarında yalnız bir müşavirə otağı vardır.

Layihə Qrupu həmçinin məhkəmə iclasında hakimlərin davranışlarının məhkəmənin qərəzsizliyini sual altına qoyduğu bir neçə hala rast gəlmişdir, məsələn, prokurorun məhkəmədə tərəflərə münasibətdə qeyri-məqbul davranışına heç bir reaksiyanın olmaması. Məsələn, Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Zəfər Şəfiyevin məhkəmə işinə 13 aprel 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində baxılması zamanı sədrlik edən hakim prokurorun dindirmə zamanı təqsirləndirilən şəxsə dəfələrlə kobud şəkildə müraciət etməsinə fikir verməmişdir. Eynilə, Cinayət Məcəlləsinin 320.1-ci maddəsi – rəsmi blankları, ştampları, möhürləri qanunsuz hazırlama – ilə ittiham olunan Kazım Nağıyevin məhkəmə işinə 20 aprel 2009-cu il tarixdə Səbail Rayon Məhkəməsində baxılması zamanı prokuror təqsirləndirilən şəxslə kobud rəftar etmişdir. Lakin hakim müdaxilə etməmişdir. Lakin bu, özlüyündə hakimin iclasda iştirak edənlərə qarşı qərəzli münasibətinin deyil, daha çox onun məhkəmənin iclasını qeyri-səmərəli şəkildə idarə etməsinin nəticəsidir.

Cinayət Məcəlləsinin 234.1 və 234.2-ci maddələri – satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Mübariz Bayramov və Fərahim İmanovun məhkəmə işinə 15 aprel 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində baxılması zamanı məhkəmə iclasında prokurorun iclasa "sədrlik" etməsi təəssüratı yaranmışdır. O, dəfələrlə ittiham olunan şəxslərin və şahidlərin sözlərini kəsmişdir. Lakin hakim bu vəziyyətə heç bir reaksiya verməmişdir. Bundan başqa, şahid iclas zalına daxil olarkən ittiham olunan şəxslərdən birinin qohumu onunla bağlı bəzi iradlar bildirmişdir, prokuror isə həmin qohumun üstünə qışqıraraq, ona çox nəzakətsiz formada, avara adlandırmaqla, iclas zalını tərk etməyi əmr etmişdir. Sonra isə prokuror həmin qohumun şahidə təzyiq göstərdiyini deməklə, şahidə göstəriş vermişdir ki, həmin qohuma qarşı şikayət versin. Şahid təzyiqin olmadığını əsas gətirərək etiraz etdikdə, prokuror iclas zalında yerləşən dəmir barmaqlıqlara işarə etməklə şahidə göstərişə əməl etmədiyi təqdirdə oraya düşəcəyini söyləmişdir. Ən əsası isə hakim müşavirə elan etdikdə bütün iştirakçılarından iclas zalını tərk etməyi tələb etmişdir və yalnız hakim, katib və prokuror iclas zalının qapılarını bağlayaraq, müşavirədə qalmışlar.

Cinayət Məcəlləsinin 128 və 132-ci maddələri – qəsdən sağlamlığa yüngül zərər vurma və döymə - ilə ittiham olunan Fərqanə Tağıyeva və Toğrul Tağıyevin məhkəmə işinə 22 aprel 2009-cu il tarixdə Binəqədi Rayon Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxslərin işin ibtidai istintaqı zamanı müstəntiqin onlardan işi həll etmək və cinayət mühakimə icraatına xitam vermək üçün 2000 AZN məbləğində pul tələb etməsini qeyd etmişdir. Buna baxmayaraq, sədrlik edən hakim belə ciddi iddianı araşdırmamışdır.

Bəzən təqsirləndirilən şəxsin dindirilməsi zamanı açıq şəkildə ittihamedici qərəz nümayiş etdirilmişdir. Məsələn, 07 iyul 2009-cu il tarixdə Binəqədi Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Gültəkin Mustafayevanın məhkəmə işi ilə bağlı keçirilən məhkəmə iclasında hakim təqsirləndirilən şəxsə aşağıda göstərildiyi kimi təzyiq göstərmişdir:

***Hakim:*** *"Sənin onu əlinlə vurmağınla zərərçəkmiş şəxs yıxılıb zədələnə bilməz. O, səndən ağırdır".*
***Təqsirləndirilən şəxs:*** *"Mən onu əlimlə vurdum. Onu itələməmişəm."*
***Hakim:*** *"Əl ilə vurmaqla yıxılmaq olmaz. Sən onu itələmisən, o da yıxılıb."*

Bir sıra hazırlıq iclasları ilə bağlı da narahatlıq ifadə edilmişdir ki, həmin iclaslarda da sədrlik edən hakimlər məhkəməyədək icraat zamanı hər hansı bir pozuntunun baş verib-vermədiyini ya soruşmamış, ya da bu cür halların baş verdiyi iddia edildikdə onları araşdırmamışlar. CPM-in 299.3.2-ci maddəsinə əsasən, sədrlik edən hakim aparılmış ibtidai araşdırma zamanı qanunun tələblərinin pozulub-pozulmadığını və ya hər hansı pozuntunun baş verib-vermədiyini aydınlaşdırmalıdır.

### *1.6 Təqsirsizlik Prezumpsiyası*

AİHK-in 6-cı maddəsinin 2-ci bəndində deyilir:

> *"Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir."*

Bu qayda ATƏT-in Öhdəliklərində də təkrarlanır ki, hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir.[56] Təqsirsizlik prezumpsiyası tələb edir ki, *"məhkəmə üzvləri vəzifələrini yerinə yetirərkən işə təqsirləndirilən şəxsin ittiham olunduğu əməli törətməsi ilə bağlı əvvəlcədən formalaşmış fikirlə başlamamalıdırlar; sübutetmə vəzifəsi ittiham tərəfinin üzərinə düşür və yaranan hər hansı şübhə təqsirləndirilən şəxsin xeyrinə həll olunmalıdır"*[57] Nəticə etibarilə, hakim və digər hakimiyyət orqanları[58]

---

[56] ATƏT-in Öhdəlikləri, Ədalətli məhkəmə hüququ, Kopenhagen, 1990-cı il, 5.19-cu bənd.
[57] *Barbera, Messegue və Joabardo İspaniyaya qarşı* məhkəmə işi, AİHM-in 6 dekabr 1988-ci il tarixli Qərarının 77-ci bəndi.
[58] Məsələn, *Allenet de Ribemont Fransaya qarşı* məhkəmə işi, AİHM-in 10 fevral 1995-ci il tarixli Qərarının 36 və 37-ci bəndləri: Məhkəmə hesab etmişdir ki, iki polis əməkdaşının məhkəmə istintaqı getdiyi bir vaxtda Daxili İşlər Nazirliyinin dəstəyi ilə keçirilmiş mətbuat konfransında verdikləri açıqlamalar təqsirsiz hesab edilmək hüququnu pozmuşdur, belə ki,

təqsirləndirilən şəxsə qərəzsiz münasibət bəsləməlidirlər və onun günahkar olmasına işarə vura biləcək istənilən hərəkət və sözlərdən çəkinməlidirlər.

AİHK-dan başqa, təqsirsizlik prezumpsiyası ÜİHB-nin 11-ci maddəsində və MSHBP-nin 14-cü maddəsində əks etdirilmişdir.

*"Təqsirləndirilən şəxslərə məhkəmə prosesi zamanı onların təqsirsizlik prezumpsiyasına təsir göstərə biləcək heç bir müqəssirlik atributu şamil edilməməlidir. Bu cür atributlara təqsirləndirilən şəxslərin məhkəmənin iclas zalında kamerada saxlanması, təqsirləndirilən şəxslərdən məhkəmənin iclas zalında əliqandallı, buxovlu və ya həbsxana uniformasında oturmalarının tələb edilməsi və ya məhkum edilmiş şəxslərin başlarını qırxdıqları ölkələrdə təqsirləndirilən şəxslərin məhkəmə baxışına başı qırxılmış çıxarılması aid edilə bilər. Avropa Həbsxana qaydalarına əsasən, hökmü qabaqlayan bu cür əlamətlərdən uzaq olmaq üçün təqsirləndirilən şəxsin özünün müvafiq paltarı olmadıqda, ona məhkəmə qarşısına çıxmaq üçün yaxşı vəziyyətdə olan mülki paltar verilməlidir."*[59]

Bundan əlavə, AİHM-a əsasən,*"məhkəmə icraatının sərt və ədavətli şəkildə cərəyan etməsi adi müşahidəçidə belə bir fikir formalaşdıra bilərdi ki, mühakimə olunanlar "çox təhlükəli cinayətkarlar"dır. Məhkəmənin iclas zalında mübahisə doğuran rəftar, təqsirsizlik prezumpsiyası prinsipini sarsıtmaqla yanaşı, ərizəçiləri, ictimaiyyətin nəzərində olmasa belə, öz gözlərində alçaltmışdır."*[60]

Təqsirsizlik prezumpsiyası: 1) sübutetmə yükünü ittiham tərəfinin üzərinə qoyur; 2) təminat verir ki, əksi sübut edilmədiyi təqdirdə təqsir törədilmiş hesab edilə bilməz; 3) hər hansı şübhənin təqsirləndirilən şəxsin xeyrinə həll edilməsinə təminat verir; və 4) cinayət törətməkdə təqsirli bilinən şəxslərlə bu prinsipə uyğun şəkildə rəftar edilməsini tələb edir. Səlahiyyətli qurumlar və şəxslər təqsirsizlik prezumpsiyasına hörmət etməlidirlər. Bütün səlahiyyətli qurumlar məhkəmə icraatının nəticəsi barədə qabaqcadan fikir yürüdərək təqsirləndirilən şəxsin günahkar olmasını təsdiqləyən ictimai bəyanatlar verməkdən yayınmaq vəzifəsi daşıyırlar.[61]

Təqsirsizlik prezumpsiyası təqsirləndirilən şəxsin özünə qarşı ifadə verməmək hüququ ilə sıx bağlıdır.[62] Bu hüquq özündə bir sıra hüquqi prezumpsiyaları,[63] şəxsin susmasından nəticə çıxarılmasını,[64] qərar çıxarılarkən

---

həmin açıqlamalarda *"açıq şəkildə ərizəçinin günahkar olduğu bəyan edilmişdir ki, bu da birincisi, ictimaiyyəti onun günahkar olmasına inandırmış, ikincisi, müvafiq məhkəmə orqanı tərəfindən faktların qiymətləndirilməsini qabaqlamışdır."*

[59] Avropa Həbsxana Qaydalarının 95(3)-cü qaydası; həmçinin bax: Standart Minimum Qaydaların 17(3)-cü qaydası, BMT-nin İqtisadi və Sosial Şurasının 31 iyul 1957-ci il tarixli 663 C (XXIV) saylı Qətnaməsi.

[60] *Ramişvili və Koxreidze Gürcüstana qarşı* məhkəmə işi, AİHM-in 27 yanvar 2009-cu il tarixli Qərarının 100-cü bəndi; Həmçinin *Sarban Moldovaya qarşı* məhkəmə işi, AİHM-in 4 oktyabr 2005-ci il tarixli Qərarının 90-cı bəndi.

[61] "Cinayət Proseslərinin Müşahidəsi Dərsliyi", Praktik Hüquqşünaslar üçün Bələdçi 5, Beynəlxalq Hüquqşünaslar Komissiyası.

[62] *Heaney və MakQines İrlandiyaya qarşı* məhkəmə işi, AİHM-in 21 dekabr 2000-ci il tarixli Qərarının 40-cı bəndi.

[63] *Salabiaku Fransaya qarşı* məhkəmə işi, AİHM-in 7 oktyabr 1998-ci il tarixli Qərarının 28-ci bəndi.

söylənilən fikirləri,[65] bəraət aldıqdan sonra təqsirsizlik prezumpsiyasının saxlanmasını[66] və digər aspektləri ehtiva edir ki, məhkəmələrin monitorinqi proqramı imkanlarının məhdud olması səbəbindən onları qiymətləndirə bilməmişdir. Ona görə də təqsirsizlik prezumpsiyasına əməl olunması ilə bağlı bu hesabatda əksini tapan müşahidələr və rəylər hakimlərin və məhkəmə proseslərinin digər iştirakçılarının təqsirləndirilən şəxslərə qarşı münasibəti üzərində qurulmuşdur. Bu baxımdan, müşahidələr işin müstəqil və qərəzsiz məhkəmə vasitəsilə araşdırılması hüququ ilə əlaqəli aparılmışdır, belə ki, hakimin qərəzsizliyi təqsirsizlik prezumpsiyasının qorunmasının əsas əlamətidir.[67] Azərbaycan Respublikasının qanunvericiliyində bu hüquq Azərbaycan Konstitusiyasının 63-cü maddəsində və CPM-in 21-ci maddəsində əks etdirilmişdir.

Məhkəmələrin Monitorinqi Proqramı belə nəticəyə gəlmişdir ki, təqsirsizlik prezumpsiyası ən çox yaradılan şəraitin qeyri-münasib olması nəticəsində pozulur. Daha konkret desək, bunun üçün təhlükəsizlik baxımından ciddi ehtiyac duyulmadıqda belə, təqsirləndirilən şəxslərin məhkəmə iclas zalında əliqandallı və dəmir barmaqlıqlar arxasında saxlanması təqsirsizlik prezumpsiyası ilə bağlı ciddi narahatlıqların yaranmasına səbəb olmuşdur. Bundan başqa, hakimlərin təqsirləndirilən şəxslərə qarşı münasibətləri, hətta işlə bağlı sübutları araşdırmazdan əvvəl hakimin təqsirləndirilən şəxsin günahkar olmasına işarə edən fikirlər səsləndirməsi Layihə Qrupunun narahatlığına səbəb olmuşdur.

Layihə Qrupu müşahidə etmişdir ki, bir sıra hallarda, təhlükəsizlik baxımından əsaslandırıla bilmədikdə belə, təqsirləndirilən şəxslər əlləri qandallı və dəmir barmaqlıqlar arxasında saxlanılmışlar. Məsələn, Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Azər Məmmədovun Şirvan Şəhər Məhkəməsində 07 və 09 aprel 2009-cu il tarixlərdə baxılan məhkəmə işi narahatlıq doğurmuşdur. Dəmir barmaqlıqlar arxasında yerləşdirilmiş təqsirləndirilən şəxs bütün iclas boyu əliqandallı qalmışdır. Eyni hal Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Vüqar Rəsulovun məhkəmə işinə 08 və 13 aprel 2009-cu il tarixlərdə Sumqayıt Şəhər Məhkəməsində baxılması və Cinayət Məcəlləsinin 221.3-cü maddəsi – xuliqanlıq – ilə ittiham olunan Vüqar Bekimatovun məhkəmə işinə 15 və 20 aprel 2009-cu il tarixlərdə Şirvan Şəhər Məhkəməsində baxılması zamanı müşahidə edilmişdir.

İrəli sürülmüş ittihamlar və təqsirləndirilən şəxsin kriminal tarixçəsi baxımından təhlükəsizliklə bağlı müvafiq qaydada əsaslandırılmış səbəblər olmadıqca, təqsirləndirilən şəxsin əliqandallı və fərq qoymadan dəmir barmaqlıqlar arxasında saxlanması təqsirləndirilən şəxsin təqsirsizlik prezumpsiyası və işinin müstəqil və qərəzsiz məhkəmə vasitəsilə araşdırılması hüququ ilə bağlı ciddi narahatlıqların yaranmasına səbəb olur.

Layihə Qrupu Cinayət Məcəlləsinin 234.2-ci maddəsi – satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri saxlama - ilə ittiham olunan Elçin Vəliyevin məhkəmə işinə 07 Aprel 2009-cu il tarixdə Sabunçu Rayon

---

[64] *Tefner Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 20 mart 2001-ci il tarixli Qərarının 15-17-ci bəndləri.
[65] *Minelli İsveçrəyə qarşı* məhkəmə işi, AİHM-in 21 fevral 1983-cü il tarixli Qərarının 31-33-cü bəndləri.
[66] *Sekanina Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 25 avqust 1993-cü il tarixli Qərarının 30-cu bəndi.
[67] Stefan Treçsel, *Cinayət Mühakimə İcraatında İnsan Hüquqları*, Oksford Universiteti Nəşriyyatı, 2005, səh.174.

Məhkəməsində baxılması zamanı daha bir halı da qeyd etmişdir ki, bu zaman hakim bütün sübutları nəzərdən keçirmədən təqsirləndirilən şəxsin cinayəti törətməsi barədə onda əvvəlcədən formalaşmış fikrin olduğunu nümayiş etdirmişdir. Hazırlıq iclası zamanı hakim təqsirləndirilən şəxsə məhkəməyədək icraat zamanı özünü təqsirli bilib-bilməməyinin həmin anda onun üzərinə heç bir öhdəlik qoymadığını izah etmədən, təqsirləndirilən şəxsdən satdığı narkotik vasitələrin qiymətini soruşmuşdur.

Digər bir nümunə isə Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan İmran Şıxovun 07 may 20009-cu il tarixdə Səbail Rayon Məhkəməsində keçirilən məhkəmə işi olmuşdur. Təqsirləndirilən şəxs ifadə verməkdən imtina etdikdə sədrlik edən hakim "*Şıxov, o qəfəsin içində əvvəllər 4 dəfə olmusan, danış və bizə problem yaratma*" deyərək, tələb etmişdir ki, o törətdiyi əməl barədə ifadə versin.

Cinayət Məcəlləsinin 177.1, 177.2.2 və 177.2.4-cü maddələri – külli miqdarda ziyan vurmaqla təkrarən törədilmiş oğurluq – ilə ittiham olunan Namiq Babayev və Əzəmət Xəyalovun məhkəmə işinə 16 sentyabr 2009-cu il tarixdə Sabunçu Rayon Məhkəməsində baxılması zamanı hakim təqsirləndirilən şəxslərin birindən özünü təqsirli bilib-bilmədiyini soruşmuşdur. Təqsirləndirilən şəxs bildirmişdir ki, o özünü qismən təqsirli hesab edir. Müdafiəçi təqsirləndirilən şəxsdən elan olunmuş ittihamın hansı hissəsi üzrə özünü təqsirli bildiyini soruşduqda, hakim *"Nə deyəcək?! Bu işi o qədər eləyib ki, nə yadında qalıb ki, hansı tarixdəki olub, hansı olmayıb?"* deyərək məsələyə müdaxilə etmişdir. Daha sonra hakim təqsirləndirilən şəxsə müdafiəçinin sualını cavablandırmağa imkan vermədən, məhkəmə baxışını davam etdirmişdir. Qeyd edək ki, təqsirləndirilən şəxsin həmin məhkəmə baxışından əvvəl məhkumluğu olmamışdır.

Cinayət Məcəlləsinin 127.2.1 və 221.2.1 maddələri – qəsdən sağlamlığa az ağır zərər vurma və xuliqanlıq – ilə ittiham olunan Emin Abdullayev və Adnan Hacızadənin məhkəmə işinə 06 noyabr 2009-cu il tarixdə Səbail Rayon Məhkəməsində proses zamanı müdafiəçi ibtidai istintaqı aparmış müstəntiqin dindirilməsi haqqında vəsatət qaldırmışdır. O qeyd etmişdir ki, istintaq zamanı çəkilmiş fotoşəkilləri müstəntiq dərc edilmələri üçün kütləvi informasiya vasitələrinə təqdim etmişdir və bu, təqsirsizlik prezumpsiyasını açıq şəkildə poza bilən bir əməldir. Prokuror vəsatətə etiraz etmişdir. O bildirmişdir ki, müstəntiq məhkəmə baxışında yalnız məhkəmə onun fəaliyyətində nöqsan aşkar etdikdə və ya o, vəzifə səlahiyyətlərini aşmış olduqda dindirilə bilər. Hakim qərarını əsaslandırmadan, vəsatəti rədd etmişdir.

### *1.7 Tərəflərin bərabərliyi*

Tərəflərin bərabərliyi prinsipi geniş ədalətli mühakimə konsepsiyasının yalnız bir xüsusiyyətidir və özündə həmçinin cinayət mühakimə icraatının çəkişmə xarakterli olmasını tələb edən təməl hüquqlarından birini

ehtiva edir.[68] Tərəflərin bərabərliyi prinsipi icraatın hər bir tərəfinə öz dəlillərini təqdim etmək üçün əks tərəflə müqayisədə xeyli dərəcədə əlverişsiz vəziyyət yaratmayan və tərəflər arasında ədalətli tarazlığı təmin edən[69] şərtlər daxilində ağlabatan imkan verilməsini tələb edir. Məhkəmə baxışının çəkişmə prinsipi əsasında aparılması hüququ cinayət işində həm ittiham tərəfinə, həm də müdafiə tərəfinə digər tərəfin təqdim etdiyi qeydlər və sübutlardan xəbər tutmaq və onlarla bağlı fikir bildirmək üçün bərabər imkanın yaradılmasını nəzərdə tutur. Milli qanunvericiliyin bu tələbin ödənməsini təmin etməsi üçün müxtəlif yollar vardır. Lakin hansı üsulun seçilməsindən asılı olmayaraq, həmin üsul hər bir tərəfin qeydlərin təqdim edilməsindən xəbərdar olmasını və onlarla bağlı öz fikirlərini bildirməsi üçün real imkan əldə etməsini təmin etməlidir.[70]

Tərəflərin bərabərliyi prinsipi o deməkdir ki: 1) hər iki tərəf işə hazırlaşmaq üçün bərabər zaman və imkanlara malik olmalıdır və onlara öz sübut və dəlillərini təqdim etmək və qarşı tərəfin sübut və dəlilləri barədə izahat vermək üçün real şərait yaradılmalıdır; 2) hər iki tərəf icraatın istənilən mərhələsində hüquqi nümayəndə və ya özlərinin seçdiyi hər hansı ixtisaslı şəxs tərəfindən təmsil olunmaq və onunla məsləhətləşmək hüququna malik olmalıdırlar; 3) əgər tərəflərdən biri məhkəmədə mühakimə icraatının aparıldığı dili başa düşmürsə, onda onlar tərcüməçinin köməyindən istifadə etmək imkanına malik olmalıdırlar; 4) hər iki tərəf hüquq və vəzifələrinə yalnız məhkəməyə təqdim olunmuş sübutlar əsasında qəbul olunmuş qərarlar vasitəsilə təsir göstərilməsi hüququna malikdir; və 5) hər iki tərəf məhkəmənin qərarından yuxarı məhkəmə instansiyasına apellyasiya şikayəti vermək hüququna malikdir.[71]

Təqsirləndirilən şəxsə mübahisələndirilən faktlarla bağlı əldə edilmiş sübutlara dair fikir bildirmək üçün imkanın yaradılması "ədalətli məhkəmə baxışının" ayrılmaz tərkib hissəsidir, hətta prosedurun müəyyən anına aid olduqda da belə faktlar mahiyyət etibarilə iddia edilən əməl deyil.[72] *Prokurorluq orqanları təqsirləndirilən şəxsin xeyrinə və ya əleyhinə malik olduqları bütün maddi sübutları müdafiə tərəfinə açıqlamalıdırlar.*[73]

Buna baxmayaraq, *Rove və Deyvis Birləşmiş Krallığa qarşı* məhkəmə işində AİHM qeyd etmişdir ki:

"*Müvafiq sübutların açıqlanması hüququ mütləq hüquq deyil. Bəzən cinayət mühakimə icraatında təqsirləndirilən şəxsin hüquqlarına qarşı qoyulmaqla qiymətləndirilməli olan milli təhlükəsizlik və ya şahidi qisas riskindən müdafiə etmə ehtiyacı, yaxud polisin cinayət araşdırma metodlarını məxfi saxlama tələbi kimi rəqabət aparan maraqlar mövcud olur. Bu cür hallarda digər şəxsin təməl hüquqlarını qorumaq və ya mühüm dövlət marağını müdafiə etmək məqsədilə müəyyən sübutları müdafiə tərəfindən məxfi saxlamaq lazım gələ bilər. Lakin bu cür məhdudlaşdırıcı tədbirdən yalnız buna ciddi ehtiyac olduqda istifadə edilə bilər, əks halda,*

---

[68] *Brandstetter Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 28 avqust 1991-ci il tarixli Qərarının 66-cı bəndi.
[69] *De Haes və Qicsels Belçikaya qarşı* məhkəmə işi, AİHM-in 24 fevral 1997-ci il tarixli Qərarının 53-cü bəndi.
[70] *Brandstetter Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 28 avqust 1991-ci il tarixli Qərarının 67-ci bəndi. Həmçinin *Ruiz Mateos İspaniyaya qarşı* məhkəmə işi, AİHM-in 23 iyun 1993-cü il tarixli Qərarının 63-cü bəndi.
[71] "Cinayət Proseslərinin Müşahidəsi Dərsliyi", Praktik Hüquqşünaslar üçün Bələdçi 5, Beynəlxalq Hüquqşünaslar Komissiyası.
[72] *Kamasinski Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 19 dekabr 1989-cu il tarixli Qərarının 102-ci bəndi.
[73] *Edvardz Birləşmiş Krallığa qarşı* məhkəmə işi, AİHM-in 16 dekabr 1992-ci il tarixli Qərarının 36-cı bəndi.

*onlar 6-cı maddənin 1-ci bəndinin pozulmasına gətirib çıxara bilər [...]. Bundan başqa, təqsirləndirilən şəxsin işinə ədalətli məhkəmə tərəfindən baxılmasını təmin etmək üçün müdafiə tərəfinin hüquqlarının məhdudlaşdırılması nəticəsində məruz qaldığı çətinliklər məhkəmə orqanlarının həyata keçirdikləri prosedurlar vasitəsilə kifayət qədər tarazlaşdırılmalıdır. [...] İttiham tərəfinin haqqında söhbət gedən sübutu məhkəmə baxışını həyata keçirən hakimə təqdim etməməsi (baxılan halda) və bu yolla da hakimin sübutun açıqlanması barədə qərar çıxarmasına şərait yaratmaması ərizəçini ədalətli məhkəmədən məhrum etmişdir."* [74]

Prokurorun ona dair hazırlanmış rəsmi hesabata qarşı çıxmaq üçün lazım olan cinayət işinin materiallarını özünü şəxsən təmsil etmək istəyən təqsirləndirilən şəxsə verməməsini və onun cinayət işinə əlavə olunmuş sənədlərin surətlərini götürməsinə imkan yaratmamasını AİHM tərəflərin bərabərliyi prinsipinin pozulması halı kimi qeyd etmişdir.[75]

Azərbaycanda tərəflərin bərabərliyi prinsipi Azərbaycan Konstitusiyasının 127-ci maddəsinin II və VII bəndlərində və CPM-in 7.0.19, 11 və 32-ci maddələrində təsbit edilmişdir.

Məhkəmələrin Monitorinqi Proqramı daha çox prosessual məsələlərə və zahiri məsələlərə fikir vermişdir. Layihə Qrupu bir sıra məhkəmə baxışlarında aparılmış müşahidələrin nəticəsi olaraq, tərəflərin bərabərliyi prinsipi ilə bağlı narahatlıq doğuran aşağıdakı məhkəmə proseslərini qeyd etmişdir:

- Cinayət Məcəlləsinin 177.1-ci maddəsi – oğurluq – ilə ittiham olunan Əlişan Əhmədovun məhkəmə işinə 06 aprel 2009-cu il tarixdə Şəki Şəhər Məhkəməsində baxılması zamanı sədrlik edən hakim təqsirləndirilən şəxsin ittiham aktını alıb-almadığını AİHK-in 6-cı maddəsinin 3-cü hissəsinə və CPM-in 91.5-ci maddəsinə uyğun olaraq aydınlaşdırmamışdır. Eynilə, Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Mürsəl Rəsulovun məhkəmə işinə 07 aprel 2009-cu il tarixdə Şəki Şəhər Məhkəməsində baxılması zamanı sədrlik edən hakim təqsirləndirilən şəxsin ona qarşı irəli sürülmüş ittiham aktını alıb-almadığını yoxlamamışdır. Əlavə olaraq, iclas zamanı hakim yalnız prokurordan vəsatətinin, suallarının və ya etirazının olub-olmadığını soruşmuşdur. Müvafiq olaraq, həmin məhkəmə baxışında sədrlik edən hakim təqsirləndirilən şəxsə heç fikir vermədən, yalnız prokurordan vəsatət, sual və ya etirazlarının olub-olmadığını soruşmuşdur.

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Firdovsi Əsgərovun məhkəmə işinə 29 mart 2009-cu ildə Yasamal Rayon Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxs bir neçə dəfə qeyd etmişdir ki, ona ittiham aktının surəti təqdim edilməmişdir və ona qarşı irəli sürülmüş ittihamların xarakteri barədə məlumat verilməmişdir.

[74] *Rove və Deyvis Birləşmiş Krallığa qarşı* məhkəmə işi, AİHM-in 16 fevral 2000-ci il tarixli Qərarının 65-66-cı bəndləri.
[75] *Fouçer Fransaya qarşı* məhkəmə işi, AİHm-in 17 mart 1997-ci il tarixli Qərarının 36-cı bəndi.

Həmçinin, qeyd edilmişdir ki, təqsirləndirilən şəxsin dediklərinə əsasən, məhkəməyədək icraat zamanı o, sənədləri oxumadan imzalamağa məcbur edilmişdir. Bu müraciət hakim tərəfindən prokurorun etirazı əsasında, heç bir əlavə araşdırma aparılmadan rədd edilmişdir. Bundan başqa, bu şikayətlərlə bağlı təqsirləndirilən şəxslə mübahisə edərkən hakim onları təkzib etmişdir.

- Cinayət Məcəlləsinin 306.1-ci maddəsi – məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə – ilə ittiham olunan Əlzamin Kərimovun məhkəmə işinə 05 avqust 2009-cu il tarixdə Sabunçu Rayon Məhkəməsində baxılması zamanı hakim yalnız prokurordan məhkəməyədək icraat zamanı hər hansı nöqsanlara yol verilib-verilmədiyini və ya cinayət mühakimə icraatına xitam verilməsi üçün hər hansı əsasların olub-olmadığını soruşmuşdur və təqsirləndirilən şəxsə sualı cavablandırmaq üçün şərait yaradılmamışdır.

- Cinayət Məcəlləsinin 128-ci maddəsi – qəsdən sağlamlığa yüngül zərər vurma – ilə ittiham olunan Ziya Qulaməliyevin məhkəmə işinə 28 sentyabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində baxılması zamanı hakim məhkəmə-tibbi ekspertizasının rəyini nəzərə almamış, təqsirləndirilən şəxsə də ekspertizanın nəticələri barədə məlumat verməmişdir. Hakim yalnız işin materiallarına məhkəmə-tibbi ekspertizasının rəyinin də əlavə olunduğunu bildirmişdir.

*Bir neçə təqdirəlayiq hal:*

- Cinayət Məcəlləsinin 178.2.3 və 320.1-ci maddələri – xeyli miqdarda ziyan vurmaqla törədilmiş dələduzluq və saxta sənədlər, möhürlər və ya blanklar hazırlama – ilə ittiham olunan Şakir Əmirov və Nizami Əzizovun məhkəmə işinə 12 may 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə baxılması zamanı hazırlıq iclasında müdafiəçi istintaq orqanlarından şikayət edərək, bildirmişdir ki, ona nə təqsirləndirilən şəxslərlə görüşməyə icazə verilmiş nə də ittiham aktı və digər müvafiq materiallar ona təqdim edilmişdir. Hakim ittiham tərəfinə təqsirləndirilən şəxslərə ittiham aktını və bütün digər materialları təqdim etməyi tapşırmış və müdafiəçiyə bu materiallarla tanış olmaq üçün kifayət qədər vaxt vermişdir. Sədrlik edən hakim daha sonra təcridxana rəhbərliyinə təqsirləndirilən şəxslərə doğrudan da vəkilləri ilə görüşməyə imkan yaradılıb-yaradılmadığını aydınlaşdırmaq üçün sorğu göndərməyi qərara almışdır.

- Layihə Qrupu sədrlik edən hakimin prokuror tərəfindən kifayət qədər sübut təqdim edilmədiyini əsas gətirməklə cinayət işinə xitam verdiyi halı xüsusi qeyd etmişdir. Cinayət Məcəlləsinin 234.2-ci maddəsi – satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Elnur Quliyevin məhkəmə işinə 23 iyul 2009-cu il tarixdə Binəqədi Rayon Məhkəməsində baxılması zamanı hakim ittiham tərəfinin təqdim etdiyi sübutların kifayət qədər olmamasını əsas gətirərək, təqsirləndirilən şəxs barəsində bəraət hökmü çıxarmışdır. Nəticədə, təqsirləndirilən şəxs məhkəmə zalındaca həbsdən azad edilmişdir.

### *1.8 Şahidləri dindirmək hüququ*

AİHK-in 6-cı maddəsinin 3-cü bəndinin "d" yarımbəndində deyilir ki, cinayət törətməkdə ittiham olunan hər kəsin aşağıdakı hüquqları vardır:

> *"onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırmaq və dindirməyə nail olmaq."*

AİHK-in 6-cı maddəsinin 3-cü bəndinin "d" yarımbəndində təsbit edilmiş hüquqa AİHM adətən 6-cı maddənin 1-ci bəndinin ümumi qaydasına əsasən, *"3-cü bənddə əksini tapmış təminatlar, hər şeydən əlavə, 1-ci bənddə təsbit edilmiş ədalətli məhkəmə konsepsiyasının tərkib hissəsidir"*[76] kimi yanaşır. Şahidləri dindirmək təminatı icraatın çəkişmə xarakterliliyini təmin edir, müdafiə tərəfinə təqsirləndirilən şəxsə qarşı toplanmış sübutu mübahisələndirmək və öz sübutlarını təqdim etmək üçün ədalətli imkan yaradır, bununla da tərəflərin bərabərliyi prinsipinə xidmət etmiş olur ki, bunların hamısı birlikdə təqsirləndirilən şəxsin məhkəmə baxışının aktiv iştirakçısına çevrilməsini təmin edir.[77]

Bu hüquq nəinki ittiham və müdafiə tərəflərinin bu məsələdə bərabər tutulmasına gətirib çıxarır, həm də şahidlərin dindirilməsinin ümumilikdə çəkişmə prinsipi əsasında aparılmasını, bütün sübutların prinsip etibarilə açıq məhkəmə baxışında təqsirləndirilən şəxsin qarşısında əks arqumentin gətirilməsinə imkan yaratmaqla təqdim edilməsini tələb edir.[78] Lakin bu o demək deyil ki, şahid ifadəsinin sübut kimi qəbul edilməsi üçün ifadə həmişə məhkəmədə açıq baxış zamanı verilməlidir, çünki müəyyən hallarda bu mümkün deyil. Müdafiə tərəfinin hüquqlarına hörmətlə yanaşıldığı təqdirdə, məhkəməyədək icraat zamanı alınmış ifadələrdən bu şəkildə istifadə edilməsi özlüyündə Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi və 3-cü bəndinin "d" yarımbəndi ilə ziddiyyət təşkil etmir.

Bir qayda olaraq, bu hüquqlar tələb edir ki, hakim təqsirləndirilən şəxsə ona qarşı ifadə vermiş şahidi şübhə altına almaq və dindirmək üçün ya şahid ifadəni verərkən, ya da icraatın daha sonrakı mərhələsində imkan yaratmalıdır.[79] AİHM hesab edir ki, yerli qanunvericilikdə bəzi kateqoriyadan olan şahidlərin, məsələn ailə üzvlərinin, sübutları təqdim etmək öhdəliyindən azad edilmələri cinayət işlərində öz ailə üzvlərinin şahid qismində qohumuna qarşı ifadə verməsinin mənəvi dilemma yarada biləcəyi baxımından AİHK-ə ziddiyyət

---

[76] *Boniş Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 6 may 1985-ci il tarixli Qərarının 29-cu bəndi. Əvvəlki işlərdə AİHM bu hüquqa ayrıca baxmışdır – bax: Stefan Treçsel, *Cinayət Mühakimə İcraatında İnsan Hüquqları*, Oksford Universiteti Nəşriyyatı, 2005, səh.292.
[77] Stefan Treçsel, *Cinayət Mühakimə İcraatında İnsan Hüquqları*, Oksford Universiteti Nəşriyyatı, 2005, səh. 293.
[78] *Barbera, Messegue və Joabardo İspaniyaya qarşı* məhkəmə işi, AİHM-in 6 dekabr 1988-ci il tarixli Qərarının 78-ci bəndi.
[79] *Aş Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 26 aprel 1991-ci il tarixli Qərarının 27-ci bəndi.

təşkil etmir. Bundan başqa, Avropa Şurasına üzv Dövlətlərdən bir neçəsinin yerli qanunvericiliyində buna oxşar müddəalar yer almışdır.[80]

CPM-in 328.1-ci maddəsinə əsasən, Azərbaycanda məhkəmə iclasında şahidlər ayrı-ayrılıqda və digər şahidlərin iştirakı olmadan dindirilirlər. Bu maddə həmçinin nəzərdə tutur ki, hakim və ya məhkəmə administrasiyası şahidlərin bir-biri ilə ünsiyyətə girməmələrini təmin etməlidirlər. Bu müddəa şahidlərin korlanması kimi çox spesifik bir məsələyə toxunur. CPM-in 328.5-ci maddəsində deyilir ki, şahid and içdikdən sonra məhkəmə iclasında sədrlik edən şahidin icraatda iştirak edən digər şəxslərə münasibətini aydınlaşdırmalıdır. Bu tələb şahidlərin ifadələrinin qərəzsizliyini qiymətləndirmək üçün ilkin şərtdir. Bu, həmçinin ifadə vermək vəzifəsindən azad ailə üzvünün və ya digər şəxsin öz hüquqlarını bilməməsi səbəbindən de-fakto ifadə verməyə məcbur edilməməsini təmin edir.

Layihə Qrupu qeyd etmişdir ki, müşahidə aparılan məhkəmələrin çoxunda (Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə istisna olmaqla) şahidləri yerləşdirmək üçün müvafiq şərait yoxdur. Bu isə pozuntuya səbəb olur, belə ki, şahidlər məhkəmə baxışında dindirilməmişdən əvvəl bir-birləri ilə ünsiyyətə girirlər. Layihə Qrupu həmçinin şahidlərin dindirilməsi qaydalarının pozulduğu bir neçə halı qeyd etmişdir ki, burada şahidlərin ifadələri alınmamış və ya sübutlar təqdim edilməmiş məhkəmənin iclas zalında oturmalarına icazə verilmiş və onlar özlərindən əvvəlki şahidlərin ifadələrini dinləmiş və məhkəmə icraatını izləmişlər. Layihə Qrupu həmçinin hakimin heç bir səbəb göstərmədən və müşavirə aparmadan müdafiə tərəfinin hər hansı şahidi dindirmək haqqında müraciətini rədd etdiyi və ya müdafiə tərəfinin cinayət işinin materiallarından hansısa sübutların yoxa çıxması ilə bağlı şikayətini nəzərə almadığı halları müşahidə etmişdir.

Layihə Qrupu bir sıra hallarda qanunla tələb edilməsinə baxmayaraq, sədrlik edən hakimin dindirmədən əvvəl şahidlərlə prosesin digər iştirakçıları və/və ya zərərçəkmiş və təqsirləndirilən şəxslə aralarında olan münasibətləri araşdırmadığını müşahidə etmişdir.[81] Bəzi hallarda yaxın qohumlar/ailə üzvləri təqsirləndirilən şəxsə qarşı ifadə verməmək hüququndan xəbərsiz ifadə vermişlər. Bəzi hakimlər qanunla tələb olunmasına baxmayaraq, ifadə almazdan əvvəl şahidlərdən şəxsiyyətlərini təsdiq edən sənəd tələb etməmişlər.[82] Həmçinin, bir neçə məhkəmə baxışı zamanı hakimlər şahidlərə hüquq və vəzifələrini izah etməmişlər və ya yanlış ifadəyə görə cinayət məsuliyyəti daşıdıqları barədə onları xəbərdar etməmişlər.

*Şahidlərin hakim tərəfindən dindirilmədən əvvəl məhkəmənin iclas zalında oturduqları hallar:*

- Cinayət Məcəlləsinin 320.1-ci maddəsi – rəsmi blankları, ştampları, möhürləri qanunsuz hazırlama – ilə ittiham olunan Kazım Nağıyevin məhkəmə işi, Səbail Rayon Məhkəməsi, 20 aprel 2009-cu il;

---

[80] *Unterpertinger Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 24 noyabr 1986-ci il tarixli Qərarının 30-cu bəndi.
[81] CPM-in 328.5-ci maddəsi.
[82] CPM-in 328.3-cü maddəsi.

- Cinayət Məcəlləsinin 221.1-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Nəriman Rüstəmov və Sirac Səfərovun məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 31 mart 2009-cu il;
- Cinayət Məcəlləsinin 120.2.2-ci maddəsi – qəsdən adam öldürmə – ilə ittiham olunan Zavur Pirmuradovun məhkəmə işi, Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə, 01 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 178.2.2, 320.1 və 320.2-ci maddələri – külli miqdarda ziyan vurmaqla törədilmiş dələduzluq və rəsmi blankları, ştampları, möhürləri qanunsuz hazırlama və satma – ilə ittiham olunan Hicran Aydınlının məhkəmə işi, Əzizbəyov Rayon Məhkəməsi, 01 aprel 2009-cu il.

*Hakimin heç bir səbəb göstərmədən/müşavirə aparmadan müdafiə tərəfinin hər hansı şahidi dindirmək haqqında müraciətini rədd etdiyi və ya müdafiə tərəfinin cinayət işinin materiallarından hansısa sübutların yoxa çıxması ilə bağlı şikayətini nəzərə almadığı hallar:*

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan İlqar Adıyevin məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 14 aprel 2009-cu il. Təqsirləndirilən şəxsin məhkəmə iclasına şahid dəvət etmək barədə bir neçə vəsatət qaldırmasına baxmayaraq, sədrlik edən hakim buna icazə verməmişdir.

- Cinayət Məcəlləsinin 221.1-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Dürdanə Əhmədovanın məhkəmə işi, Binəqədi Rayon Məhkəməsi, 04 may 2009-cu il. Müdafiəçi şahidlərin dəvət edilməsi və dindirilməsi ilə bağlı vəsatət qaldırmışdı, lakin sədrlik edən hakim heç bir izahat vermədən vəsatəti rədd etmişdir.

- Cinayət Məcəlləsinin 29, 120 və 228.1-ci maddələri – qəsdən adam öldürmə, qanunsuz olaraq odlu silah saxlama – ilə ittiham olunan Hüseyn Qədimovun məhkəmə işi, Şəki Apellyasiya Məhkəməsi, 15 aprel 2009-cu il. Təqsirləndirilən şəxs ibtidai istintaqı aparmış müstəntiqin şahid qismində dindirilməsi ilə bağlı vəsatət qaldırmışdır. Təqsirləndirilən şəxs daha sonra qeyd etmişdir ki, məhkəməyədək aparılan istintaq zamanı əldə edilmiş bəzi sübutlar, o cümlədən, zərərçəkmişin ailə üzvlərinin ifadələri bilərəkdən istintaq materiallarından çıxarılmışdır. Buna baxmayaraq, sədrlik edən hakim prokurorun etirazını nəzərə alaraq, vəsatəti əsassız hesab etməklə rədd etmişdir.

- Cinayət Məcəlləsinin 221.2.2-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Əbülfəz İmanovun məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 29 oktyabr 2009-cu il. Hakim tərəflərdən vəsatətlərinin olub-olmadığını soruşmuşdur. Heç bir vəsatət qaldırılmasa da, bir azdan təqsirləndirilən şəxs bəzi şahidlərin dindirilməsini xahiş etmişdir. Hakim müraciətin rəsmi şəkildə vəsatət formasında edilmədiyini əsas gətirərək, xahişi rədd etmişdir. Hakimin bunu həmçinin CPM-də tələb edildiyi şəkildə aydın və başa düşülən dildə izah etməmişdir. Təqsirləndirilən şəxsin müdafiəçisinin olmaması faktı bu pozuntunu daha da ağırlaşdırmışdır.

- Cinayət Məcəlləsinin 127.2.3 və 221.2.1-ci maddələri – qəsdən sağlamlığa az ağır zərər vurma və bir qrup şəxs tərəfindən törədilmiş xuliqanlıq – ilə ittiham olunan Emin Abdullayev və Adnan Hacızadənin məhkəmə işi, Səbail Rayon Məhkəməsi, 07 oktyabr 2009-cu il. Müdafiəçi müdafiə tərəfinin mövqeyini müdafiə etmək üçün bir neçə şahidin dindirilməsi haqqında vəsatət qaldırmışdır, hakim isə qərarını əsaslandırmadan, həmin şahidlərdən yalnız birinin məhkəməyə çağırılmasına icazə vermişdir. Bu qərar prokurorun müdafiəçinin şahidlər siyahısına etirazından sonra verilmişdir.

*Qohumların ifadə verməmək hüququ barədə məlumatlandırılmadan ifadə verdikləri hallar:*

- 28 sentyabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində Cinayət Məcəlləsinin 128-ci maddəsi – qəsdən sağlamlığa yüngül zərər vurma – ilə ittiham olunan Ziya Qulaməliyevin məhkəmə işi üzrə keçirilən məhkəmə iclasında şahid təqsirləndirilən şəxsin anası olduğu halda, dindirilməzdən əvvəl hakim ona yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququnun olmasını izah etməmişdir.

*Hakimin dindirmədən əvvəl şahidlərin heç birindən şəxsiyyətlərini təsdiq etmələrini tələb etmədiyi hallar:*

- 03 iyun 2009-cu il tarixdə Nəsimi Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 177.1-ci maddəsi – oğurluq – ilə ittiham olunan Kamran Novruzovun məhkəmə işi üzrə keçirilən məhkəmə iclasında şahiddən ifadə verməmişdən əvvəl şəxsiyyətini təsdiq edən hər hansı sənəd təqdim etməsi tələb olunmamışdır.

- 12 iyun 2009-cu il tarixdə Nizami Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 177.2.1 və 177.2.3-cü maddələri – yaşayış sahəsinə qanunsuz daxil olmaqla bir qrup şəxs tərəfindən törədilmiş oğurluq – ilə ittiham olunan Taleh Həşimov və Nazim Abdullayevin məhkəmə işi üzrə keçirilən məhkəmə baxışı.

*Şahidlərə hüquq və vəzifələrinin izah edilmədiyi və onların yalan ifadə verməyə görə cinayət məsuliyyəti daşıdıqları barədə xəbərdar edilmədikləri hallar:*

- Cinayət Məcəlləsinin 180.1-ci maddəsi – soyğunçuluq – ilə ittiham olunan Azər Nisdimovun məhkəmə işi, Sabunçu Rayon Məhkəməsi, 06 iyul 2009-cu il;

- Cinayət Məcəlləsinin 180.2.1-ci maddəsi – soyğunçuluq – ilə ittiham olunan Zaur Hacıməmmədovun məhkəmə işi, Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə, 29 iyul 2009-cu il;

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Gültəkin Mustafayevanın məhkəmə işi, Binəqədi Rayon Məhkəməsi, 07 iyul 2009-cu il;

- Cinayət Məcəlləsinin 126.1-ci maddəsi – qəsdən sağlamlığa ağır zərər vurma – ilə ittiham olunan Zaur Əliyev və İlqar İmanovunn məhkəmə işi, Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə, 04 avqust 2009-cu il;

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Ramilla Mustafayevanın məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 13 noyabr 2009-cu il.

Bütün şahidlər yalnız ifadə verdikdən sonra onlara hüquq və vəzifələrinin izah edildiyini təsdiqləyən bildirişi imzalamışlar.

### *1.9 Hüquqi yardım almaq hüququ*

AİHK-in 6-cı maddəsinin 3-cü bəndinin "c" yarımbəndində deyilir ki, cinayət törətməkdə ittiham olunan hər kəsin aşağıdakı minimum hüquqları vardır:

> *[...] "şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə belə müdafiədən pulsuz istifadə etmək".*

Bu hüquqlar məhkəməyədək istintaq və işin məhkəmədə araşdırılması mərhələsi də daxil olmaqla, mühakimə icraatının bütün mərhələlərinə aiddir. Təqsirləndirilən şəxsin (a) özü belə istədiyi təqdirdə, özünü şəxsən müdafiə etmək; (b) özünün seçdiyi müdafiəçinin hüquqi xidmətlərindən faydalanmaq; (c) və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi təqdirdə və ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək hüququ vardır.

Təqsirləndirilən şəxsə dövlət tərəfindən təyin olunan müdafiəçinin xidmətlərinin formal deyil səmərəli olmağının təmin edilməsi Dövlətin öhdəliyidir. Bununla belə, təqsirləndirilən şəxsin vəkil seçmək hüququ mütləq deyildir. Dövlət təqsirləndirilən şəxsin iradəsi əleyhinə olaraq, vəkil təyin edə bilər, bir şərtlə ki, bu cür təyinat ədalət mühakiməsinin maraqları ilə əsaslandırılmış olsun.[83] Kimin məhkəməyə çıxacağını tənzimləyən məhdudiyyətlər mümkündür, məsələn, daha münasib müdafiə təmin etmək üçün ali məhkəmələrə yalnız ixtisaslaşmış vəkillərin çıxmasına icazə verilməsi[84] və ya adi şəxsin əvəzinə peşəkar vəkilin təyin edilməsi tələbinin qoyulması məqbul hesab edilir.[85]

---

[83] *Krosant Almaniyaya qarşı* məhkəmə işi, AİHM-in 25 sentyabr 1992-ci il tarixli Qərarının 34-cü bəndi.
[84] *Meftah və başqaları Fransaya qarşı* məhkəmə işi, AİHM-in 26 iyul 2002-ci il tarixli Qərarının 47-ci bəndi.
[85] *Mayzit Rusiyaya qarşı* məhkəmə işi, AİHM-in 20 yanvar 2006-cı il tarixli Qərarının 68-ci bəndi.

Təqsirləndirilən şəxsin hüquqi yardım almaq hüququ müdafiəsinə hazırlaşmaq üçün kifayət qədər vaxt və şəraitə malik olmasını nəzərdə tutur.[86] "Kifayət qədər vaxt" məfhumu işin hallarından, yəni məhkəmə icraatından, işin faktiki hallarından, ittihamın növü və ağırlıq dərəcəsindən asılıdır. "Kifayət qədər şərait" məfhumu isə işin mürəkkəbliyindən, təqsirləndirilən şəxsin sübutlara və müdafiəçisinə çatımlığından, o cümlədən də milli qanunvericiliyin sözü gedən icraata ayırdığı müddətdən asılıdır.

Əgər təqsirləndirilən şəxsin hüquqi xidmətlə bağlı xərcləri ödəməyə maddi imkanı yoxdursa və ədalət mühakiməsinin maraqları bunu tələb edirsə, o, pulsuz hüquqi yardım almaq hüququna malikdir. Şəxsin pulsuz hüquqi yardım almaq hüququnun olub-olmadığına qərar verərkən aşağıdakı hallar nəzərə alınmalıdır: ittiham olunduğu əməlin ağırlığı və mümkün cəzanın ağırlıq dərəcəsi, yaxud da "*təqsirləndirilən şəxsin üzləşə biləcəyi risklər"*, işin mürəkkəbliyi və təqsirləndirilən şəxsin şəxsi vəziyyəti.[87] Azadlıqdan məhrum edilmə riski olduqda, ədalət mühakiməsinin maraqları prinsip etibarilə hüquqi təmsilçiliyi tələb kimi qoyur.[88]

Hüquqi yardım səmərəli olmalıdır, çünki Konvensiya nəzəri və ya xəyali deyil, praktiki və səmərəli hüquqları təmin etmək məqsədi daşıyır.[89] *"Müdafiəçini sadəcə təyin etməklə səmərəli yardım təmin edilmiş olmur, belə ki, hüquqi yardım məqsədilə təyin edilmiş vəkil vəzifələrinin icrasından yayına [...] bilər. Bu cür vəziyyət barədə hakimiyyət orqanlarına məlumat verildikdə, onlar ya müdafiəçini başqası ilə əvəz etməlidirlər, ya da onu öhdəliklərinin icrasına məcbur etməlidirlər."*[90]

Dövlət orqanları təqsirləndirilən şəxsin səmərəli müdafiədən yararlanmasını təmin etmək üçün "*müsbət addımlar*" atmalıdırlar və bu cür müdafiə üçün müvafiq vaxt və şəraiti təmin etməlidirlər. 6-cı maddənin 3-cü bəndinin "c" yarımbəndinə əsasən, müvafiq yerli orqanlar yalnız o zaman müdaxilə etməlidirlər ki, müdafiəçinin təqsirləndirilən şəxsi səmərəli təmsil edə bilməməsi açıq-aydın nəzərə çarpsın və ya hər hansı başqa yolla onların nəzərinə lazımınca çatdırılmış olsun.[91]

ATƏT-in öhdəlikləri də AİHK-in 6-cı maddəsini təkrarlayır:

*"Cinayət törətməkdə ittiham olunan hər kəsin şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək hüququ vardır;"*[92] *və*

---

[86] MSHBP-nın 14-cü maddəsinin 3-cü hissədinin b bəndi.
[87] *Kvaranta İsveçrəyə qarşı* məhkəmə işi, AİHM-in 24 may 1991-ci il tarixli Qərarının 33-35-ci bəndləri.
[88] *Behnam Birləşmiş Krallığa qarşı* məhkəmə işi, AİHM-in 10 iyun 1996-cı il tarixli Qərarının 61-ci bəndi.
[89] *Artiko İtaliyaya qarşı* məhkəmə işi, AİHM-in 30 aprel 1980-ci il tarixli Qərarının 33-cü bəndi.
[90] *Artiko İtaliyaya qarşı* məhkəmə işi, AİHM-in 30 aprel 1980-ci il tarixli Qərarının 33-cü bəndi.
[91] *Kamasinski Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 19 dekabr 1989-cu il tarixli Qərarının 65-ci bəndi.
[92] ATƏT-in Öhdəlikləri, Ədalətli məhkəmə hüququ, Moskva Görüşü 1991-ci il, 23.1(v) bəndi.

*"İttiham olunan hər kəsin şəxsən və ya özünün seçdiyi təxirəsalmadan xidmət göstərmək iqtidarında olan müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, müdafiəçidən pulsuz istifadə etmək hüququ vardır."*[93]

Azərbaycanda AİHK-də təsvir edilmiş minimum hüquqlara əlavə olaraq, Azərbaycan Konstitusiyasının 61-ci maddəsində deyilir ki, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.[94] Bundan başqa, CPM-in 91.5 və 91.5.5-ci maddələri təqsirləndirilən şəxsin hüquqi yardım almaq üçün kifayət qədər vəsaitinin olub-olmamağından asılı olmayaraq, müdafiəçinin yardımından istifadə etmək hüququnu aydın şəkildə nəzərdə tutur. Bu baxımdan CPM müdafiəçinin yalnız vəkil tutmağa maddi imkanı çatmayan şəxslər üçün təyin edilməsi və bunun ədalət mühakiməsinin maraqlarının tələblərindən asılı olması məhdudiyyətini tətbiq etməməklə, hətta AİHK-dən də irəli getmişdir.

Milli qanunvericilikdə həmçinin müdafiənin səmərəliliyini təmin edən müddəalar əksini tapmışdır. CPM-in 114.4-cü maddəsində deyilir *ki, "müdafiəçi və ya nümayəndə qismində təyin edilmiş şəxsin səriştəsinə və ya vicdanlı olmasına şübhə və ya digər səbəblər olduqda, müdafiə olunan, yaxud təmsil etdiyi şəxsin vəsatəti əsasında müdafiəçi və ya nümayəndə cinayət prosesindən kənarlaşdırılmalıdır".* AİHM-in presedent hüququna əsasən, məhkəmə müdafiəçinin müvafiq yardım göstərməsini təmin etmək üçün yalnız təqsirləndirilən şəxsin məhkəməyə müraciəti əsasında deyil, həm də öz təşəbbüsü ilə tədbir görməlidir.

Monitorinq zamanı hüquqi yardım almaq hüququ ilə bağlı ciddi pozuntular müşahidə edilmişdir. Ümumilikdə, hüquqi yardım təqsirləndirilən şəxsin israrla xahiş etdiyi hallarda təmin edilir. Müşahidəçilər bir neçə məhkəmə prosesində hakimlərin müdafiəçi ilə təmsil olunmaq hüququnu izah etmədiklərini və tez-tez təqsirləndirilən şəxsin özünü təmsil etmək istəyini qəbul etdiklərini müşahidə etmişlər. Bundan başqa, bir neçə məhkəmə prosesində hakim və ya məhkəmə prosesinin digər iştirakçıları təqsirləndirilən şəxsə vəkillə təmsil olunmaqdan imtina etməyi təklif etmişlər. CPM-in maddi vəziyyətindən asılı olmayaraq, təqsirləndirilən şəxsə vəkillə təmsil olunmaq hüququnu təmin etməsinə baxmayaraq, hakimlər təqsirləndirilən şəxslərə bu hüququ izah etmədikdə (əgər təqsirləndirilən şəxs məhkəməyə vəkilsiz çıxırsa, belə nəticəyə gəlmək olar ki, məhkəməyədək icraat zamanı da onun vəkili olmamışdır) o, daha çox xəyali xarakter daşımış olur. Beləliklə də, monitorinq zamanı təqsirləndirilən şəxsin yalnız vəsaitinin olmaması səbəbindən vəkillə təmsil olunmaqdan imtina etdiyi və bu zaman hakimin təqsirləndirilən şəxsə dövlət tərəfindən təyin olunan vəkillə təmsil olunmaq hüququnun olduğunu izah etmədiyi hallara rast gəlinmişdir. Müşahidəçilər həmçinin hakimlərin bəzən müdafiəçilərə məhkəmə baxışına hazırlaşmaq üçün çox az vaxt verdiklərinin şahidi olmuşlar ki, bu da hüquqi təmsilçiliyin keyfiyyətinə mənfi təsir göstərmişdir.

---

[93] ATƏT-in Öhdəlikləri, Ədalətli məhkəmə hüququ, Kopenhagen 1990-cı il, 5.17-ci bənd.

[94] Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi özünün 13 iyul 1999-cu il tarixli Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 256 və 259-cu maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinə uyğunluğunun yoxlanılmasına dair Qərarında bu hüququn tam həyata keçirilməsini xüsusi vurğulamışdır, belə ki, məhkəmə müəyyən etmişdir ki, inzibati xəta törətmiş şəxslərin hüquqi yardım almasını məhdudlaşdıran 256 və 259-cu maddələr şəxslərin konstitusion hüquqlarını pozur, buna görə də həmin maddələrin hüquqi qüvvəsini itirdiyi bəyan edilmişdir.

Vəkil təyin edilən işlərdə isə müşahidəçilər göstərilən hüquqi yardımın aşağı keyfiyyətli olduğunu müşahidə etmişlər. Xüsusilə də vəkillər məhkəmə baxışı başlamazdan azca əvvəl təyin edildikdə səmərəli hüquqi müdafiə hazırlanmasına kifayət qədər vaxt qalmadığından, təyin etmə proseduru da hüquqi yardımın aşağı keyfiyyətli olmasına yol açmış olur. Monitorinq zamanı həmçinin təqsirləndirilən şəxslərin dövlət tərifindən təyin edilən vəkillərə inamlarının aşağı olması müəyyən edilmişdir.

Cinayət Məcəlləsinin 127.2.3 və 221.2.1-ci maddələri – qəsdən sağlamlığa az ağır zərər vurma və bir qrup şəxs tərəfindən törədilmiş xuliqanlıq – ilə ittiham olunan Emin Abdullayev və Adnan Hacızadənin məhkəmə işi üzrə 04 sentyabr 2009-cu il tarixdə Səbail Rayon Məhkəməsində keçirilən məhkəmənin hazırlıq iclası zamanı müdafiəçi işin əlavə araşdırma aparılması üçün prokurorluğa qaytarılması haqqında vəsatət qaldırmışdır. Müdafiəçi vəsatəti ibtidai araşdırma zamanı təqsirləndirilən şəxslərin hüquqi yardım almaq hüququnun pozulması ilə əsaslandırmışdır. Vəsatətə əsasən, təqsirləndirilən şəxslər tutulduqdan dərhal sonra müstəntiqdən özlərinin seçdiyi və deyildiyinə görə həmin anda həbs yerində olan müdafiəçi ilə təmin edilmələrini xahiş etmişlər. Lakin müstəntiq təqsirləndirilən şəxslərin seçimini nəzərə almamış və təqsirləndirilən şəxsləri təmsil etmək üçün digər (dövlət tərəfindən təyin edilmiş) müdafiəçini dəvət etmişdir. Bundan başqa, vəsatətdə göstərilmişdir ki, dövlət tərəfindən təyin edilmiş müdafiəçi heç bir hüquqi yardım göstərməmiş və gecə vaxtı 5 saat davam etmiş dindirmədə iştirak etməmişdir. Bundan əlavə, təqsirləndirilən şəxslər dindirmə protokolunu imzalamaqdan imtina etsələr də, dövlət tərəfindən təyin edilmiş müdafiəçi təqsirləndirilən şəxslərin iradəsinə zidd olaraq protokolu onların adından imzalamışdır. Bu cür ciddi iddiaların irəli sürülməsinə baxmayaraq, hakim heç bir əsas gətirmədən vəsatəti rədd etmişdir.

*Hakimin pulsuz hüquqi yardım almaq hüququnu izah etmədiyi və məhkəmə baxışının vəkilsiz davam etdiyi hallar:*

- 09 iyun 2009-cu il tarixdə Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Elnur Quliyevin məhkəmə işinə Gəncə Şəhər Kəpəz Rayon Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxsin müdafiəçisi olmamışdır. Hakim ona pulsuz hüquqi yardım almaq hüququnu izah etməmiş və müdafiəçiyə ehtiyacı olub-olmadığını soruşmamışdır.

- Həmin məhkəmədə 02 iyun 2009-cu il tarixdə Cinayət Məcəlləsinin 177.2.1, 177.2.2 və 177.2.3-cü maddələri – yaşayış sahəsinə qanunsuz daxil olmaqla və xeyli miqdarda ziyan vurmaqla törədilmiş oğurluq – ilə ittiham olunan Xəyal Verdiyev və Seymur Adıgözəlovun məhkəmə işində eyni hal müşahidə edilmişdir. Hər iki halda məhkəmə baxışı müdafiəçisiz davam etdirilmişdir.

Monitorinq zamanı həmçinin *hakimlər tərəfindən təqsirləndirilən şəxslərin vəkillə təmsil olunmaq hüquqlarından imtina etmələrinin onlara bu cür imtinanın mümkün nəticələri izah edilmədən avtomatik*

*olaraq qəbul edilməsi* təcrübəsi diqqəti cəlb etmişdir.[95] Bundan başqa, bəzi hallarda hakimlər təqsirləndirilən şəxslərə vəkillə təmsil olunmaq hüquqlarından imtina etmələrini təklif etmişlər.

*Aşağıda sadalanan məhkəmə baxışları zamanı hakimlər təqsirləndirilən şəxslərin vəkillə təmsil olunmaq hüquqlarından imtina etmələrini qəbul etmiş və bu zaman bu cür imtinanın mümkün nəticələrini təqsirləndirilən şəxslərə izah etmək üzrə mənəvi öhdəliklərini dərk etməmişlər:*

- Cinayət Məcəlləsinin 294.1-ci maddəsi – sübutları saxtalaşdırma – ilə ittiham olunan Çingiz Quliyevin məhkəmə işi, Şirvan Şəhər Məhkəməsi, 30 mart 2009-cu il;

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Tofiq Qurbanovun məhkəmə işi, Sabunçu Rayon Məhkəməsi, 29 mart 2009-cu il;

- Cinayət Məcəlləsinin 29 və 177.2.3-cü maddələri – oğurluğa cəhd – ilə ittiham olunan Zamin Hüseynovun məhkəmə işi, Sabunçu Rayon Məhkəməsi, 31 mart 2009-cu il;

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Qabil Hüseynov, Səxavət Hüseynov və Xanlar Camalovun məhkəmə işinə 29 mart 2009-cu il tarixdə Şəki Şəhər Məhkəməsində baxılması zamanı hakim təqsirləndirilən şəxslərə adını çəkdiyi bir nəfər vəkili təklif etmişdir və onlara dövlət tərəfindən təyin olunan digər bir vəkil xahiş etməyə və ya özlərinin seçdiyi vəkilə müraciət etməyə imkan verməmişdir. Təqsirləndirilən şəxslər hakimin təklifinə cavab vermədikdə, hakim dərhal onlardan hüquqi yardımdan imtina etmələri barədə sənədə imza atmağı tələb etmişdir;

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan İlqar Quliyevin məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 06 aprel 2009-cu il;

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Vüqar Rəsulov və Rəşadət Hüseynovun məhkəmə işi, Şirvan Şəhər Məhkəməsi, 08 aprel 2009-cu il;

- Cinayət Məcəlləsinin 177.1-ci maddəsi – oğurluq – ilə ittiham olunan Rasim Hüseynovun məhkəmə işi, Şirvan Şəhər Məhkəməsi, 06 aprel 2009-cu il;

---

[95] Hərçənd izah edilməsi qanunvericilikdə nəzərdə tutulmayıb, prosesin tərəflərinin maraqları naminə izah edilməsi mənəvi öhdəlik kimi nəzərə alınmalıdır.

- Cinayət Məcəlləsinin 320.1-ci maddəsi – rəsmi blankları, ştampları, möhürləri qanunsuz hazırlama və satma – ilə ittiham olunan Emin Süleymanzadənin məhkəmə işi, Şirvan Şəhər məhkəməsi, 09 aprel 2009-cu il;

- Cinayət Məcəlləsinin 128.1-ci maddəsi – qəsdən sağlamlığa yüngül zərər vurma – ilə ittiham olunan Eldəniz Qurbanovun məhkəmə işi, Şirvan Şəhər Məhkəməsi, 10 aprel 2009-cu il;

- Cinayət Məcəlləsinin 177.1-ci maddəsi – oğurluq – ilə ittiham olunan Mahmud Mahmudovun məhkəmə işinə 06 aprel 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində baxılması zamanı sədrlik edən hakim heç bir əlavə izahat vermədən yalnız təqsirləndirilən şəxsin pulsuz hüquqi yardım almaq hüququnu elan etmişdir. Təqsirləndirilən şəxs müdafiəçi ilə təmsil olunmaqdan imtina etdikdə isə hakim imtinanın səbəblərini araşdırmamışdır;

- Eyni hala Cinayət Məcəlləsinin 177.1-ci maddəsi – oğurluq – ilə ittiham olunan Mustafa İbrahimovun məhkəmə işinə 06 apel 2009-cu il tarixdə Şəki Şəhər Məhkəməsində baxılması zamanı rast gəlinmişdir;

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Elnur Quliyevin məhkəmə işinə 09 iyun 2009-cu il tarixdə Gəncə Şəhər Kəpəz Rayon Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxsin müdafiəçisi olmamışdır. Hakim ona pulsuz hüquqi yardım almaq hüququnu izah etməmiş və müdafiəçiyə ehtiyacı olub-olmadığını soruşmamışdır.

- Eyni məhkəmədə oxşar pozuntular Cinayət Məcəlləsinin 177.2.1, 177.2.2 və 177.2.3-cü maddələri – yaşayış sahəsinə qanunsuz daxil olmaqla və xeyli miqdarda ziyan vurmaqla törədilmiş oğurluq – ilə ittiham olunan Xəyal Verdiyev və Seymur Adıgözəlovun məhkəmə işinə 02 iyun 2009-cu il tarixdə baxılması zamanı müşahidə edilmişdir. Hər iki halda məhkəmə baxışı müdafiəçi iştirak etmədən davam etdirilmişdir;

- Cinayət Məcəlləsinin 234.2-ci maddəsi – satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Telman Hüseynov və Tahir Feyzullayevin məhkəmə işi üzrə 14 iyul 2009-cu il tarixdə Qaradağ Rayon Məhkəməsində keçirilən hazırlıq iclası zamanı təqsirləndirilən şəxslərin müdafiəçisi olmamışdır. Buna baxmayaraq, hakim onlara pulsuz hüquqi yardım almaq hüququnu izah etməmiş, sadəcə onlardan vəkilə ehtiyac olub-olmadığını soruşmuşdur. Bu hazırlıq iclasında müdafiəçinin iştirakı qanunla tələb olunsa da hakim məcburi müdafiəçi də təyin etməmişdir. Sədrlik

edən hakim daha sonra təqsirləndirilən şəxslərdən yazılı imtina barədə sənədi imzalamağı xahiş etmişdir;

- Cinayət Məcəlləsinin 177.2.1, 177.2.3 və 177.2.4-cü maddələri – yaşayış sahəsinə qanunsuz daxil olmaqla bir qrup şəxs tərəfindən törədilmiş oğurluq – ilə ittiham olunan Mehdi Məmmədovun məhkəmə işi, Nəsimi Rayon Məhkəməsi, 08 iyun 2009-cu il;

- Cinayət Məcəlləsinin 320.1-ci maddəsi – rəsmi sənədləri, möhürləri, ştampları, blankları saxtalaşdırma və qanunsuz hazırlama – ilə ittiham olunan Svetlana Abdullayevanın məhkəmə işi, Nəsimi Rayon Məhkəməsi, 08 iyun 2009-cu il;

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Niyaz Şərifovun məhkəmə işi, Nəsimi Rayon Məhkəməsi, 16 iyun 2009-cu il;

- Cinayət Məcəlləsinin 221.3-cü maddəsi – xuliqanlıq – ilə ittiham olunan Vüqar Quliyevin məhkəmə işi, Gəncə Şəhər Kəpəz Rayon Məhkəməsi, 16 iyun 2009-cu il;

- Cinayət Məcəlləsinin 221.1-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Hikmət Əliyev və Mais Nəzərovun məhkəmə işi, Astara Rayon Məhkəməsi, 17 iyun 2009-cu il;

- Cinayət Məcəlləsinin 128-ci maddəsi – qəsdən sağlamlığa yüngül zərər vurma – ilə ittiham olunan Vahid Salahovun məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 29 iyun 2009-cu il;

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Namiq Abdullayevin məhkəmə işi, Nərimanov Rayon Məhkəməsi, 01 iyul 2009-cu il.

*Təqsirləndirilən şəxsin yalnız vəsaitinin olmaması səbəbindən vəkillə təmsil olunmaqdan imtina etdiyi və bu zaman hakimin ona pulsuz hüquqi yardım almaq hüququnun olduğunu izah etmədiyi və ya təqsirləndirilən şəxsin müdafiəçisiz məhkəmə qarşısına çıxdığı və bu zaman hakimin ona pulsuz hüquqi yardım almaq hüququnun olduğunu izah etmədiyi hallar:*

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Tərlan Əhmədovun məhkəmə işinə 08 aprel 2009-cu il tarixdə Şəki Şəhər Məhkəməsində baxılması zamanı sədrlik edən hakim təqsirləndirilən şəxsə pulsuz hüquqi yardım almaq hüququ haqqında məlumat versə də təqsirləndirilən şəxs belə görünür ki, bu hüququ başa düşməmişdir, belə

ki, o, imkansızlığını (vəsaitinin olmadığını) əsas gətirərək hüquqi yardımdan imtina etmişdir. Buna baxmayaraq, hakim pulsuz hüquqi yardım almaq hüququ haqqında əlavə izahat verməmiş və təqsirləndirilən şəxsdən imtinasını yazılı şəkildə təsdiqləməyi xahiş etmişdir;

- Cinayət Məcəlləsinin 32.3 və 221.2.1-ci maddələri – xuliqanlıq – ilə ittiham olunan Elşən Paşayevin məhkəmə işinə 10 aprel 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində baxılması zamanı təqsirləndirilən şəxsin məhkəmə qarşısına müdafiəçisi olmadan çıxmasına baxmayaraq, sədrlik edən hakim təqsirləndirilən şəxsə pulsuz hüquqi yardım almaq hüququnu izah etməmişdir. Bundan əlavə, hakim təqsirləndirilən şəxsdən hüquqi yardımdan imtina etməsini yazılı şəkildə təsdiqləməsi xahiş etmişdir.

*Eyni pozuntular aşağıda göstərilən məhkəmə iclaslarında müşahidə olunmuşdur:*

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Musa Tağıyev və Fizuli Hüseynovun məhkəmə işi, Binəqədi Rayon Məhkəməsi 29 aprel 2009-cu il;

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Pərvər Həsənovun məhkəmə işi, Binəqədi Rayon Məhkəməsi, 21 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 234.2-ci maddəsi – satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Cavid Əkbərovun məhkəmə işi, Nərimanov Rayon Məhkəməsi, 20 aprel 2009-cu il;

- Cinayət Məcəlləsinin 180.1-ci maddəsi – soyğunçuluq – ilə ittiham olunan Faniz Səfərovun məhkəmə işi, Nərimanov Rayon Məhkəməsi, 23 iyul 2009-cu il;

- Cinayət Məcəlləsinin 127.5.3 və 315.1-ci maddələri – qəsdən sağlamlığa az ağır zərər vurma və hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə - ilə ittiham olunan Təhmasib Quliyevin məhkəmə işi, Abşeron Rayon Məhkəməsi, 21 aprel 2009-cu il;

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə - ilə ittiham olunan İlqar Adıyevin məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 14 aprel 2009-cu il;

- Cinayət Məcəlləsinin 178.2.4 və 320.1-ci maddələri - dələduzluq və rəsmi sənədlərin saxtalaşdırılması - ilə ittiham olunan Anar Xələfovun məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 14 aprel 2009-cu il;

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Aynurə Bayramovanın məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 13 aprel 2009-cu il;

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Zəfər Şəfiyevin məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 13 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 315.1-ci maddəsi – hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə – ilə ittiham olunan Zahid Xudaverdiyevin məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 28 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Nizami Balayevin məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 22 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 228.4-cü maddəsi – qanunsuz olaraq odlu silah saxlama – ilə ittiham olunan Məmmədtağı Sadayevin məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 19 iyun 2009-cu il;
- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Nizami Mahmudovun məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 24 iyul 2009-cu il;
- Cinayət Məcəlləsinin 177.1-ci maddəsi – oğurluq – ilə ittiham olunan Mustafa İbrahimovun məhkəmə işi, Şəki Şəhər Məhkəməsi, 06 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 177.1-ci maddəsi – oğurluq – ilə ittiham olunan Niyaməddin Əlicanovun məhkəmə işi, Şirvan Şəhər Məhkəməsi, 14 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 221.3-cü maddəsi – xuliqanlıq – ilə ittiham olunan Vüqar Bekimatovun məhkəmə işi, Şirvan Şəhər Məhkəməsi, 15 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 263.1-ci maddəsi – ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurmaqla, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma – ilə ittiham olunan Teymur Babayevin məhkəmə işi, Şirvan Şəhər Məhkəməsi, 23 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 234-cü maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Əliağa Nağıyev, Ramin Qurbanov və Ramin Əhmədovun məhkəmə işi, Şirvan Şəhər Məhkəməsi, 28 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 221.3-cü maddəsi – xuliqanlıq – ilə ittiham olunan Əli Hacıyevin məhkəmə işi, Gəncə Şəhər Kəpəz Rayon Məhkəməsi, 10 iyun 2009-cu il;

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Elnur Quliyevin məhkəmə işi, Gəncə Şəhər Kəpəz Rayon Məhkəməsi, 17 iyun 2009-cu il;

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Zahid Xubəliyevin məhkəmə işi, Lənkəran Rayon Məhkəməsi, 05 iyun 2009-cu il.

Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Namiq Abdullayevin məhkəmə işi üzrə 25 iyun 2009-cu il tarixdə Nərimanov Rayon Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin müdafiəçisi olmamışdır. Sədrlik edən hakim – *"Vəkil istəyirsənmi?"* – soruşmaqla, təqsirləndirilən şəxsə pulsuz hüquqi yardım almaq hüququnu izah etməmişdir. Eyni pozuntu Cinayət Məcəlləsinin 178.2.4-cü maddəsi – xeyli miqdarda ziyan vurmaqla törədilmiş dələduzluq – ilə ittiham olunan Rza Quliyevin məhkəmə işi üzrə 24 iyun 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı müşahidə edilmişdir.

Cinayət Məcəlləsinin 181.2.3-cü maddəsi – quldurluq – ilə ittiham olunan Pərvin Həmidov və Hüseynağa Əsgərovun məhkəmə işi üzrə 22 iyul 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə keçirilən məhkəmə baxışı zamanı təqsirləndirilən şəxslərin birinin müdafiəçisi olmamışdır. Hakim məhkəmə baxışına dəvət edilmiş müdafiəçini təqdim edərək, onunla təqsirləndirilən şəxsin müqavilə bağlanmasını təklif etdikdə, təqsirləndirilən şəxsin valideynləri müdaxilə edərək, müdafiəçi tutmaq üçün maddi imkanlarının çatmadığını və təqsirləndirilən şəxsin müdafiəçidən imtina etdiyini söyləmişlər. Buna baxmayaraq, sədrlik edən hakim pulsuz hüquqi yardım almaq hüququnu izah etməmişdir.

Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Zaur Əliyevin məhkəmə işi üzrə 29 iyul 2009-cu il tarixdə Nərimanov Rayon Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin məhkəmə qarşısına müdafiəçisiz çıxdığını görən sədrlik edən hakim təqsirləndirilən şəxsdən vəkilə ehtiyacı olub-olmadığını soruşmuşdur. Təqsirləndirilən şəxs imtina etdikdə, sədrlik edən hakim mənəvi öhdəliyinə baxmayaraq, pulsuz hüquqi yardım almaq hüququnu və müdafiəçidən imtinanın mümkün nəticələrini izah etmədən təqsirləndirilən şəxsdən imtinanı yazılı şəkildə təsdiqləməsini xahiş etmişdir.

Cinayət Məcəlləsinin 221.2.2-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Əbülfəz İmanovun məhkəmə işi üzrə 29 oktyabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin müdafiəçisi olmamışdır. Məhkəmə baxışında hakim təqsirləndirilən şəxsə pulsuz hüquqi yardım almaq hüququnu izah etmədən ondan vəkilə ehtiyacının olub-olmadığını soruşmuşdur. Təqsirləndirilən şəxs müdafiəçi ilə təmsil olunmaqdan imtina etdikdə, hakim imtinanın səbəbini soruşmadan təqsirləndirilən şəxsdən imtinanı yazılı şəkildə təsdiqləməsini xahiş etmişdir.

*Hakimin müdafiəçi təyin etmədiyi və ya hüquqi yardım almaq hüququnu izah etmədiyi təqdirdə, məhkəmə prosesinin digər iştirakçısı tərəfindən edilən müraciət əsasında vəkilin təyin edildiyi hal:*

CPM-in 299.10-cu maddəsinə əsasən, təqsirləndirilən şəxs onun köməyindən imtina etmədiyi təqdirdə, müdafiəçinin məhkəmənin hazırlıq iclasında iştirakının məcburi olmasına baxmayaraq, Layihə Qrupu Cinayət Məcəlləsinin 177.2.3-cü maddəsi – yaşayış sahəsinə qanunsuz daxil olmaqla törədilmiş oğurluq – ilə ittiham olunan Fəxrəddin İsmayılovun məhkəmə işi üzrə 10 iyun 2009-cu il tarixdə Gəncə Şəhər Kəpəz Rayon Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı bu tələbin pozulduğunun şahidi olmuşdur. Təqsirləndirilən şəxsin hazırlıq iclasına müdafiəçisiz gəlməsinə baxmayaraq, sədrlik edən hakim təqsirləndirilən şəxsdən vəkilə ehtiyacının olub-olmadığını soruşsa da müdafiəçi təyin etməmişdir. Lakin prokuror təqsirləndirilən şəxs ruhi xəstə olduğuna görə müdafiəçiyə ehtiyac olduğunu bildirəndən sonra sədrlik edən hakim müdafiəçinin təyin edilməsini təmin etmək məqsədilə məhkəmə baxışını təxirə salmışdır.

Müşahidəçilər hakimlərin müdafiəçiləri məhkəmə baxışından azca əvvəl təyin etdikləri hallara rast gəlmişlər ki, bununla da müdafiə tərəfinin müdafiəyə hazırlaşmaq üçün müvafiq vaxt və şəraitlə təmin olunmaq hüququ pozulmuşdur. Məsələn, Cinayət Məcəlləsinin 221.1-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Şamil Hüseynovun məhkəmə işi üzrə 01 aprel 2009-cu il tarixdə Qaradağ Rayon Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı hakim təqsirləndirilən şəxsi dövlət tərəfindən təyin edilən vəkillə təmin etmişdir. Lakin bundan sonra iclası yalnız yarım saatlığına təxirə salmışdır ki, bu qısa müddət ərzində vəkil işin materialları ilə tanış olsun.

*Aşağıda sadalanan hallarda isə Layihə Qrupu dövlət tərəfindən təyin edilmiş müdafiəçilərin həddindən artıq aşağı keyfiyyətli xidmət göstərdiklərini və vəzifələrinin müvafiq qaydada yerinə yetirilməsinə səhlənkar yanaşdıqlarını müşahidə etmişdir. Bir çox hallarda dövlət tərəfindən təyin edilmiş müdafiəçi ittiham aktı və digər əlavə materiallarla işə mahiyyəti üzrə baxıldığı məhkəmə iclası zamanı tanış olmuş və prosesin qalan hissəsində demək olar ki, səssiz oturmuşdur.*

- Cinayət Məcəlləsinin 342.2-ci maddəsi – ağır nəticələrə səbəb olmaqla, qulluğa səhlənkar yanaşma – ilə ittiham olunan Gündüz Ağayevin məhkəmə işi üzrə 01 aprel 2009-cu il tarixdə Şəki Apellyasiya Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı təqsirləndirilən şəxs dövlət tərəfindən təyin edilmiş müdafiəçidən şikayət etmişdir. Təqsirləndirilən şəxsin söylədiyinə görə müdafiəçi nə onunla, nə də şahidlərlə görüşmüş, nə də istintaq materialları ilə tanış olmuşdur;

- Cinayət Məcəlləsinin 234.1 və 237.1-ci maddələri – qanunsuz olaraq narkotik vasitələri saxlama və qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə – ilə ittiham olunan Vladimir Piriyevin məhkəmə işi üzrə 12 may 2009-cu il tarixdə Səbail Rayon Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı dövlət tərəfindən təyin edilmiş vəkil təqsirləndirilən şəxsə

ittihamedici suallar vermişdir ki, nəticədə sədrlik edən hakim ona xəbərdarlıq edərək, onun vəzifəsinin, ittiham etmək deyil, müdafiə etmək olduğunu bildirmişdir;

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Abbasxan Məmmədovun məhkəmə işi üzrə 14 may 2009-cu il tarixdə Səbail Rayon Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı dövlət tərəfindən təyin edilmiş müdafiəçi iclasa gecikmiş və hakim müşavirəyə getdikdə iclası tərk edərək, hökmün oxunmasına qayıtmamışdır;

- Cinayət Məcəlləsinin 234.2-ci maddəsi – satış məqsədilə qanunsuz olaraq külli miqdarda narkotik vasitələri saxlama – ilə ittiham olunan Ağaveys Hüseynova qarşı iş üzrə 01 iyun 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə keçirilən məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin müdafiəçisi olmamışdır və o, dövlət tərəfindən təyin olunan vəkillərə inanmadığını bildirərək, pulsuz hüquqi yardımdan imtina etmişdir;

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Əmərqulu Yamudovun Məhkəmə işi üzrə 02 iyun 2009-cu il tarixdə Nəsimi Rayon Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı dövlət hesabına təyin edilmiş müdafiəçi səmərəli hüquqi yardım göstərmirdi. Məsələn, təqsirləndirilən şəxs dindirilən zaman o, mobil telefonla danışırdı;

- Cinayət Məcəlləsinin 126.1-ci maddəsi – qəsdən sağlamlığa ağır zərər vurma – ilə ittiham olunan Fizuli Əliyev və İlqar İmanovun məhkəmə işi üzrə 04 avqust 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə keçirilən məhkəmə baxışı zamanı dövlət tərəfindən təyin edilmiş müdafiəçi təqsirləndirilən şəxsləri səmərəli şəkildə təmsil etməmişdir. Onun məhkəmə baxışı ərzində təqsirləndirilən şəxslərə verdiyi yeganə sual *"Cinayət törətdiyinizə görə peşmansınızmı?"* olmuşdur. Müdafiəçi heç bir vəsatət qaldırmamış və ya hər hansı şahidin dindirilməsini xahiş etməmişdir.

*Müdafiəçiyə məhkəmə baxışına hazırlaşmaq üçün kifayət qədər vaxtın ayrılmadığı hal:*

Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Elxan Şiriyevin məhkəmə işi üzrə 07 may 2009-cu il tarixdə Xətai Rayon Məhkəməsində keçirilmiş məhkəmə baxışı ilə bağlı narahatlıq ifadə edilmişdir. Vəkilin müdafiəyə hazırlaşmaq üçün üç gün vaxt istəməsinə baxmayaraq, sədrlik edən hakim ona cəmi iki saat vaxt vermişdir. Vəkil bu qədər vaxtın müdafiəni hazırlamaq üçün kifayət etmədiyini deməsinə baxmyaraq, hakim bu etirazı heç bir əsaslandırma vermədən rədd etmişdir;

## 2009-CU İLDƏ HÜQUQ XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİ

| MƏHKƏMƏLƏR | Müqavilə əsasında | Dövlət hesabına | Müdafiəçi olmayıb | CƏMİ |
|---|---|---|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 20 | 6 | 6 | 32 |
| Gəncə Apellyasiya Məhkəməsi | 5 | 0 | 9 | 14 |
| Şəki Apellyasiya Məhkəməsi | 8 | 4 | 17 | 29 |
| Şirvan Apellyasiya Məhkəməsi | 3 | 0 | 1 | 4 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 7 | 1 | 6 | 14 |
| Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə | 43 | 64 | 25 | 132 |
| Abşeron Rayon Məhkəməsi | 4 | 3 | 9 | 16 |
| Əzizbəyov Rayon Məhkəməsi | 3 | 7 | 0 | 10 |
| Binəqədi Rayon Məhkəməsi | 9 | 34 | 24 | 67 |
| Qaradağ Rayon Məhkəməsi | 2 | 7 | 20 | 29 |
| Xətai Rayon Məhkəməsi | 19 | 63 | 18 | 100 |
| Nərimanov Rayon Məhkəməsi | 14 | 19 | 40 | 73 |
| Nəsimi Rayon Məhkəməsi | 9 | 27 | 19 | 55 |
| Nizami Rayon Məhkəməsi | 6 | 41 | 21 | 68 |
| Səbail Rayon Məhkəməsi | 4 | 27 | 12 | 43 |
| Sabunçu Rayon Məhkəməsi | 7 | 33 | 37 | 77 |
| Suraxanı Rayon Məhkəməsi | 6 | 24 | 19 | 49 |
| Yasamal Rayon Məhkəməsi | 15 | 21 | 39 | 75 |
| Gəncə-Kəpəz Rayon Məhkəməsi | 4 | 0 | 26 | 30 |
| Gəncə-Nizami Rayon Məhkəməsi | 6 | 1 | 16 | 23 |
| Şəki Şəhər Məhkəməsi | 2 | 0 | 13 | 15 |
| Şirvan Şəhər Məhkəməsi | 1 | 0 | 16 | 17 |
| Sumqayıt Şəhər Məhkəməsi | 5 | 5 | 58 | 68 |
| Astara Rayon Məhkəməsi | 0 | 0 | 14 | 14 |
| Qəbələ Rayon Məhkəməsi | 0 | 0 | 1 | 1 |
| Qax Rayon Məhkəməsi | 1 | 0 | 0 | 1 |
| Goranboy Rayon Məhkəməsi | 0 | 1 | 1 | 2 |
| Quba Rayon Məhkəməsi | 0 | 0 | 6 | 6 |
| Qusar Rayon Məhkəməsi | 0 | 2 | 1 | 3 |
| Xaçmaz Rayon Məhkəməsi | 0 | 0 | 2 | 2 |
| Lənkəran Rayon Məhkəməsi | 8 | 2 | 6 | 16 |
| Mingəçevir Rayon Məhkəməsi | 0 | 0 | 3 | 3 |
| **CƏMİ** | **211** | **392** | **485** | **1088** |




CƏMİ: 1,088 cinayət işi

485 iş - müdafiəçi olmayıb

392 iş - müdafiəçi dövlət hesabına təyin olunub

211 iş - müdafiəçi müqavilə əsasında olub

## 2009-CU İLDƏ BAKIDA HÜQUQ XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİ

| MƏHKƏMƏLƏR | Müqavilə əsasında | Dövlət hesabına | Müdafiəçi olmayıb | CƏMİ |
|---|---|---|---|---|
| Baki Apellyasiya Məhkəməsi | 20 | 6 | 6 | 32 |
| Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə | 43 | 64 | 25 | 132 |
| Əzizbəyov Rayon Məhkəməsi | 3 | 7 | 0 | 10 |
| Binəqədi Rayon Məhkəməsi | 9 | 34 | 24 | 67 |
| Qaradağ Rayon məhkəməsi | 2 | 7 | 20 | 29 |
| Xətai Rayon Məhkəməsi | 19 | 63 | 18 | 100 |
| Nərimanov Rayon Məhkəməsi | 14 | 19 | 40 | 73 |
| Nəsimi Rayon Məhkəməsi | 9 | 27 | 19 | 55 |
| Nizami Rayon Məhkəməsi | 6 | 41 | 21 | 68 |
| Səbail Rayon Məhkəməsi | 4 | 27 | 12 | 43 |
| Sabunçu Rayon Məhkəməsi | 7 | 33 | 37 | 77 |
| Suraxanı Rayon Məhkəməsi | 6 | 24 | 19 | 49 |
| Yasamal Rayon Məhkəməsi | 15 | 21 | 39 | 75 |
| **CƏMİ** | **157** | **373** | **280** | **810** |



## 2009-CU İLDƏ REGİONLARDA HÜQUQ XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİ

| MƏHKƏMƏLƏR | Müqavilə əsasında | Dövlət hesabına | Müdafiəçi olmayıb | CƏMİ |
|---|---|---|---|---|
| Gəncə Apellyasiya Məhkəməsi | 5 | 0 | 9 | 14 |
| Şəki Apellyasiya Məhkəməsi | 8 | 4 | 17 | 29 |
| Şirvan Apellyasiya məhkəməsi | 3 | 0 | 1 | 4 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 7 | 1 | 6 | 14 |
| Abşeron Rayon Məhkəməsi | 4 | 3 | 9 | 16 |
| Gəncə-Kəpəz Rayon Məhkəməsi | 4 | 0 | 26 | 30 |
| Gəncə-Nizami Rayon Məhkəməsi | 6 | 1 | 16 | 23 |
| Şəki Şəhər Məhkəməsi | 2 | 0 | 13 | 15 |
| Şirvan Şəhər Məhkəməsi | 1 | 0 | 16 | 17 |
| Sumqayıt Şəhər Məhkəməsi | 5 | 5 | 58 | 68 |
| Astara Rayon Məhkəməsi | 0 | 0 | 14 | 14 |
| Qəbələ Rayon Məhkəməsi | 0 | 0 | 1 | 1 |
| Qax Rayon Məhkəməsi | 1 | 0 | 0 | 1 |
| Goranboy Rayon Məhkəməsi | 0 | 1 | 1 | 2 |
| Quba Rayon Məhkəməsi | 0 | 0 | 6 | 6 |
| Qusar Rayon Məhkəməsi | 0 | 2 | 1 | 3 |
| Xaçmaz Rayon Məhkəməsi | 0 | 0 | 2 | 2 |
| Lənkəran Rayon Məhkəməsi | 8 | 2 | 6 | 16 |
| Mingəçevir Rayon Məhkəməsi | 0 | 0 | 3 | 3 |
| **CƏMİ** | **54** | **19** | **205** | **278** |




CƏMİ: 278 cinayət işi

205 iş - müdafiəçi olmayıb

19 iş - müdafiəçi dövlət hesabına təyin olunub

54 iş - müdafiəçi müqavilə əsasında olub

### *1.10 Tərcüməçinin yardımından pulsuz istifadə etmək hüququ*

AİHK-in 6-cı maddəsinin 3-cü bəndinin "e" yarımbəndində deyilir ki, cinayət törətməkdə ittiham olunan hər kəs:

> *[...] "məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə tərcüməçinin pulsuz köməyindən istifadə etmək hüququna malikdir."*

Bu hüquq təqsirləndirilən şəxsin cinayət mühakimə icraatında səmərəli şəkildə iştirak etməsini təmin edir ki, bu iştirak da onun yalnız məhkəmənin iclas zalında olmasını deyil, həm də icraatı dinləməsi və izləməsini nəzərdə tutur.[96] Belə ki, məhkəmədə istifadə edilən dili başa düşməyən və ya həmin dildə danışmayan təqsirləndirilən şəxsin ona qarşı açılmış icraata dair bütün sənədlərin və ifadələrin yazılı və ya şifahi tərcümə edilməsi üçün tərcüməçinin yardımından pulsuz istifadə etmək hüququ vardır ki, bu da onun ədalətli məhkəmədən faydalanması üçün vacibdir.[97]

Beləliklə də təqsirləndirilən şəxsin yalnız məhkəmə baxışı zamanı şifahi tərcümə ilə təmin edilmək hüququ deyil, həm də lazımi sənədlər və / və ya materiallar ilə təmin edilmək hüququ vardır. Lakin 6-cı maddənin 3-cü bəndinin "e" yarımbəndi prosedurun tərkib hissəsi olan yazılı sübutların və ya rəsmi sənədlərin bütünlüklə yazılı şəkildə tərcümə olunmasını tələb edəcək qədər uzağa getmir. Şifahi tərcümə elə şəkildə təmin olunmalıdır ki, təqsirləndirilən şəxs ona qarşı açılmış işdən xəbərdar olsun və özünü müdafiə edə bilsin, xüsusilə də hadisələrə dair öz mövqeyini məhkəməyə bildirmək iqtidarında olsun."[98]

6-cı maddənin 3-cü bəndinin "e" yarımbəndi təqsirləndirilən şəxsə hər hansı xüsusi dildən və ya öz ana dilindən istifadə etmək hüququ vermir. Əgər icraat təqsirləndirilən şəxsin sərbəst bildiyi, başa düşdüyü və danışdığı dildə aparılırsa və ya onun başa düşmədiyi və danışa bilmədiyi dilə - dildən tərcümə edilirsə, bu, AİHK-ə müvafiqdir.[99]

Tərcümənin adekvatlığına gəldikdə isə, təqsirləndirilən şəxsin tərcüməyə ehtiyacı olub-olmadığını aydınlaşdırmaq və onun müvafiq tərcümədən yararlanmasını təmin etmək *"icraatın ədalətliliyinin ən yüksək himayəçisi"*[100] kimi hakimin öhdəliyidir. Tərcümə (həm yazılı, həm şifahi) aydın və anlaşıqlı olmalıdır ki, təqsirləndirilən şəxs müdafiə hüququndan tam şəkildə istifadə edə bilsin və məhkəmə prosesinin digər iştirakçıları da məhkəmə icraatını tam anlasınlar.[101]

---

[96] *Stanford Birləşmiş Krallığa qarşı* məhkəmə işi, AİHM-in 23 fevral 1994-cü il tarixli Qərarının 26-cı bəndi.
[97] *Luedike, Belkasem və Koç Almaniyaya qarşı* məhkəmə işi, AİHM-in 28 noyabr 1978-ci il tarixli Qərarının 48-ci bəndi.
[98] *Kamasinski Avstriyaya qarşı* məhkəmə işi, AİHM-in 19 dekabr 1989-cu il tarixli Qərarının 74-cü bəndi.
[99] AİHM-in bununla bağlı təcrübəsinin müfəssəl təhlili üçün bax: Stefan Treçsel, *Cinayət Mühakimə İcraatında İnsan Hüquqları*, Oksford Universiteti Nəşriyyatı, 2005, səh.330.
[100] *Kuskani Birləşmiş Krallığa qarşı* məhkəmə işi, AİHM-in 24 dekabr 2002-ci il tarixli Qərarının 38-39-cu bəndləri.
[101] "Cinayət Proseslərinin Müşahidəsi Dərsliyi", Praktik Hüquqşünaslar üçün Bələdçi 5, Beynəlxalq Hüquqşünaslar Komissiyası.

Azərbaycanda əgər tərəflər məhkəmədə istifadə olunan dili bilmirsə, CPM-in 26.2 və 26.2.2-ci maddələrinə əsasən, cinayət prosesini həyata keçirən orqan, hər şeydən əlavə, "*ibtidai araşdırma və məhkəmə baxışı zamanı tərcüməçinin köməyindən pulsuz istifadə etmək, ibtidai araşdırma qurtardıqdan sonra cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallarla tam tanış olmaq, məhkəmədə ana dilində çıxış etmək*" hüququnu təmin etməlidir.

CPM-in 99.4 və 99.4.2-ci maddələrinə əsasən, tərcüməçi "*cinayət prosesini həyata keçirən orqana tərcümə edilən dilləri bilməsini təsdiq edən sənəd təqdim etmək; cinayət prosesini həyata keçirən orqanın, həmçinin məhkəmə iclasında cinayət prosesi tərəflərinin tələbi ilə tərcüməni tam və düzgün yerinə yetirməsi qabiliyyətini düzgün qiymətləndirmək*" öhdəliyi daşıyır. CPM-in 356.3-cü maddəsində daha sonra qeyd edilir ki, "*Məhkəmə baxışının nəticələrinə dair məhkəmənin yekun qərarı təqsirləndirilən şəxsin bilmədiyi dildə tərtib edildikdə, həmin qərar elan edildikdən dərhal sonra o, tərcüməçi tərəfindən təqsirləndirilən şəxsin ana dilinə və ya onun bildiyi başqa dilə tərcümə edilərək təqsirləndirilən şəxsə oxunmalıdır.*"

Bu hesabatda göstərilən nəticələr yalnız məhkəmə baxışları zamanı təmin edilən tərcümələrlə bağlıdır, çünki Məhkəmələrin Monitorinqi Proqramı yalnız məhkəmə baxışlarını əhatə etmişdir və bu zaman iş materiallarını nəzərdən keçirmək və ya təqsirləndirilən şəxslə məhkəməyədək icraat zamanı baş verənlər haqqında söhbət etmək mümkün olmamışdır.

Layihə Qrupu tərcüməçinin yardımından pulsuz istifadə etmək hüququ ilə bağlı aşağıda sadalanan əsas məsələləri qeyd etmişdir:

- tərcümənin lazımi səviyyədə təmin edilmədiyi hallar olmuşdur. Bu, əsas etibarilə məhkəmə administrasiyasının işə kifayət sayda tərcüməçi cəlb etməməsindən qaynaqlanır;
- məhkəmələrin çoxu səriştəli tərcüməçilərin xidmətindən istifadə etmir, əvəzində isə tərcüməni məhkəmə administrasiyasının işçiləri edirlər;
- adətən məhkəmə iclası ərzində səslənənlərin hamısı tərcümə olunmur – tərcüməçi məhkəmənin nəzarəti olmadan istədiyi hissələri tərcümə edir;
- elə hallar olmuşdur ki, hakim tərcüməçiyə hüquq və vəzifələrini izah etməmiş və yanlış tərcüməyə görə cinayət məsuliyyətinə cəlb oluna biləcəyi barədə xəbərdarlıq etməmişdir.

*Tərcümənin təmin edilmədiyi hallar:*

- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Tomaz Qedevanişvilinin məhkəmə işi üzrə 16 mart 2009-cu il tarixdə Nərimanov Rayon Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı Gürcüstan Respublikasının vətəndaşı olan təqsirləndirilən şəxs Azərbaycan dilini başa düşmürdü. Məhkəmə baxışı zamanı təqsirləndirilən şəxs

bildirmişdir ki, ona iş materialları müvafiq qaydada tərcümə edilərək təqdim edilməmişdir, ona görə də o, müdafiəyə tam hazırlaşa bilməmişdir. Buna baxmayaraq, sədrlik edən hakim heç bir tərcümə xidmətləri təmin etmədən işə baxılmasını davam etdirməyə qərar vermişdir;

- Cinayət Məcəlləsinin 221.3-cü maddəsi – xuliqanlıq – ilə ittiham olunan Konstantin Şevçenkonun məhkəmə işi üzrə 24 aprel 2009-cu il tarixdə Xətai Rayon Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin Azərbaycan dilini başa düşmədiyinə baxmayaraq, məhkəmə iclası rus dilinə tərcümə təmin olunmadan Azərbaycan dilində aparılmışdır;

- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Eldar Mahmudovun məhkəmə işi üzrə 09 iyun 2009-cu il tarixdə Quba Rayon Məhkəməsində keçirilən məhkəmə baxışında təqsirləndirilən şəxs Azərbaycan dilini bilmirdi, ona görə də dindirilən zaman çətinlik çəkirdi. Sədrlik edən hakim təqsirləndirilən şəxs üçün tərcüməçi təmin etməmişdi. Məhkəmə baxışı ərzində təqsirləndirilən şəxsin qohumları dəfələrlə onun Azərbaycan dilini pis bildiyini qeyd etmişlər.

*Tərcüməçilərə yanlış tərcüməyə görə cinayət məsuliyyəti daşıdıqları barədə xəbərdarlıq edilmədiyi hallar:*

- Cinayət Məcəlləsinin 200.2.3-cü maddəsi – istehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma – ilə ittiham olunan Dipak Filvaninin məhkəmə işi üzrə 05 iyun 2009-cu il tarixdə Xətai Rayon Məhkəməsində keçirilən məhkəmə baxışında Hindistan vətəndaşı olan təqsirləndirilən şəxs Azərbaycan dilini başa düşmürdü. Ona işlədiyi yerdən tərcüməçi yardım edirdi. Lakin hakim tərcüməçiyə hüquq və vəzifələrini izah etməmiş və yanlış tərcüməyə görə cinayət məsuliyyəti daşıdığı barədə xəbərdarlıq etməmişdir;

- Cinayət Məcəlləsinin 180.1-ci maddəsi – soyğunçuluq – ilə ittiham olunan Vladislav Nəzərovun məhkəmə işi üzrə 10 dekabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində keçirilən məhkəmə baxışında hakim təqsirləndirilən şəxs üçün Azərbaycan dilindən rus dilinə tərcümə edən şəxsə hüquq və vəzifələrini izah etməmişdir. Buna baxmayaraq, hakim tərcüməçidən ona hüquq və vəzifələri barədə məlumat verildiyini təsdiqləyən sənədi imzalamağı xahiş etmişdir.

*Müsbət təcrübəyə nümunə hesab edilən hallar:*

- Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi – dələduzluq – ilə ittiham olunan Mohsen Roohi-hirin məhkəmə işi üzrə 24 aprel 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə keçirilən məhkəmə baxışı zamanı İran vətəndaşı olan təqsirləndirilən şəxs dili bildiyini təsdiq edən sənədə malik olan tərcüməçinin xidmətləri ilə təmin edilmişdi;

- Cinayət Məcəlləsinin 228.1 və 279-cu maddələri – qanunsuz olaraq odlu silah saxlama və qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma – ilə ittiham olunan Əlixan Xasuyevin məhkəmə işi üzrə 08 may 2009-cu il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə keçirilən məhkəmə baxışı zamanı təqsirləndirilən şəxs Azərbaycan dilində danışa bilmədiyindən dili bildiyini təsdiq edən sənədə malik olan tərcüməçi ilə təmin edilmişdi.

### *1.11 Əsaslandırılmış məhkəmə qərarı hüququ*

AİHK-in 6-cı maddəsinin 1-ci bəndi hakimlərdən çıxarılan qərarların əsaslandırılmasını tələb edir. Əsaslandırılmış qərarın daşıdığı funksiyalardan biri də tərəflərə onların dinlənildiyini bildirməkdir. Bundan başqa, əsaslandırılmış qərar tərəflərə şikayət etmək və şikayətinin apellyasiya orqanı tərəfindən araşdırılması üçün imkan yaradır. Yalnız əsaslandırılmış qərar çıxarmaqla ədalət mühakiməsi üzərində ictimai nəzarəti təmin etmək mümkündür.[102]

Lakin bu hüquq hər bir arqumentə müfəssəl cavabın verilməsi kimi başa düşülməməlidir.[103] Bu hüququn hansı miqyasda tətbiq ediləcəyi qərarın xarakterindən asılıdır. Məhkəmənin səbəbləri göstərmək öhdəliyini yerinə yetirib-yetirmədiyi ilə bağlı suala yalnız konkret işin halları fonunda cavab vermək mümkündür.[104]

Əsaslandırılmış məhkəmə qərarı hüququ cinayət mühakimə icraatının apellyasiya mərhələsi da daxil olmaqla, bütün mərhələlərinə aiddir. Bu hüquq nəzərdə tutur ki, məhkəmənin hökmünə işin araşdırılmış vacib halları, sübutları və hüquqi əsaslandırması daxil edilməlidir.[105]

Məsələn, Hacıanastasiou Yunanıstana qarşı işdə[106] şikayətçiyə təqdim edilmiş məhkəmə qərarı tam qərarın yalnız xülasəsi olduğundan AİHK-in 6-cı maddəsinin 1-ci bəndinin pozulmasını tanınmışdır. İş üzrə tərəflərin məhkəmə qərarının mətninə çatımsız olması müdafiə hüququnun, xüsusilə bu qərarın yuxarı məhkəmə instansiyasında mübahisələndirilməsi hüququnun pozulması ilə nəticələnə bilər.

Azərbaycanda CPM-in 27 və 356-cı maddələrinə əsasən, məhkəmə qərarları açıq elan olunmalıdır. CMP-in 356.1-ci maddəsinə əsasən, "*məhkəmə baxışının nəticələrinə dair məhkəmənin yekun qərarı imzalandıqdan sonra məhkəmə iclas zalına qayıdır və məhkəmə iclasında sədrlik edən, həcmi böyük olduqda isə məhkəmə tərkibində olan digər hakimlər növbə ilə həmin qərarı elan edirlər*". Daha sonra CPM-in 356.3-cü maddəsində təsbit edilir ki, "*məhkəmə baxışının nəticələrinə dair məhkəmənin yekun qərarı təqsirləndirilən şəxsin*

---

[102] *Suominen Finlandiyaya qarşı* məhkəmə işi, AİHM-in 24 iyul 2003-cü il tarixli Qərarının 37-ci bəndi.
[103] *Van de Hurk Niderlanda qarşı* məhkəmə işi, AİHM-in 19 aprel 1994-cü il tarixli Qərarının 19-cu bəndi.
[104] *Hiro Balani İspaniyaya qarşı* məhkəmə işi, AİHM-in 9 dekabr 1994-cü il tarixli Qərarının 27-ci bəndi. Həmçinin *Ruiz Torica İspaniyaya qarşı* məhkəmə işi, AİHM-in 9 dekabr 1994-cü il tarixli Qərarının 29-cu bəndi.
[105] "Cinayət Proseslərinin Müşahidəsi Dərsliyi", Praktik Hüquqşünaslar üçün Bələdçi 5, Beynəlxalq Hüquqşünaslar Komissiyası.
[106] *Hacıanastasiou Yunanıstana qarşı* məhkəmə işi, AİHM-in 16 dekabr 1992-ci il tarixli Qərarının 31-37-ci bəndləri.

*bilmədiyi dildə tərtib edildikdə, həmin qərar elan edildikdən dərhal sonra o, tərcüməçi tərəfindən təqsirləndirilən şəxsin ana dilinə və ya onun bildiyi başqa dilə tərcümə edilərək təqsirləndirilən şəxsə oxunmalıdır*".

Layihə Qrupu qeyd etmişdir ki, müşahidə edilmiş məhkəmə iclaslarının çoxunda hakimlər təqsirləndirilən şəxslərə qərarı tam olaraq oxumamış, əsasən nəticə və sanksiya hissələrini oxumaqla kifayətlənmişlər. Nəticədə isə CPM -in 349.3, 352.3 və 353.2-ci maddələrində tələb olunmasına baxmayaraq, qərarın əsaslandırılması müdafiə tərəfinə aydın olmamışdır. Layihə Qrupu həmçinin təqsirləndirilən şəxslərə məhkəmənin yekun qərarından şikayət etmək hüququ barədə məlumat verilmədiyi hallara da rast gəlmişdir.

*CPM-in 356-cı maddəsinin tələblərinə zidd olaraq, qərarın tam oxunmadığı və təqsirləndirilən şəxsə şikayət etmək hüququ barədə məlumat verilmədiyi hallar:*

- Cinayət Məcəlləsinin 204.1-ci maddəsi – saxta pul hazırlama və satma – ilə ittiham olunan Sahil Əliyevin məhkəmə işinə 11 avqust 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində keçirilən məhkəmə baxışında sədrlik edən hakim qərarın nəticə hissəsini oxuyarkən məhkəmənin yekun qərarından şikayət etmək hüququnu və şikayətin hansı zaman müddətində verilməli olduğunu izah etməmişdir.

- Eyni pozuntu Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Aynur Əhmədovanın məhkəmə işi üzrə 03 sentyabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı müşahidə edilmişdir.

- Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsi – təkrarən törədilmiş oğurluq – ilə ittiham olunan Manaf Paşayevin məhkəmə işi üzrə 16 sentyabr 2009-cu il tarixdə Qaradağ Rayon Məhkəməsində keçirilən məhkəmə baxışında hakim, təyin olunmuş cəzalar da daxil olmaqla, qərarın yalnız nəticə hissəsini elan etmişdir və bu zaman qərarı əsaslandırmış hallara toxunmamışdır.

- Eyni hal Cinayət Məcəlləsinin 192.1-ci maddəsi – qanunsuz sahibkarlıq – ilə ittiham olunan Mehdi Mehdiyevin məhkəmə işi üzrə 07 oktyabr 2009-cu il tarixdə Nərimanov Rayon Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı müşahidə edilmişdir.

- Cinayət Məcəlləsinin 221.1-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Anar Əliyevin məhkəmə işi üzrə 10 noyabr 2009-cu il tarixdə Nərimanov Rayon Məhkəməsində keçirilən məhkəmə baxışında hakim qərarı, əsaslandırıcı hissə də daxil olmaqla, tam oxumaq əvəzinə, yalnız onun nəticə hissəsini elan etmişdir.

- Oxşar pozuntular Cinayət Məcəlləsinin 315.1-ci maddəsi – hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə – ilə ittiham olunan Emin Hüseynovun məhkəmə işi, Sumqayıt Şəhər Məhkəməsi, 18 noyabr 2009-cu il;

- Cinayət Məcəlləsinin 127.2.3 və 221.2.1-ci maddələri – qəsdən sağlamlığa az ağır zərər vurma və bir qrup şəxs tərəfindən törədilmiş xuliqanlıq – ilə ittiham olunan Emin Abdullayev və Adnan Hacızadənin məhkəmə işinə, Səbail Rayon Məhkəməsində, 11 noyabr 2009-cu il tgarixdə baxılması zamanı müşahidə edilmişdir;

- Cinayət Məcəlləsinin 128-ci maddəsi – qəsdən sağlamlığa yüngül zərər vurma – ilə ittiham olunan Ziya Qulaməliyevin məhkəmə işi üzrə 28 sentyabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı hakim qərarın yalnız nəticə hissəsini elan etmişdir və bu zaman qərarı əsaslandıran səbəblərə toxunulmamışdır. Bundan başqa, hakim hətta müdafiəçisi olmayan təqsirləndirilən şəxsə qərarı, şikayət vermək hüququnu və qaydalarını izah etməmişdir.

- Layihə Qrupu eyni halı Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Mehman Qurbanovun məhkəmə işi üzrə 15 dekabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində keçirilmiş məhkəmə baxışında və Cinayət Məcəlləsinin 221.2.2-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Əbülfəz İmanovun məhkəmə işi üzrə 30 oktyabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində keçirilmiş məhkəmə baxışında müşahidə etmişdir.

- Cinayət Məcəlləsinin 180.1-ci maddəsi – soyğunçuluq – ilə ittiham olunan Vladislav Nəzərovun məhkəmə işi üzrə 10 dekabr 2009-cu il tarixdə Sumqayıt Şəhər Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı hakim qərarı tam oxumaq əvəzinə, əsaslandırıcı hissəyə toxunmadan onun yalnız nəticə hissəsini elan etmişdir və təqsirləndirilən şəxsə qərarı, şikayət vermək hüququnu və qaydalarını izah etməmişdir.

### *1.12 Sübutlar və məhkəmə icraatlarının qeyri-adekvat protokollaşdırılması*

CPM-in 98.2.2-ci maddəsinə əsasən, məhkəmə iclasının protokolunda məhkəmə icraatının gedişi, o cümlədən, şifahi vəsatətlər, etirazlar, ifadələr, izahatlar tam və düzgün şəkildə qeyd edilməlidir. CPM-in 98.2, 98.2.1 və 98.2.2-ci maddələri məhkəmə iclasının katibinin üzərinə aşağıdakı vəzifələri qoyur:

> *"məhkəmə iclası protokolunun aparılmasının təmin edilməsi üçün zəruri olan bütün müddətdə məhkəmənin iclas zalında olmaq və məhkəmə iclasında sədrlik edənin icazəsi olmadan zalı tərk etməmək; məhkəmə iclası protokolunda məhkəmə icraatının gedişini, məhkəmə qərarlarını, məhkəmə*

*iclasında iştirak edən şəxslərin vəsatətlərini, etirazlarını, ifadələrini, izahatlarını, habelə məhkəmə iclasının protokolunda göstərilməli olan digər halları tam və düzgün qeyd etmək.*"

Ümumilikdə Layihə Qrupu protokolların müvafiq qaydada aparıldığını qeyd etmişdir. Lakin bəzi məhkəmə baxışlarında protokolların düzgün aparılmaması nəzərə çarpmışdır. Xüsusilə də bəzi hallarda məhkəmə iclasının katibi bütün proses ərzində deyil, yalnız vaxtaşırı qeydlər aparmışdır.

*Müşahidəçilər aşağıdakı məhkəmə iclaslarında protokollaşdırma ilə bağlı pozuntular qeydə almışlar:*

**Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə**

- Cinayət Məcəlləsinin 120-ci və 221-ci maddələri – qəsdən adam öldürmə və xuliqanlıq - ilə ittiham olunan Sahib Əliyev və Emin Ağayevin məhkəmə işi, 30 mart 2009-cu il;
- Cinayət Məcəlləsinin 177.3-cü maddəsi – oğurluq – ilə ittiham olunan Eldar Rəhimovun məhkəmə işi, 30 mart 2009-cu il;
- Cinayət Məcəlləsinin 179.3.2-ci, 213.2 və 313 maddələri - mənimsəmə və ya israf etmə, vergi ödəməkdən yayınma və vəzifə saxtakarlığı - ilə ittiham olunan İlham Şamilov və Xanoğlan Nuriyevin məhkəmə işi, 06 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 234.4-ci maddəsi – satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Şövqü Etibarovun məhkəmə işi, 30 mart 2009-cu il;
- Cinayət Məcəlləsinin 120.1-ci maddəsi – adam öldürmə – ilə ittiham olunan Elvin Həsənovun məhkəmə işi, 29 mart 2009-cu il;

**Nəsimi Rayon Məhkəməsi**

- Cinayət Məcəlləsinin 194.2.4-cü maddəsi – bilə-bilə cinayət yolu ilə əldə edilmiş əmlakı alma və ya satma – ilə ittiham olunan Ehtiram Kərimov, Seymur İbrahimov və Əli Hüseynovun məhkəmə işi, 10 aprel 2009-cu il;

**Sabunçu Rayon Məhkəməsi**

- Cinayət Məcəlləsinin 263-cü maddəsi – ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olmaqla yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma – ilə ittiham olunan Nemət Ağayevin məhkəmə işi, 07 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 234.2-ci maddəsi – satış məqsədi ilə qanunsuz olaraq külli miqdarda narkotik vasitələri saxlama – ilə ittiham olunan Elçin Vəliyevin məhkəmə işi, 07 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 152, 186.2.1 və 186.2.2-ci maddələri – on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə; əmlakı qəsdən məhv etmə və ya zədələmə – ilə ittiham olunan Sənan Hüseynov və Günel Şirinovanın məhkəmə işi, 31 mart 2009-cu il.

Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Vidadi Əbülfəzovun məhkəmə işi üzrə 30 iyun 2009-cu il tarixdə Astara Rayon Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı iclas katibi məhkəmə baxışı ərzində iclas zalını yarım saatlığına tərk etmişdir və qayıdandan da sonra prosesə kifayət qədər diqqət yetirmədən qeydlər aparmağa başlamışdır;

Cinayət Məcəlləsinin 315.1 və 221-ci maddələri – hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə və xuliqanlıq – ilə ittiham olunan Tural Atakişiyev, Pərviz Əlihəsənov və Xəyal Abdullayevin məhkəmə işi üzrə 30 iyun 2009-cu il tarixdə Gəncə Şəhər Nizami Rayon Məhkəməsində keçirilən məhkəmə iclası zamanı iclas katibi heç bir qeyd aparmamışdır.

## II. Nəticə və Tövsiyələr

Hazırkı məhkəmə proseslərinin monitorinqi hesabatında qeyd olunduğu kimi, 2009-cu il boyunca aparılan məhkəmə proseslərinin müşahidəsi, Ofisin 2008-ci ildə məhkəmə proseslərinin monitorinqi ilə bağlı bundan əvvəlki hesabatının nəşrindən sonra nəzərə çarpacaq dəyişikliklərin olmasına baxmayaraq, yerli qanunvericilik və müvafiq ədalət mühakiməsi standartları ilə tam uyğunlaşma baxımından nöqsanları aşkar etmişdir.

Təqsirləndirilən şəxslərin və şahidlərin işgəncə və ya insan ləyaqətini alçaldan rəftara məruz qalmaları ilə bağlı etibarlı ittiham halları və məhkəmə tərəfindən ittihamların düzgün və ya müvafiq araşdırılmaması halları xüsusi narahatlıq doğurur. Nəticədə isə məhkəmələr təqsirləndirilənlərin və müdafiəçilərin vəsatətlərini müvafiq olaraq təmin etmədən qəbuledilməz sübutları qəbul etməkdə davam edir.

Ofis Azərbaycanda davamlı məhkəmə və qanunvericilik islahatlarını dəstəkləməkdə davam etməyə hazırdır. Bu səbəbdən, Ofis Azərbaycan ədliyyə sektorunu təkmilləşdirmək məqsədilə bu hesabatın nəticələrinə əsaslanaraq məhkəmə proseslərinin müşahidəsi zamanı müəyyən edilən ədalət mühakiməsi standartlarının pozuntularını aradan qaldırmaq üçün mümkün islahatlara dair aşağıda göstərilən ümumi tövsiyələri təklif edir. Ofis bu tövsiyələrin icrasında müvafiq dövlət qurumlarına lazımi dəstəyi verməyə hazır olduğunu bildirir.

1. Hakimlər işlərə müstəqil və qərəzsiz baxmalıdırlar. O cümlədən, onlar müdafiə olunan şəxsin təqsirinə dair öz mövqelərini ehtiva edən iradlar bildirməkdən çəkinməlidirlər. Hökmdən əvvəl edilən prosessual hərəkətlər təqsirləndirilən şəxsin təqsirli olmasını güman etməməlidir.

2. Təqsirləndirilən şəxsə tətbiq olunan təhlükəsizlik tədbirləri, xüsusilə, həbs qətimkan tədbiri, hər bir işdə fərdi risk qiymətləndirmələrinə əsaslanmalı və ondan istifadə müvafiq yerli qanunvericilik və beynəlxalq standartlara uyğun olaraq, mümkün qədər məhdudlaşdırılmalıdır.[107] Bu tədbirlər təqsirsizlik prezumpsiyasını rəhbər tutmalı və insan ləyaqətini alçaldan rəftarın qarşısını almaq üçün bütün addımlar atılmalıdır.

3. Cinayət işlərində hakimlər hər iki tərəfə bərabər münasibət göstərməlidirlər. Məsələn, müdafiə tərəfinə məhkəmə prosesində dindirmək üçün öz şahidlərinin siyahısını işə daxil etməyə imkan verilməlidir. Məhkəmə ittiham və müdafiə tərəfinin siyahısında olan bütün şahidləri çağırmalıdır. Əlavə şahid dindirmək üçün tərəflərin qaldırdıqları vəsatətlərə hakim tərəfindən fərdi olaraq baxılmalı

[107] Bax: Təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimatlara baxılarkən məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqi təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2 saylı 3 noyabr 2009-cu il tarixli Qərarı.

və bu vəsatətlərin qəbul edilməməsi əsaslandırılmalıdır. İttiham və ya müdafiə tərəfindən əlavə sübutlara baxılma ilə bağlı qaldırılan vəsatətlər eyni məhkəmə prosesində həll edilməlidir.

4. Təqsirləndirilən şəxsin səmərəli hüquqi təmsilçilik, o cümlədən əgər istəyərsə, dövlət tərəfindən müəyyən edilən vəkilə tam çatımlığı olmalıdır. Müdafiə tərəfinə işlə tam tanış olmaq imkanı yaradılmalıdır. Bura həmçinin müdafiəyə hazırlıq üçün müvafiq vaxt və resurslar da daxildir.

5. İttiham tərəfi əksini sübut etmədikcə, hakimlər işgəncə, ləyaqəti alçadan və qeyri-insani rəftar nəticəsində əldə olunan sübutları iş materiallarından çıxarmalıdırlar. Eyni zamanda, hakimlər bu cür iddiaların vaxtında və müstəqil şəkildə araşdırılmasını təmin etməlidirlər.

6. Məhkəmə prosesinin düzgünlüyünün və nəticə etibarilə, təqsirləndirilən şəxsin müdafiə olunmaq hüququnun tam təmin edilməsi üçün hökmlər əsaslandırılmalıdır.

7. Təqsirləndirilən şəxsi müvafiq yerli qanunvericilik və beynəlxalq standartla uyğun olaraq, ədalət mühakiməsi ilə təmin etmək üçün hakimlər yerli qanunvericilikdə mövcud təminatların tətbiqini təmin etməlidirlər.

8. Ədalət mühakiməsini həyata keçirmək üçün ədliyyə işçilərinin peşəkarlığını və biliklərini daha da yüksəltmək məqsədilə, Ofis, hüquqşünasların və xüsusilə hakimlərin Azərbaycan məhkəmələrinin və AİHM-in müvafiq presedent hüquqlarına dair, o cümlədən, təqsirləndirilən şəxsin səmərəli hüquqi müdafiə hüququnun praktiki tərəfləri, tərəflərin bərabərliyi və qərəzsizlik prinsipinə dair mütəmadi olaraq məlumatlandırılması və təlim almasını tövsiyə edir. Bundan əlavə, vəkillər məhkəmədə öz bacarıq və səmərəliliyi daha da artırmaq üçün yetərli təlim almalıdırlar. Bundan başqa, məhkəmə iclas katibləri rəsmi məhkəmə protokollarını müvafiq yerli qanunvericiliyə uyğun olaraq dəqiq yazılmasına dair xüsusi təlim almalıdırlar.

## III. Əlavələr

Əlavə 1

*Hakimlərin təqsirləndirilən şəxslərə hüquqları barədə məlumat və izahat vermədikləri hallar*:

**Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə**

- Cinayət Məcəlləsinin 120.2.4 və 120.2.9-cu maddələri – qəsdən adam öldürmə və təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə – ilə ittiham olunan Marqarita Alkinanın məhkəmə işi, 14 aprel 2009-cu il;

**Əzizbəyov Rayon Məhkəməsi**

- Cinayət Məcəlləsinin 178.2.2, 320.1.2-ci maddələri – dələduzluq, rəsmi blankları, sənədləri və möhürləri qanunsuz hazırlama/satma/istifadə etmə – ilə ittiham olunan Hicran Aydınlının məhkəmə işi, 01 aprel 2009-cu il;

**Binəqədi Rayon Məhkəməsi**

- Cinayət Məcəlləsinin 127.1 və 132-ci maddələri – təhqir və böhtan – ilə ittiham olunan Azər Quliyev və Mansur Əsədullayevin məhkəmə işi, 24 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 263.1 və 264-cü maddələri – ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurmaqla, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma və yol nəqliyyat hadisəsi yerindən qaçma – ilə ittiham olunan Hatəm Zeynalovun məhkəmə işi, 30 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 132-ci maddəsi – döymə – ilə ittiham olunan Musa Tağıyev və Fizuli Hüseynovun məhkəmə işi, 29 aprel 2009-cu il;
- Cinayət Məcəlləsinin 221.1-ci maddəsi – xuliqanlıq – ilə ittiham olunan Dürdanə Əhmədovanın məhkəmə işi, 01 may 2009-cu il;
- Cinayət Məcəlləsinin 234.1-ci maddəsi – qanunsuz olaraq narkotik vasitələri saxlama – ilə ittiham olunan Eldar Murquzovun məhkəmə işi, 04 may 2009-cu il;

**Xətai Rayon Məhkəməsi**

